RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 268 (9435) 8 DEKABR 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Qarşılıqlı etimada əsaslanan ilk addım

### Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlaması

Azərbaycan Respublikası və Ermənistan Respublikası regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşür. İki ölkə münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində iki ölkə arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına dair razılıq əldə olunub.

Humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, Azərbaycan Respublikası 32 erməni hərbçini azad edir.

Ermənistan Respublikası öz növbəsində humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, 2 azərbaycanlı hərbçini azad edir.

Xoş niyyətin təzahürü olaraq, Ermənistan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycan Respublikasının namizədliyini dəstəkləyir. Azərbaycan Respublikası və Ermənistan Respublikası ümid edirlər ki, Şərqi Avropa Qrupuna daxil olan digər ölkələr də Azərbaycanın namizədliyini dəstəkləyəcək. Xoş niyyətin təzahürü olaraq, Azərbaycan Respublikası Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəkləyir.

Azərbaycan Respublikası və Ermənistan Respublikası yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər və beynəlxalq ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadın yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylərini dəstəkləməyə çağırırlar.

## Azərbaycan ilə Ermənistan arasında razılıq əldə olundu

### Azərbaycan xalqına qarşı müharibə cinayətləri törətmiş qondarma rejimin rəhbərlərinə mərhəmət olmayacaq

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində humanizm prinsipinə sadiqlik ruhunda, xoş niyyət göstəricisi olaraq iki ölkə arasında qarşılıqlı etimad tədbiri kimi Azərbaycan tərəfindən erməniəsilli 32 şəxsin, Ermənistan tərəfindən isə 2 Azərbaycan hərbçisinin azad edilməsi barədə razılıq əldə edilib.

Ermənistana qaytarılması nəzərdə tutulan 32 nəfər (26 nəfər 2020-ci ilin dekabrında Hadrut istiqamətində keçirilmiş antiterror tədbirləri zamanı həbs edilmiş şəxslər, qalan 6 nəfər müxtəlif vaxtlarda sərhəddə saxlanılmış şəxslər) artıq cəzalarının böyük hissəsini çəkiblər.

Otuz iki nəfərlik siyahıya Azərbaycan xalqına qarşı müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlər törətmiş qondarma rejimin rəhbərləri Araik Arutunyan, Bako Saakyan, Arkadi Qukasyan, Ruben Vardanyan, o cümlədən Vaqif Xaçaturyan, Alyoşa Xosrovyan kimi şəxslər daxil deyil və ola da bilməz.

Bu addım Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan insanına, ölkə vətəndaşlarına, hərbçilərə verdiyi dəyərin, əsirlikdə olan şəxslərin yaxınlarının hisslərinə şərik olmasının bariz nümunəsidir. Prezident İlham Əliyev bir daha sübut etdi ki, o, hər bir azərbaycanlının Prezidentidir.

Xüsusilə vurğulanmalıdır ki, bu razılaşma Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqlar nəticəsində əldə olunub və heç bir üçüncü ölkə tərəfindən vasitəçilik edilməyib. Bu, bir daha göstərir ki, Azərbaycan və Ermənistan vasitəçilər olmadan sülh prosesini irəli apara bilərlər.

# ZƏFƏR MANDATI



## Prezidenti bu dəfə ərazi bütövlüyü və suverenliyi tam bərpa edilən bütün Azərbaycan seçəcək

Azərbaycan vətəndaşları 60 gün sonra müstəqillik dövrünün 9-cu prezident seçkisində liderini müəyyənləşdirəcək.

Bu, yeni tariximizin dördüncü növbədənkənar prezident seçkiləridir. Amma budəfəki mahiyyət ilk iki seçkidən tam fərqlidir, yəni 1992 və 1993-cü illərin məlum situasiyalarının əksidir. Həmin dövrlərin növbədənkənar seçkiləri hərbi tənəzzülün, iqtisadi böhranın, siyasi təlatümlərin nəticəsi olaraq meydana çıxmış, ən əsası, ölkə rəhbərlərinin öz ali postlarından qaçmaları səbəbindən zərurətə çevrilmişdi.

2018-ci ilin aprel növbədənkənar seçkiləri isə Azərbaycana tarixinin ən qüdrətli dövrünü, ən möhtəşəm inkişafını yaşadan, ümummilli etimad qazanan Prezidentin siyasi qərarı ilə gerçəkləşmişdi.

2024-cü ilin 7 fevral növbədənkənar seçkilərinə isə tariximizin ən möhtəşəm Zəfərinin yaratdığı reallıqlar fonunda ortaya çıxan siyasi, iqtisadi, hüquqi, ən əsası, qlobal zərurətlər kontekstində gedirik…

Bu dəfə Prezidentə ərazi bütövlüyü və suverenliyi tam bərpa edilən bütün Azərbaycan səs verəcək!..

Prezident indi həm də savaşda qazandığı Zəfər mandatını ümummilli etimadla möhkəmləndirəcək!..

→ 4

## 2024-cü il fevralın 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri keçiriləcək



### Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında

#### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.
2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2023-cü il*

## İlham Əliyevdən ədalət dərsi



### Prezident həqiqətləri açıqladı, reallıqları göstərdi və mövqeyinin dəyişməyəcəyini bəyan etdi

Son 20 ildə tam müstəqil siyasət yürüdərək dünyanın geosiyası arenasında etibarlı tərəfdaş, sözünə, vədinə sadiq lider kimi qəbul edilən İlham Əliyev dekabrın 6-da Cənubi Qafqazda yaranmış reallıqları, Azərbaycanın dəyişməz mövqeyini, qarşıdakı hədəflərini dünyaya bir daha bəyan edərək hər kəsin diqqətinə çatdırdı ki, regionla bağlı istənilən prosesin müzakirəsi Azərbaycansız mümkün deyil.

ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən və 30 ölkənin məşhur beyin, tədqiqat mərkəzlərini təmsil edən 60-dan artıq xarici qonağın iştirak etdiyi "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda İlham Əliyev son aylarda Azərbaycana qarşı arzuolunmaz kampaniyalar aparan, ölkəmizi təhdid edən bəzi dairələrə bir daha ədalət dərsi keçdi.

Prezident hər zamankı kimi reallıqları göstərdi, həqiqəti danışdı və açıq-aşkar bəyan etdi ki, siyasi və iqtisadi müstəqilliyini təmin etmiş, müstəqil xarici siyasəti ilə düzə düz, əyriyə əyri deyən Azərbaycan hər zaman dostluğa, tərəfdaşlığa sadiq olub, təhdidə, şantaja, böhtana layiqli cavab verib.

→ 5

## Bədxahlara dəqiq və aydın mesaj

### "Prezident İlham Əliyevin önəmli açıqlamalarından dünyanın müxtəlif siyasi dairələri zəruri nəticələr çıxarmalıdır"

Azərbaycan lideri postmüharibə reallıqlarının regional müstəvidə cərəyan edən prosesləri barədə ətraflı və dolğun məlumat verdi. Eyni zamanda hazırkı geosiyasi vəziyyətlə bağlı sualları dəqiq və səmimi şəkildə cavablandırdı. Dövlət başçısı həmçinin Avropa İttifaqı və ABŞ ilə əməkdaşlıqda Azərbaycanın gələcəyinə dair strateji baxışlarını açıqladı. Üç saat davam edən forumda Prezident İlham Əliyev Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinə aparan yolda əldə olunmuş nailiyyətlər haqqında, eləcə də ölkəmizin suverenliyini bərpa etmək imkanına hazırlığı barədə danışdı.

→ 5

## Erməni diversant 18 il müddətinə azadlıqdan məhrum edilib

→ 12

## Ədalətli və dürüst

### "Prezident bir daha əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı"

Forumda Prezident həqiqətləri bir daha dünyaya çatdırdı. Ermənilər Qarabağda yaşamaq istəyirsə, onların iki yolu var: ya Azərbaycan vətəndaşlığını qəbul etməli, ya da yaşamaq üçün başqa ölkəni seçməlidirlər. Dövlət başçısı eyni zamanda Ermənistanın həmişə sülh danışıqlarından qaçdığını, Zəngəzur dəhlizində razılaşmaları pozduğunu da dilə gətirdi. Prezident bəzi dairələrin ikiüzlü siyasəti, Fransa və Hindistanın Azərbaycanda oynadığı mənfi rolu, Ermənistanı silahlandırmaqla revanş həvəsini artırmaq cəhdlərini pisləyərək bildirdi ki, onlar Qarabağı yenidən işğal edə biləcəklərini düşünürlər, amma bu, xam xəyaldır.

→ 5

## Daha 25 ailə Füzuli şəhərinə qayıtdı

Bakı şəhərinin Qaradağ rayonundan yola salınan, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış bir qrup füzulilinin də Vətən həsrətinə son qoyulub. Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə - 80 nəfər köçürülüb. Bununla da indiyədək Füzuli şəhərində 333 ailənin (1186 nəfərin) daimi məskunlaşması təmin edilib.

→ 7



## Qarabağ Universitetindən gənclər nə gözləyirlər?

→ 7

## "Washington Post"un 750 əməkdaşı son 48 ilin ən böyük tətilini keçirir

→ 6

## Ölkəmizdə güclü zəlzələ gözlənilmir



Azərbaycan seysmoloji baxımdan Ərəbistan və Avrasiya tektonik plitələrinin kəsişməsində yerləşdiyi üçün zəlzələ bölgəsi hesab edilir. Əslində ölkəmizdə mütəmadi olaraq zəlzələlər baş versə də, onlardan çoxu kiçik təkanlar olduğu üçün hiss edilmir. Azərbaycanda qeydə alınan zəlzələlər, əsasən, tektonik plitə və blokların hərəkəti nəticəsində ortaya çıxır.

→ 12

# Azərbaycanın Baş naziri Böyük Britaniyanın Dövlət katibinin müavini ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 7-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Dövlət katibinin parlament üzrə müavini, Biznes və Ticarət Departamentində ixracat naziri Lord Offordla görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunub.

Dövlətlərarası münasibətlərin gündəliyinin çox geniş olduğu bildirilərək iqtisadi-ticari əməkdaşlığın dinamikasından məmnunluq ifadə edildi.

Bildirildi ki, 2022-ci ildə ticarət dövriyyəsinin həcmi 55 faizdən çox artaraq bir milyard ABŞ dollarını üstələyib.

Bununla yanaşı, ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi üçün yaxşı imkanların mövcud olduğu diqqətə çatdırılıb. İqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Bakıda keçirilən 6-cı iclasının bu istiqamətdə birgə atılan səylərə töhfə verəcəyinə əminlik ifadə olunub. Böyük Britaniyanın 35 milyard ABŞ dollarına yaxın sərmayə yatırımı ilə Azərbaycanda ən böyük xarici investor olduğu bildirilib.

İki ölkə arasında enerji sahəsində əməkdaşlığın yüksək səviyyəsi təqdir edilib, bu baxımdan BP şirkəti ilə uzun illər səmərəli və qarşılıqlı etimada əsaslanan tərəfdaşlığın əhəmiyyəti xüsusi vurğulanıb.

"Cənub qaz dəhlizi" kimi enerji təhlükəsizliyi layihələri uğurlu enerji əməkdaşlığının nümunəsi kimi dəyərləndirilib.

Azərbaycanın 2027-ci ilə qədər Avropaya qaz təchizatının iki dəfə artırılması planları barədə məlumat verilib. Bu istiqamətdə bp şirkəti ilə əməkdaşlığın davam edəcəyinə ümidvarlıq ifadə olunub.

Eyni zamanda iki ölkə arasında bərpaolunan enerji sahəsində əməkdaşlığın gündəliyində duran məsələlər müzakirə edilib. bp ilə Cəbrayılda həyata keçiriləcək 240 MVt gücündə günəş enerjisi layihəsinin ölkəmizin "yaşıl enerji"yə keçid istiqamətində səylərinə mühüm töhfə verəcəyi bildirilib.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və quruculuq işləri barədə məlumat verilib.

Hazırda həmin ərazilərdə həyata keçirilən layihələrə, xüsusilə minatəmizləmə işlərinə bir neçə Böyük Britaniya şirkətinin cəlb olunduğu bildirilib.

Tərəflər nəqliyyat sahəsində əməkdaşlığın perspektivlərini nəzərdən keçiriblər. Azərbaycanın Avrasiyanın aparıcı nəqliyyat-tranzit qovşağına çevrildiyi bildirilib. Son vaxtlar Orta dəhlizin artan aktuallığına diqqət çəkilərək bu beynəlxalq nəqliyyat marşrutunun Böyük Britaniya hökuməti tərəfindən də maraqla izlənməsi və dəstəklənməsi təqdir edilib.

Tərəflər həmçinin humanitar əməkdaşlığı nəzərdən keçiriblər, təhsil sahəsini bu kontekstdə vacib istiqamət kimi dəyərləndiriblər.

Görüş zamanı iki ölkə arasında qarşılıqlı maraq doğuran müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Əlaqələrin inkişafı üçün böyük potensial var

**Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 7-də Koreya Respublikası Milli Assambleyasının Gender bərabərliyi və ailə komitəsinin sədri İn-suk Kvonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Söhbət zamanı ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan və Koreya arasındakı münasibətlərin mövcud vəziyyətinin məmnunluq doğurduğu qeyd olunaraq, ölkələrimiz arasında fəal siyasi dialoq və sıx iqtisadi əməkdaşlıq münasibətlərinin çoxsaylı istiqamətlər üzrə əlaqələrin inkişafına geniş perspektivlər yaratdığı diqqətə çatdırılıb. Vurğulanıb ki, münasibətlərimizin inkişafında yüksəksəviyyəli qarşılıqlı səfərlər, xüsusilə dövlət başçılarının səfərləri ikitərəfli münasibətlərin daha da genişlənməsi üçün çox möhkəm zəmin yaradıb.

Cari ilin noyabr ayında Koreya Respublikasına rəsmi səfərini xatırlayan Milli Məclisin Sədri səfər çərçivəsində keçirilən görüşlərdən məmnunluğunu bildirib. O, görüşlərdə parlamentlərimizin müvafiq komitələri arasında əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparıldığını xatırladıb.

Görüşdə hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının parlamentlərarası münasibətlərin inkişafında xüsusi rol oynadığı da ifadə edilib.

Söhbət zamanı tərəflər gender məsələlərinə dair də fikir mübadiləsi aparıblar. Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycanda qadın hüquqlarının təmin olunması, qadınların cəmiyyətdə və dövlət idarəçiliyində rolunun artırılması daim diqqət mərkəzindədir. O, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, eləcə də Milli Məclisdə Ailə, qadın və uşaq məsələləri komitəsinin yaradılmasının bu sahədə hökumət-parlament əməkdaşlığının təmin edilməsi istiqamətində atılmış mühüm addım olduğunu bildirib.

Koreya Respublikası Milli Assambleyasının Gender bərabərliyi və ailə komitəsinin sədri İn-suk Kvon da Azərbaycanda olduğu kimi, Koreyada da gender məsələlərinə, qadın hüquqlarının qorunmasına və qadınların ictimai həyatda fəallıqlarının artırılmasına böyük əhəmiyyət verildiyini vurğulayıb.

Azərbaycana səfərindən məmnunluğunu bildirən komitə sədri ümidvar olduğunu deyib ki, belə səfərlərin intensivliyi daha da artacaq. Ölkələrimiz və xalqlarımız arasında oxşar cəhətlərin çox olduğunu söyləyən İn-suk Kvon, münasibətlərimizin inkişafı üçün böyük potensialın mövcudluğunu ifadə edib. O, enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın vacib rolunu diqqətə çatdırıb.

Söhbət zamanı regionda mövcud olan vəziyyət barədə də məlumat verilib.

Görüşdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Koreya Respublikası Milli Assambleyasının üzvü, Gender Bərabərliyi və Ailə Komitəsinin sədr müavini, Koreya-Azərbaycan Parlamentlərarası dostluq qrupunun vitse-prezidenti Şin Hyunyonq və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 438 **QƏRAR** Bakı şəhəri, 6 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında" 1994-cü il 15 yanvar tarixli 10 nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" 2001-ci il 7 noyabr tarixli 179 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

"Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 910-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 619 nömrəli, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 27 iyul tarixli 168 nömrəli, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 30 avqust tarixli 188 nömrəli, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" 2012-ci il 13 fevral tarixli 593 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2239 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 191, № 6, maddə 388, № 8, maddə 534; 2002, № 3, maddə 148, № 4 (II kitab), maddə 199; 2003, № 6, maddə 342; 2006, № 5, maddə 474, № 9, maddələr 819, 830; 2008, № 2, maddə 130; 2009, № 7, maddə 604; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1356; 2016, № 4, maddə 824, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 2, maddə 306, № 4, maddə 610, № 5, maddə 994; 2019, № 9, maddə 1552; 2020, № 10, maddə 1295, № 11, maddə 1397; 2021, № 3, maddə 275, № 4, maddə 404, № 7, maddələr 871, 875, № 10, maddə 1164, № 12, maddələr 1518, 1535; 2022, № 1, maddə 74, № 8, maddə 974, № 11, maddə 1349; 2023, № 3, maddə 419) ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 2.1.6-cı yarımbəndindən ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında" sözləri çıxarılsın.

2. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 7 noyabr tarixli 179 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 719; 2017, № 12 (II kitab), maddə 2514; 2020, № 4, maddə 480, № 8, maddə 1122; 2021, № 1, maddə 97; 2022, № 1, maddə 71, № 6, maddə 668, № 12, maddə 1552) 2-ci hissəsinin ikinci abzasından ", həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında (bundan sonra - AMEA)" və "və ya AMEA-nın" sözləri, üçüncü abzasından "və AMEA-nı" və "və ya AMEA-nın" sözləri çıxarılsın.

3. Bu Qərar 2023-cü il sentyabrın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 439 **QƏRAR** Bakı şəhəri, 6 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanının 3.7-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 124; 2020, № 5, maddə 635; 2021, № 6 (IV kitab), maddə 676; 2022, № 2, maddə 185, № 4, maddə 416) ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1.13-cü yarımbənd 2.1.14-cü yarımbənd hesab edilsin və aşağıdakı məzmunda 2.1.13-cü yarımbənd əlavə edilsin:

"2.1.13. "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanına (bundan sonra - Fərman) uyğun olaraq 2025-ci il yanvarın 1-dək edilən müraciətlər əsasında istismarına icazə verilmiş qeyri-yaşayış təyinatlı tikinti obyektlərinin yerləşdiyi torpaqların kateqoriyasının dəyişdirilməsi;".

2. 3.6-cı və 3.7-ci bəndlər müvafiq olaraq 3.8-ci və 3.9-cu bəndlər hesab edilsin və aşağıdakı məzmunda 3.6-cı və 3.7-ci bəndlər əlavə edilsin:

"3.6. Bu Qaydaların 2.1.13-cü yarımbəndində qeyd edilən əsaslara uyğun olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti istismarına icazə verilmiş qeyri-yaşayış təyinatlı obyektlər barədə məlumat daxil olduğu gündən 10 (on) iş günü müddətində, Fərman qüvvəyə minənədək və ya Fərmana uyğun olaraq istismarına icazə verilmiş qeyri-yaşayış binaları bu məqsəd üçün nəzərdə tutulmayan torpaq sahəsində inşa olunduğu hallarda həmin icazə əsasında qeyri-yaşayış binalarının yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırır.

3.7. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Qaydaların 3.6-cı bəndinə uyğun olaraq, vəsatətə əlavə olunan yerquruluşu planında göstərilən koordinatlar daxilində istismarına icazə verilmiş qeyri-yaşayış binalarının yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsini vəsatət qaldırıldığı tarixdən 15 (on beş) gün müddətində təmin edir.".

3. 4.1.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.1.8-ci yarımbənd əlavə edilsin:

"4.1.8. bu Qaydaların 2.1.13-cü yarımbəndində qeyd edilən əsaslara uyğun olaraq, vəsatətdə Qaydaların 3.7-ci bəndində qeyd olunmuş müvafiq yerquruluşu planı təqdim edilmədikdə.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Şahin Mustafayev "China Energy International Group Co. Ltd" şirkətinin prezidenti ilə görüşüb

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev dekabrın 7-də "China Energy International Group Co. Ltd" şirkətinin prezidenti Çiao Sübin ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Çin dostluq və əməkdaşlıq əlaqələrinin siyasi, ticari-iqtisadi, qarşılıqlı investisiyalar, nəqliyyat-logistika, energetika, kənd təsərrüfatı, humanitar və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib, dövlətlərarası münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bildirilib.

Azərbaycanın "yaşıl enerji" imkanlarının inkişaf etdirilməsi məqsədilə potensial layihələr müzakirə olunub, bu sahədə imzalanan əməkdaşlıq sənədlərinin əhəmiyyəti vurğulanaraq görüləcək işlər və gələcək hədəflər nəzərdən keçirilib. Görüşdə həmçinin işğaldan azad olunan ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərindən bəhs edilib, "China Energy International Group Co. Ltd" şirkəti ilə bu istiqamətdə əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb.

# Daxili işlər naziri Quba rayonunda vətəndaş qəbulu və sıra baxışı keçirib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov dekabrın 6-da və 7-də Quba Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**





Nazir əvvəlcə Quba rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra rayon polis şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarından qəbula gələn 93 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

37 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 133 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Prezident İlham Əliyevin "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirdiyi fikirlər dünya mediasının diqqət mərkəzində qalmaqdadır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirdiyi fikirlər dünya KİV-inin diqqət mərkəzində qalmaqdadır.**
















AZƏRTAC xəbər verir ki, ərəb ölkələrinin media orqanları dövlətimizin başçısının fikirlərinə geniş yer verib.

"Əxbar Əl Yom" və "Əlbaatmedia" qəzetləri, "Qpress8" internet nəşri, SANA və NNA informasiya agentlikləri, həmçinin bir sıra digər saytlar Azərbaycanın dövlət başçısının məşhur beyin və tədqiqat mərkəzlərini təmsil edən 60-dan artıq xarici qonağın iştirak etdiyi forumda qlobal və regional problemlərlə bağlı söylədiyi fikirlərə geniş yer ayırıb.

Ərəb ictimaiyyətinin diqqətinə çatdırılıb ki, Azərbaycan Prezidenti 44 günlük Qarabağ müharibəsi və təxminən üç ildən sonra aparılan lokal xarakterli antiterror tədbirlərinin əsas səbəbinin Ermənistanın uzun illər davam edən danışıqlar prosesində qeyri-konstruktiv mövqeyi olduğunu bildirib. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan öz gücü ilə İrəvanın məhəl qoymadığı və yerinə yetirməkdən imtina etdiyi BMT qətnamələri və digər beynəlxalq sənədlərin müddəalarını yerinə yetirdi.

Azərbaycan Prezidentinin Ermənistanla sülhə nail olunması üzrə təşəbbüslər haqqında fikirlərini şərh edən ərəb mediası yazıb ki, dövlət başçısı vaxtilə Qarabağ ermənilərinin nümayəndələri ilə təmaslar qura biləcəyinə ümid etdiyini də bildirib. O əlavə edib ki, lakin orada dırnaqarası hakimiyyəti inhisara götürmüş adamlar buna imkan vermədilər.

Yazılarda vurğulanıb ki, Prezident İlham Əliyev Ermənistanla davamlı sülhə nail olunmasının başlıca amilinin İrəvanın öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi olduğunu bildirib.

Türkiyənin "Star" saytında yayımlanan "Əliyev açıqladı: Sülh müqaviləsinin prinsipləri tərtib edilib Ermənistana göndərilib" sərlövhəli materialda dövlətimizin başçısının Fransa və Hindistanın Ermənistanı silahlandırması ilə bağlı fikirləri yer alıb. Məqalədə Prezident İlham Əliyevə istinadla qeyd olunub: "Ermənistanda reallıqdan uzaq xülyalar yaradır ki, guya onlar həmin silahlardan istifadə edərək Qarabağı geri ala bilərlər. Mən həmin silahların keyfiyyəti ilə bağlı təfərrüatlara varmaq istəmirəm, baxmayaraq ki, onların hansı növ silah olmasını bilirəm. Lakin hətta əgər çox müasir silahlar olsa belə, onların şansı olmayacaq, çünki müharibə və onun nəticəsi silahla deyil, insanlar və onların əzmkarlığı ilə həll edilir. …İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın öz bəyanatlarına görə, erməni ordusunda döyüş meydanında 12 min fərari oldu".

Yazıda eyni zamanda Prezident İlham Əliyevin Qranada görüşünə getməməsinin səbəbləri, Naxçıvan vasitəsilə Türkiyəyə çıxışın əldə edilməsi ilə bağlı İran ərazisindən yolun çəkilməsi, Avropa Parlamentində populist insanların olması ilə bağlı fikirləri oxuculara çatdırılıb.

Dövlətimizin başçısının fikirlərinin geniş işıqlandırıldığı "Son dakika.com" saytında dərc olunan "Ermənistan indi onları qəbul etməyə daha hazır görünür" sərlövhəli yazıda isə Azərbaycan Prezidentinin ölkəmizin Ermənistana təklif etdiyi beş prinsiplə bağlı fikirlərinə geniş yer verilib. Yazıda bildirilib: "...Beləliklə, biz o məşhur beş prinsipi açıqladıq ki, Ermənistan indi onları qəbul etməyə daha hazır görünür. Əgər üç il əvvəl onları qəbul etsəydilər və ya əsasən qəbul etsəydilər, antiterror tədbirlərinə ehtiyac qalmayacaqdı".

Məqalədə həmçinin Azərbaycan Prezidentinin "...düşünürəm, biz sülh gətirmişik. Biz sülhü müharibə ilə gətirdik. Düşünürəm ki, bu, Qafqazda lokal vəziyyətdən daha geniş şəkildə qiymətləndirilməli olan bir məsələdir. …biz sübut etdik ki, münaqişənin hərbi yolla həlli var. Beləliklə, münaqişə həll olundu" fikirləri oxuculara təqdim olunub.

"Sülh sazişinə gəldikdə, düşünürəm ki, hazırda biz buna yaxınıq, çünki prosesi başladığımız zaman narazılıq doğuran məsələlərdən biri erməni tərəfinin dırnaqarası "Dağlıq Qarabağ respublikası"na sülh sazişində istinad etmək cəhdləri ilə bağlı idi və bunu biz, əlbəttə ki, qəbul edə bilməzdik. Onlar istəyirdilər ki, həmin məsələni müxtəlif söz birləşmələri vasitəsilə sazişə salsınlar, lakin onlar yenə də təxminən eyni alınırdı. Bizim yanaşmamız belədir ki, biz onu qeyd edə bilmərik və iki ölkə arasında razılaşma tam qarşılıqlı olmalıdır".

Dövlətimizin başçısının bu fikirləri isə "Akdeniz gerçek" saytında yayımlanan məlumatda yer alıb.

Azərbaycan Prezidenti İlham Əliyevin forumda çıxışı zamanı səsləndirdiyi fikirlər Serbiyanın nüfuzlu kütləvi informasiya vasitələri tərəfindən də geniş işıqlandırıb.

Bu ölkənin "RTV", "Tanjug", "NSPM", "Novosti", "Politika", "Pravda", "Vesti", "PRVA", "b92", "Intermagazin" kimi informasiya agentlikləri və xəbər portallarında dərc olunan yazılarda Prezident İlham Əliyevin çıxışında Azərbaycanın xarici siyasət konsepsiyasında Avropa İttifaqının üzvü olmağı hədəfləmədiyini vurğuladığı bildirilir.

Azərbaycan Prezidentinin çıxışına istinadla qeyd olunur ki, bu, çox praqmatik yanaşmadır. Çünki Azərbaycanı heç vaxt qəbul etməyəcəklər. Bunun səbəbi də bəllidir.

Prezident İlham Əliyevin bu fikirləri sitat gətirilib: "Düşünürəm ki, Azərbaycanın xarici siyasət konsepsiyasında çox praqmatik səbəblərə görə Aİ-yə üzv olmaq hədəfi yoxdur, çünki bizi heç vaxt qəbul etməyəcəklər. …Əgər qəbul edilməyəcəksinizsə, niyə qapını döyməlisiniz? … Biz münasibətləri necə qurmağın yolunu tapmışıq".

Yazılarda həmçinin Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşı olduğu, ölkəmizin İttifaqın doqquz üzvü ilə strateji tərəfdaşlığa dair bəyanatlar qəbul etdiyi və xarici ticarətin təqribən 50 faizini Aİ ilə apardığı bildirilir.

Gürcüstan mediası Prezident İlham Əliyevin forumdakı çıxışı zamanı səsləndirdiyi fikirlərdən xəbərlər yaymaqda davam edib.

AZƏRTAC xəbər verir ki, "apsny.ge", "interpressnews.ge", "ambebi.ge", "realnews.ge", "kavkasia.net", "adjaratv.ge" portalları, "1tv.ge", "maestro.ge", "rustavi2.ge" və digər televiziya kanalları Prezident İlham Əliyevin Azərbaycan-Gürcüstan münasibətlərinə dair fikirlərinə geniş yer verib.

Dövlətimizin başçısının çıxışından sitatla verilən materiallarda deyilir: "Gürcüstanın Aİ-yə üzv olmaq istəyi ilə bağlı onu deyə bilərəm ki, biz bunu başa düşürük və Gürcüstana uğurlar arzulayırıq".

Materiallarda Prezident İlham Əliyevin Azərbaycan və Gürcüstan Avropada vahid komanda kimi təmsil oluna bilmələrinə dair fikrinə daha çox diqqət yetirilib.

Eyni zamanda dövlətimizin başçısına istinadla bildirilib: "Gürcüstan və Azərbaycan yaxın tərəfdaşlardır. Əlbəttə ki, bizim tərəfdaşlığımız enerji sahəsində əməkdaşlıqdan daha da genişdir. Baxmayaraq ki, bu əməkdaşlıq bizə özümüzü Avropada strateji əhəmiyyət kəsb edən güclü komanda kimi təqdim etməyə imkan verdi". Bundan başqa, materiallarda Azərbaycan Prezidentinin dövlətimizin başçısının Cənubi Qafqazda regional inteqrasiya üçün məsləhətləşmələrə başlamaq şansının olması barədə fikirləri də geniş yer alıb.

Ümumilikdə, gün ərzində Gürcüstan mediasında Azərbaycan Prezidentinin forumdakı çıxışı ilə bağlı 20-dən çox material və reportaj yayımlanıb.

"Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu, Prezident İlham Əliyevin tədbirdə səsləndirdiyi fikirlər Ukrayna mətbuatının da diqqət mərkəzində olub.

Bu ölkənin "Strana.ua", "Antikor", "Pozitsiya" xəbər portallarında nəşr olunan məqalələrdə Prezident İlham Əliyevin Azərbaycanın qərb rayonları və Naxçıvan arasında bağlantı təmin edilməsinə dair fikirləri yer alıb.

Yazılarda dövlətimizin başçısının bu fikirlərinə diqqət çəkilib: "Mən Ermənistanın baş naziri ilə dəfələrlə söhbət etmişəm və soruşmuşam ki, niyə onlar öz öhdəliklərini yerinə yetirmirlər. …doqquzuncu maddədə aydın şəkildə qeyd olunur ki, Azərbaycanın qərb rayonları və Naxçıvan arasında bağlantı təmin edilməlidir və hətta yazılır ki, orada nəzarət və təhlükəsizliyi kim təmin edəcək. Bunu cənab Paşinyanın özü imzalayıb. İndi isə o, nə bu marşrutu, nə də ki, Rusiyanın bu işdə iştirakını istəyir. Əslində, hüquqi nöqteyi-nəzərindən, bunun artıq mahiyyəti çox deyil. Bu, onun öhdəliyidir. Biz nə edə bilərik? Biz yalnız onu deyə bilərik ki, onlar öhdəliyini pozurlar".

Məqalələrdə həmçinin Prezident İlham Əliyevin sülh sazişinə dair fikirləri də yer alıb. "Düşünürəm ki, sülh sazişindən danışarkən bunun yalnız formal tərəfini fikirləşməməliyik. Bizə, əslində, nə lazımdır, yəni Azərbaycana nə lazımdır? Ermənistanda heç bir revanşizm cəhdlərinin olmayacağı ilə bağlı qəti şəkildə, təsdiqlənmiş zəmanət lazımdır. Bu, bizə niyə lazımdır? Çünki biz Ermənistanda nə baş verdiyini bilirik və həmçinin bilirik ki, Ermənistanın bəzi Avropa paytaxtlarında çox pis məsləhətçiləri var", - deyə dövlətimizin başçısından sitat gətirilib.

"Bloomberg", "Financial Post" və digər mətbu orqanlarında "Azərbaycan silah tədarükünün doğurduğu müharibə riski ilə bağlı Ermənistana xəbərdarlıq edir" mövzulu materiallar dərc edilib.

Məqalələrdə qeyd edilir ki, Azərbaycanın dövlət başçısı öz çıxışında Fransa və Hindistanı Ermənistana təhlükə hesab etdiyi silahlarla təmin etməmək barədə xəbərdarlıq edib və belə tədarüklərin regionda yeni müharibəyə səbəb ola biləcəyini deyib. Eyni zamanda Ermənistanın adıçəkilən ölkələrdən silah-sursat almağa başlayacağı təqdirdə, Azərbaycan öz əhalisini qorumaq üçün reaksiya verməli olacaq. Məqalələrdə xüsusilə diqqətə çatdırılır ki, üç ay bundan əvvəl Qarabağda əməliyyat keçirən Azərbaycanın Ermənistanı işğal etmək niyyəti yoxdur.

Diqqətə çatdırılır ki, Qarabağdakı uğursuzluqdan sonra Ermənistan Moskvadan uzaqlaşaraq başqa yerdə dəstək axtarır. Son aylarda İrəvan hökuməti Fransa və Hindistanla hava hücumundan müdafiə sistemləri və zirehli maşınlar da daxil olmaqla silahların alınması üçün müqavilələr imzalayıb.

Həmçinin materiallarda ABŞ dövlət katibinin köməkçisi Ceyms O`Braynın çərşənbə günü Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanla sülh sazişi üzrə danışıqlar aparmaq üçün Bakıya səfərinə də toxunulub. Qeyd edilib ki, Azərbaycanın dövlət başçısı Ermənistanın yeni silah tədarükü ilə cəsarətlənərək Qarabağa gələcəkdə iddialar qaldırmayacağına dair "ciddi təminat" verilməli olduğunu vurğulayıb.

# Azərbaycan-Yaponiya ikitərəfli münasibətlərinin inkişafı üçün böyük potensial mövcuddur

**Dekabrın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vadanı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və Yaponiya arasında ikitərəfli münasibətlərin daha da inkişafı üçün böyük potensialın mövcud olduğu qeyd edilib. Xüsusilə iqtisadiyyat, energetika, mədəniyyət, turizm, kənd təsərrüfatı, yüksək texnologiyalar, təhsil və digər sahələrdə əməkdaşlığın inkişafının əhəmiyyəti vurğulanıb. İki ölkə arasında siyasi dialoqun və yüksəksəviyyəli səfərlərin vacib olduğu bildirilib.

Nazir Ceyhun Bayramov bölgənin təhlükəsizliyinə ən böyük hədə olan münaqişənin həlli və ölkəmizin suverenliyinin bərpası ilə bağlı Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqeyini bir daha qarşı tərəfin diqqətinə çatdırıb. Bu dönəmdə ölkəmizdə fəaliyyət göstərən səfirin bu tarixi proseslərin şahidi olduğu xatırlanıb. Postmünaqişə dövründə ölkəmiz tərəfindən aparılan bərpa-quruculuq işlərində, eləcə də "yaşıl enerji" zonalarının yaradılması və azad iqtisadi zonalar çərçivəsində ölkəmizin Yaponiya tərəfi ilə əməkdaşlığı üçün böyük imkanların mövcud olduğu diqqətə çatdırılıb.

Azərbaycan-Yaponiya münasibətlərinin inkişafına verdiyi töhfəyə görə səfirə minnətdarlıq bildirilib, ona gələcək fəaliyyətində uğurlar arzulanıb.

Səfir Cuniçi Vada səmimi qəbula görə təşəkkürünü bildirib, fəaliyyəti dövründə Azərbaycanın dövlət və hökumət qurum və təşkilatlarından aldığı dəstək üçün minnətdarlıq ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Kolumbiya XİN-ləri arasında siyasi məsləhətləşmələrin növbəti mərhələsi keçirilib

**Kolumbiyaya səfər edən Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov dekabrın 6-da bu ölkənin xarici işlər naziri Alvaro Duranla görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Xarici İşlər Nazirliyi ilə Kolumbiya Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin növbəti mərhələsi keçirilib.

Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, Kolumbiya tərəfindən isə xarici işlər nazirinin müavini Fransisko Koy rəhbərlik ediblər.

Məsləhətləşmələr zamanı ikitərəfli münasibətlərin cari vəziyyəti, iqtisadi-ticari, enerji, humanitar minatəmizləmə, turizm, mədəniyyət, təhsil və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi ətrafında müzakirələr aparılıb. E.Məmmədov qarşı tərəfə Azərbaycanın sülh gündəliyi, Ermənistanla münasibətlərin normallaşması prosesi, işğaldan azad olunmuş Azərbaycan ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq işləri barədə ətraflı məlumat verib.

Məsləhətləşmələrdən sonra "Azərbaycan Milli Kitabxanası ilə Kolumbiya Milli Kitabxanası arasında Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilib.

Səfər çərçivəsində E.Məmmədov həmçinin Kolumbiya Senatının sədri İvan Name ilə görüşüb.

Görüşdə dövlətlərarası və beynəlxalq platformalarda parlament diplomatiyasının artan rolu, qarşılıqlı səfər mübadilələrinin intensivləşdirilməsinin əhəmiyyəti, eləcə də Qoşulmama Hərəkatı və Sakit Okean Alyansı çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi perspektivləri müzakirə edilib.

Eyni zamanda E.Məmmədov Amerika qitəsi üzrə fəaliyyət göstərən Kolumbiyanın aparıcı xəbər telekanalı "NTN24"ə müsahibə verib. Müsahibə zamanı Azərbaycan-Kolumbiya ikitərəfli münasibətləri, bu əlaqələrin gələcək inkişaf perspektivləri, eləcə də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi barədə suallar cavablandırılıb.

# Prokurorluq orqanlarına qulluğa qəbulla bağlı müsabiqənin nəticələri açıqlanıb

**Azərbaycan Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə müvafiq olaraq prokurorluq orqanlarına işə qəbul olunmaq istəyən şəxslər üçün aprelin 11-də elan edilmiş müsabiqəyə yekun vurulub.**

Baş Prokurorluqdan AZƏRTAC-a bildiriblər ki, müsabiqənin sonuncu mərhələsinə buraxılmış 72 namizədin dünyagörüşünü, məntiqi düşünmə qabiliyyətini, prokurorluqda işləmək üçün zəruri olan digər şəxsi keyfiyyətlərini müəyyənləşdirmək üçün noyabrın 29-dan dekabrın 6-dək Baş Prokurorluğun Müsabiqə Komissiyası tərəfindən müsahibə keçirilib.

Müsabiqənin nəticələrinə görə yüksək nəzəri bilikləri, hüquqi aktları düzgün tətbiq etmək bacarığı və mövcud vakant ştat vahidlərinin sayı nəzərə alınmaqla, prokurorluğun kadr korpusunun komplektləşdirilməsinin təmin edilməsi məqsədilə müsabiqə üzrə elan olunmuş vakant yerlərin sayı Baş Prokurorluğun Kollegiyasının 7 dekabr tarixli qərarına əsasən artırılaraq 52 ştat vahidi müəyyənləşdirilib.

Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na əsasən müsabiqə üzrə müvəffəqiyyət qazanmış 52 namizəd dekabrın 11-dən Baş Prokurorluğun Elm-Tədris Mərkəzində (Bakı şəhəri, Binəqədi rayonunun Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə) icbari təlimə cəlb ediləcəklər. İcbari təlimi müvəffəqiyyətlə başa vurduqdan sonra peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə almış gənc mütəxəssislər prokurorluq orqanlarında müvafiq vakant ştat vahidlərinə təyin olunacaqlar.

Müvəffəqiyyət əldə etmiş namizədlərdən 3-ü Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda aparılmış Vətən müharibəsinin iştirakçısı olmaqla, müxtəlif medallarla təltif edilib.

Prokurorluğa işə qəbulla əlaqədar elan edilmiş müsabiqədən müvəffəqiyyətlə keçmiş şəxslərin siyahısı Baş Prokurorluğun rəsmi internet səhifəsində **(www.genprosecutor.gov.az)** yerləşdirilib.

# ZƏFƏR MANDATI



## Prezidenti bu dəfə ərazi bütövlüyü və suverenliyi tam bərpa edilən bütün Azərbaycan seçəcək

**Azərbaycan vətəndaşları 60 gün sonra müstəqillik dövrünün 9-cu prezident seçkisində liderini müəyyənləşdirəcək.**

**Bu, yeni tariximizin dördüncü növbədənkənar prezident seçkiləridir. Amma budəfəki mahiyyət ilk iki seçkidən tam fərqlidir, yəni 1992 və 1993-cü illərin məlum situasiyalarının əksidir. Həmin dövrlərin növbədənkənar seçkiləri hərbi tənəzzülün, iqtisadi böhranın, siyasi təlatümlərin nəticəsi olaraq meydana çıxmış, ən əsası, ölkə rəhbərlərinin öz ali postlarından qaçmaları səbəbindən zərurətə çevrilmişdi.**

2018-ci ilin aprel növbədənkənar seçkiləri isə Azərbaycana tarixinin ən qüdrətli dövrünü, ən möhtəşəm inkişafını yaşadan, ümummilli etimad qazanan Prezidentin siyasi qərarı ilə gerçəkləşmişdi.

2024-cü ilin 7 fevral növbədənkənar seçkilərinə isə tariximizin ən möhtəşəm Zəfərinin yaratdığı reallıqlar fonunda ortaya çıxan siyasi, iqtisadi, hüquqi, ən əsası, qlobal zərurətlər kontekstində gedirik…

Bu dəfə Prezidentə ərazi bütövlüyü və suverenliyi tam bərpa edilən bütün Azərbaycan səs verəcək!..

Prezident indi həm də savaşda qazandığı Zəfər mandatını ümummilli etimadla möhkəmləndirəcək!..

### Yeni dövrün başlanğıcı

Seçkilərin növbədənkənar keçirilməsini şərtləndirən amillər sırasında postqələbə dövrünün gerçəklikləri xüsusi yer tutur. Vətən Savaşındakı qələbə və antiterror tədbirlərinin nəticəsi Azərbaycanın bütövlüyünü və konstitusiya quruluşunun birmənalı təsbitini yekunlaşdırmaqla yanaşı, yeni dövrün başlanğıcı oldu.

Bu hansı dövrdür?

İlham Əliyev və onun şəxsində Azərbaycan:

- *Qafqazın birmənalı siyasi, iqtisadi, hərbi qüdrətini təmin edir;*
- *Qafqazın sülh və təhlükəsizliyinin zəmanətverici amili olmaqla yanaşı, Yaxın Şərqdən Avropayadək geniş arealın ehtiyac duyduğu davamlı sabitliyə töhfə verir;*
- *Avropanın neft, qaz, "yaşıl enerji", ən nəhayət, hidrogen təminatında etibarlı tərəfdaşa çevrilir;*
- *Avrasiyanın yeni geosiyasi və geoiqtisadi "oyun qaydalarını" korrektə edir;*
- *Avrasiyada fövqəlgüvvələrə qarşı effektiv mübarizənin əsasını qoyaraq, sıralarını daim genişləndirən hərbi-siyasi faktor kimi tanınır;*
- *Qoşulmama Hərəkatındakı uğurlu təcrübəsi əsasında yeni siyasi-iqtisadi güc plaftorması yaradır;*
- *qlobal nüfuz sahibi olaraq, qlobal gücləri özü ilə hesablaşmağa məcbur edir;*
- *coğrafi xəritənin kiçik nöqtəsi, ancaq siyasi-iqtisadi xəritənin nəhəng ərazisidir;*
- *Avropa ilə Asiyanın böyük təhlükə və problemlə üzləşən iqtisadi-ticari əlaqələri üçün səmərəli marşrutu formalaşdırır;*
- *"dünya jandarmeriyası" sayılan ABŞ və onun avropalı tərəfdaşlarının qarşısında müstəqil siyasət yürüdür, qürurlu münasibət göstərir;*
- *milli dövlətçilik, milli təhlükəsizlik, milli inkişaf kimi istiqamətlərdə dünyanın ən yaxşı modellərindən birini yaradır və s.*

### Seçkilər niyə önə çəkilir

Göründüyü kimi, bütün sahələrdə İlham Əliyevin və Azərbaycanın həyata keçirdikləri siyasət, təşəbbüslər məhz qlobal səciyyə daşıyır, məmləkət miqyasından beynəlxalq səviyyəyə qədər əhəmiyyətliliyini qoruyur.

Dünyanın gözü indi Azərbaycanda və onun Liderindədir. Dostlarımız kimi düşmənlərimizin də sayı artıb.

Azərbaycan və onun Prezidenti ərazi bütövlüyünü heç bir kənar qüvvənin yardımı olmadan təmin edən və son onilliklərdə heç bir dövlətə qismət olmayan tarixi nailiyyətin müəllifidir.

İlham Əliyevin və onun dövlətinin qalib, məğrur, müstəqil duruşunu nümunətək qəbul edənlər kimi, bundan rahatsız olub, yeni savaş üçün bəhanə axtaranlar da var.

Azərbaycan ətrafında yeni əməkdaşlıq platformaları yaranır. Bura qeyri-rəsmi müstəmləçilikdən halə də əziyyət çəkən, fövqəlgüclərin təsir dairəsindən çıxmağa çalışan, öz təbii sərvətlərini xaricilərin inhisarından çıxarıb millətinə qaytarmaq istəyən dövlətlər, həmçinin hətta müstəqil olsalar da, Avrasiyada sabitlik və təhlükəsizlik şəraitində iqtisadi-sosial inkişafa çalışan ölkələr aiddir. İlham Əliyev və Azərbaycanın davamlı dəstəyi bu ölkələrdə öz haqlı mübarizələrinə inam, motivasiya yaradır, onları dövlətçilik amalları ətrafında daha sıx səfərbər edir. Həm də qarşılıqlı etimad mühitində əməkdaşlığın səmərəli nəticə verəcəyi reallığın təşviq edir.

Eyni zamanda dövlətimizin və Prezidentin qarşısında daha geniş rəqib, əslində, düşmən dövlətlər şəbəkəsi formalaşıb. Dünyanı dəfələrlə bölüşdürüb, indi yeni paylar həvəsinə düşən fövqəlgüclər həm öz maraqlarının Azərbaycan tərəfindən davamlı tapdalanmasının, həm də dünya ermənilərinin qisasını ölkəmizdən, xalqımızdan və Prezidentdən almağa cəhdlər edirlər.

Bütün bunlar nəticə etibarilə dövlətin və hakimiyyətin qarşısındakı çoxvektorlu hədəfləri iki istiqamətdə müəyyənləşdirir:

- *Nailiyyətlərin kəmiyyət və keyfiyyət göstəricilərini artırılmalı, inkişafın miqyası genişləndirilməli, Azərbaycanın regional liderliyinin qlobal liderliyə transformasiyası uğurla aparılmalıdır;*
- *yeni dövrün bu taleyüklü vəzifə və proseslərinin icrasında bütün təhlükələri zərərsizləşdirmək, yarana biləcək maneələrin qarışısını ilk həmlədə məhv edəcək dövlətçilik mexanizmi daha da təkmilləşdirilməlidir.*

Davamlı inkişaf və möhkəm təhlükəsizlik!

Yəni Zəfərin reallıqlarının yeni tarixi dövrdə bütün risklərdən qorunması və uğurlu gedişinin təmini!

Beləliklə, İlham Əliyev bu tarixi missiyasının həyata keçirmək üçün xalqdan yeni etimad mandatı almağa qərar verib.

### İslahatların yaratdığı zərurət

Növbədənkənar prezident seçkilərinin bir səbəbi də ölkədə aparılan genişmiqyaslı islahatların yaratdığı hüquqi, siyasi, iqtisadi tələblərlə bağlıdır.\

Prezident İlham Əliyev strateji düşünərək mövcud maliyyə-iqtisadi duruma adekvat olan və qlobal çağırışlara cavab verən yeni islahatlar kursuna başlayıb.. Son illər ərzində bu yönümdə aparılan islahatlar ilkin uğurlu nəticələrini verdi, ölkə iqtisadiyyatının bütün sahələrində, xüsusən də qeyri-neft sektorunda əsaslı canlanma yarandı və bu proseslər beynəlxalq ekspertlər tərəfindən "böhran şəraitində inkişaf" kimi dəyərləndirildi.

İlham Əliyevin yeni islahatlar kursu ölkədə köklü yeniliklərə, müasir inkişaf tendensiyalarına təkan oldu, dövlətin mövcudluq və müstəqilliyin davamlılıq şərtlərini təmin edən amilləri gücləndirdi. Prezidentin müəllifi olduğu islahatlar təkmilləşmə, modernləşmə, demokratikləşmə və davamlı inkişaf prosesinin etibarlı təminatı, həmçinin daha geniş miqyasda tətbiqinin zəmininə çevrildi.

İlham Əliyev çevik idarəçilik metoduna yiyələnmiş rəhbərdir. Yeni situasiya ondan islahatları daha geniş miqyasda aparmağı və vacib qərarların operativ qəbulunu tələb edir. Nəzərə alaq ki, bu gün üzərində işlənən layihələr, proqramlar böyük strateji dövr üçün nəzərdə tutulur və onların əksəriyyəti 2030-cu ilədək olan mərhələni əhatə edir.

Bu şərait Prezidentdən təxirəsalınmaz vacib qərarların qəbulunu tələb edir. Seçkilərin önə çəkilməsi də yeni islahatlar kursunun vacib proqramlarının icrasını tez bir zamanda başlamaq üçün İlham Əliyevin xalqından yeni etimad mandatı almasına hesablanıb.

### İlham Əliyevin yolu

Prezident seçkilərinin əsas məğzi vətəndaşların siyasi alternativlər sırasında inam bəslədikləri namizədə səs verməsi və ən üstün etimadı qazananın qalib elan olunmasıdır. Bu, həm də bir yarışdır.

Və bu yarışın son üç onillikdə qalibləri məhz müstəqilliyin, dövlətçiliyin, inkişafın alternativsiz təminatçısı olan siyasi kursunun təmsilçiləridir...

Prezidentə olan etimad ümummilli mənə kəsb edir. İlham Əliyev qarşıdakı prezident seçkilərinə də bu misilsiz güc və yüksək siyasi potensialla - xalqın yeganə namizədi olaraq gedir.

Azərbaycan vətəndaşları, əslində, iki ay sonra baş tutacaq səsverməyə prezident seçkilərindən daha çox, Heydər Əliyev siyasi kursuna və İlham Əliyevin fəaliyyətinə ümumxalq etimad referendumu kimi yanaşır. Seçicilər bu aksiyada yalnız ictimai mövqelərini bildirməyəcəklər, həm də tarixin arxivindən hələ də baş qaldırmağa çalışan məlum qüvvələrə birdəfəlik yox deyəcək, Ulu Öndərin siyasi xəttinin alternativsizliyini növbəti dəfə təsdiqləyəcəklər.

Xalq geriyə - xaosa, böhrana, fəlakətə deyil, sabaha - davamlı tərəqqiyə, yüksələn rifaha, qüdrətli dövlətə səs verəcək...

Xalq Zəfərə səs verəcək…

Yolumuz tarixin ən qüdrətli Azərbaycanını yaradan Liderlədir...

Yolumuz İlham Əliyevlədir...

Yolunuz, yolumuz daim aydın olsun, cənab PREZİDENT!..

*İxtiyar HÜSEYNLİ,*
*"Azərbaycan"*



# Heydər Əliyev İli 2023

## BMU-da Ümummilli Lider Heydər Əliyevin büstünün açılış mərasimi və konfrans keçirilib

**Bakı Mühəndislik Universitetində (BMU) Azərbaycan xalqının böyük oğlu, Ümummilli Lider Heydər Əliyevin büstünün açılış mərasimi və Ulu Öndərin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan təhsilinin inkişaf mərhələləri" mövzusunda konfrans keçirilib.**





Konfransdan öncə universitetin kollektivi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin xatirəsini ehtiramla yad edib. Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılaraq məzarı üzərinə gül dəstələri qoyulub.

Sonra universitetin inzibati binasında Ümummilli Liderin büstünün təntənəli açılış mərasimi olub. Elm və təhsil naziri Emin Əmrullayev, BMU-nun rektoru Yaqub Piriyev, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, rəsmilər, millət vəkilləri, ali təhsil müəssisələrinin rəhbərləri büstün qarşısına əklil və gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiramlarını ifadə ediblər.

Büstün müəllifi, tanınmış heykəltəraş, Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü, Azərbaycanın Xalq rəssamı professor Natiq Əliyev dəyərli sənət əsəri ilə bağlı məlumat verib və ürək sözlərini çatdırıb.

Ardınca "Heydər Əliyev və Azərbaycan təhsilinin inkişaf mərhələləri" mövzusunda konfrans keçirilib. Dövlət himninin səsləndirilməsi ilə başlayan konfransda tədbir iştirakçıları birdəqiqəlik sükutla Ulu Öndərin əziz xatirəsini yad ediblər və Heydər Əliyevin mənalı ömür yolu, zəngin fəaliyyəti ilə bağlı videoçarx nümayiş etdirilib.

Açılış nitqi ilə çıxış edən rektor Yaqub Piriyev BMU-da Ulu Öndərin büstünün qoyulmasının böyük qürur, şərəf olduğunu vurğulayaraq, bütövlükdə bu dəyərli sənət əsərinin ərsəyə gəlməsində əməyi keçən hər bir şəxsə, xüsusən professor, Xalq rəssamı Natiq Əliyevə dərin minnətdarlığını bildirib.

Rektor çıxışında müdrik dövlət xadimi Heydər Əliyevin atdığı hər bir siyasi addımın arxasında, gördüyü hər bir işin əsasında güclü və müstəqil Azərbaycanın qurulması, dövlətçiliyin sarsılmazlığı və dünya dövlətləri içərisində özünə layiqli yer tutması prinsipinin dayandığını vurğulayıb. Bildirib ki, Ulu Öndər məhz belə dönməz prinsipləri, misilsiz tarixi xidmətləri ilə öz adını dünyada dövlət quran ən dəyərli dahi şəxsiyyətlərin cərgəsinə daxil edə bilib və siyasi rəhbərlikdən Ümummilli Lider səviyyəsinə yüksəlib.

Dahi şəxsiyyətin ölkəmizin tərəqqisinin təmin edilməsi, gələcək inkişaf üçün güclü təməl yaratması istiqamətində gördüyü işləri diqqətə çatdıran rektor Ulu Öndərin azərbaycanlı gənclərin gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnmələrindən ötrü keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərilməsi kimi vacib təhsil ənənəsinin əsasını qoymasını xüsusu qeyd edib. Rektor Heydər Əliyevin təhsil siyasətində ali məktəblərin fəaliyyətinin daha da yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsinin xüsusi yer tutduğunu söyləyib.

Yaqub Piriyev Ulu Öndər tərəfindən əsası qoyulmuş xarici də təhsil ənənəsinin davamı olaraq, Prezident cənab İlham Əliyev tərəfindən bu istiqamətdə həyata keçirilən dövlət proqramlarından da bəhs edib. Hazırda ali təhsil və insan kapitalının inkişafının dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil etdiyini deyən rektor ali təhsilin əlçatanlığının artırılması, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində atılan addımları sadalayıb. Eyni zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun elm, təhsil və gənclər siyasətinin inkişafına, milli-mənəvi dəyərlərimizin, zəngin mədəni irsimizin qorunub saxlanılması və təbliğinə verdiyi böyük töhfələri vurğulayıb.

Çıxışının sonunda rektor insan kapitalının, güclü vətənpərvərlik hisslərinə malik gənc nəslin formalaşdırılmasının, intellektual potensialın milli maraqların həyata keçirilməsi istiqamətində səfərbər edilməsinin, peşəkar ordu quruculuğunun Ulu Öndərin vəsiyyətinin yerinə yetirilməsinə, Qarabağın azadlığa qovuşmasına gətirib çıxardığını deyib. "Cənab İlham Əliyevin vurğuladığı kimi, bundan sonra Azərbaycan xalqı qürur hissi ilə müzəffər xalq kimi yaşayacaq. Ulu Öndərin gücü, müdrikliyi, siyasəti, bütövlükdə Heydər Əliyev amili Azərbaycanı əbədi qoruyacaq! Nə qədər ki, müstəqil Azərbaycan mövcuddur, bu dövlətin qurucusu və memarı tariximizdə daim yaşayacaq və əsl vətəndaş, böyük şəxsiyyət, qüdrətli milli lider örnəyi kimi xatırlanacaq", - deyə Yaqub Piriyev bildirib.

Elm və təhsil naziri Emin Əmrullayev Ulu Öndərin ruhuna dərin ehtiramın rəmzi olaraq, BMU-da Heydər Əliyevin büstünün açılışını yüksək dəyərləndirib, bu addımın universitetdə çalışan bütün əməkdaşlar üçün böyük mənə kəsb etdiyini vurğulayıb və büstün açılışında əməyi olan şəxslərə təşəkkürünü bildirib.

Konfransın aktual mövzuya həsr olunduğunu deyən nazir bütün sahələrdə olduğu kimi, təhsildə də Heydər Əliyev strategiyalarına sadiq qalındığını, təhsil sahəsinə böyük həssaslıqla yanaşan Ulu Öndərin təhsilin inkişafı istiqamətində misilsiz xidmətləri gerçəkləşdirdiyini vurğulayıb. Ümummilli Liderin elm və təhsil siyasəti konsepsiyası əsasında islahatların uğurla davam etdirildiyini söyləyən nazir Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ali təhsil müəssisələrinin sayının 50-yə, təhsilalanların sayının təxminən 2 dəfədən çox artaraq 120 mindən 220 minə, ali təhsil müəssisələrinə qəbul olanların sayının isə 25 mindən 55 minə çatdığını söyləyib.

Davam edən islahatların tərkib hissəsi kimi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncamını xüsusi vurğulayan Emin Əmrullayev Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında qurulacaq yeni təhsil müəssisəsinin regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədlərinə xidmət etdiyini bildirib. 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbənin təhsildə yeni mərhələnin başlanğıcı olduğunu söyləyən nazir azad olunmuş torpaqlarda istifadəyə verilən məktəblər və nəzərdə tutulan işlər barədə məlumat verib.

Nazir çıxışında tarixi yol keçən Azərbaycan təhsilinin gələcək inkişafı ilə bağlı fikirlərini paylaşıb, hazırda daha çox insana ali təhsil almaq üçün şərait yaradıldığını qeyd edib. Emin Əmrullayev ali təhsildən kənarda qalan, cəmiyyətimizin bir hissəsi olan insanlarımızı da düşünməyin vacibliyini önə çəkib, bununla bağlı qarşıda duran vəzifələrə toxunub. Müvafiq statistik məlumatları da nəzərə çatdıran nazir çıxışında təhsil müəssisələrinin transformasiyası, təhsildə kəmiyyət və keyfiyyət göstəriciləri arasında fərqlər, fundamental elmlərin tədrisi, elm və alim anlayışlarının təhsilalanlara düzgün təlqini, məzunların işlə təminatı və s. kimi vacib məsələlərə diqqət çəkib.

Emin Əmrullayev çıxışının sonunda yüksək intellektə malik vətənpərvər gənclərin formalaşmasının bundan sonra da təhsilin əsas məqsədlərindən biri kimi daim diqqətdə saxlanılacağını, Heydər Əliyevin zəngin irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən davamlı olaraq öyrənilməsinin təmin ediləcəyini diqqətə çatdırıb.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev bu gün təhsil sahəsində görülən irimiqyaslı işlərin və aparılan islahatların təməlinin məhz Ulu Öndərin adı ilə bağlı olduğunu, Heydər Əliyevin elm və təhsilə böyük dəstəyinin hazırda da davam etdirildiyini deyib. Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın təhsilə qayğısını xatırladan icra hakimiyyətinin başçısı ölkədə hər il təhsil və tədris ocaqlarının inşa olunmasına, təhsilin maddi-texniki bazası və infrastrukturunun yenilənməsinə diqqətin artırıldığını vurğulayıb, Abşeron rayonunda bu istiqamətdə görülən işləri qeyd edib.

Milli Məclisin deputatı Hikmət Babaoğlu Ulu Öndərin bütün sahələr kimi, təhsil sahəsində də danılmaz xidmətlərini diqqətə çatdırıb. Müasir Azərbaycan təhsilinin inkişaf meylləri ilə bağlı fikirlərini də paylaşan millət vəkili çıxışında ölkədə həyata keçirilən təhsil islahatları, təhsilin tədrisi və təşkili, kadr hazırlığı, təhsillə istehsalatın əlaqələndirilməsi kimi məsələlərə toxunub.

Universitet tələbələri adından çıxış edən BMU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Loman Şərifova isə gənclərin Ümummilli Liderin ideyalarına hər zaman sadiq qalacaqlarını, eyni zamanda Prezident İlham Əliyevin ətrafında getdikcə daha sıx birləşəcəklərini vurğulayıb.

*"Azərbaycan"*

# Bədxahlara dəqiq və aydın mesaj

## "Prezident İlham Əliyevin önəmli açıqlamalarından dünyanın müxtəlif siyasi dairələri zəruri nəticələr çıxarmalıdır"

**"Bakıda ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu son dərəcə əhəmiyyətli idi. Forumda Prezident İlham Əliyevin genişməzmunlu çıxışı, prosesləri düzgün qiymətləndirməsi və dəqiq təhlilləri bir daha ciddi məqamlarla yadda qaldı".**



Bu barədə "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Rəşad Mahmudov deyib. Deputat bildirib ki, dövlət başçısı İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqların fonunda Azərbaycanın regional əməkdaşlıq haqqında, habelə bəzi qeyri-regional aktorların destruktiv siyasətinə münasibəti barədə önəmli açıqlamalar verməklə həm də Azərbaycanın gələcəyinə dair strateji baxışlarını bölüşüb. R.Mahmudov əlavə edib ki, Prezident İlham Əliyevin forumda önəmli açıqlamaları dünyanın müxtəlif siyasi dairələrinin zəruri nəticələr çıxarmaları üçün əhəmiyyətli idi: "Birincisi, Azərbaycan lideri postmüharibə reallıqlarının regional müstəvidə cərəyan edən prosesləri barədə ətraflı və dolğun məlumat verdi. Eyni zamanda hazırkı geosiyasi vəziyyətlə bağlı sualları dəqiq və səmimi şəkildə cavablandırdı. Dövlət başçısı həmçinin Avropa İttifaqı və ABŞ ilə əməkdaşlıqda Azərbaycanın gələcəyinə dair strateji baxışlarını açıqladı. Üç saat davam edən forumda Prezident İlham Əliyev Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinə aparan yolda əldə olunmuş nailiyyətlər haqqında, eləcə də ölkəmizin suverenliyini bərpa etmək imkanına hazırlığı barədə danışdı".

Deputat qeyd edib ki, Prezident İlham Əliyev çıxışında Qərbin bəzi siyasi dairələrinin təhrif etməyə çalışdığı mühüm məsələlərə də toxunub: "Cənab Prezident bir daha vurğuladı ki, qanunsuz erməni silahlı birləşmələrinin və separatçı siyasi rejimin Qarabağdan çıxarılması ilə sülh yolunda dayanan ən son maneə aradan qaldırıldı. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etdikdən sonra bəzi dövlətlərin Cənubi Qafqaz regionunda yaranmış yeni reallıqları qəbul edə bilməməsi artıq heç kimə sirr deyil. Nə qədər acı olsa da, etiraf etmək lazımdır ki, trans-Atlantika camiəsinə aid olmayan hansısa ölkə müstəqil inkişaf yolunun olduğunu bəyan edəndə Qərb açıq şəkildə buna qarşı çıxır. Ona görə də bəzi Qərb ölkələri Azərbaycanın öz qanuni torpaqlarında - Qarabağdakı fəaliyyətini və bu region üçün nəticələri tanımaqdan imtina edir, sülhə deyil, sırf öz maraqlarına xidmət edən hərəkətlərə dəstək verməyə çalışırlar. Hətta daxili vəziyyəti silkələməyə çalışan addım atmağa cəhd göstərirlər".

R.Mahmudovun sözlərinə görə, Azərbaycanın öz yolu var və kənar qüvvələrin ölkəmizin sabit inkişafına təsiri sıfra bərabərdir: "Bununla bağlı Prezident İlham Əliyev forumda bədxah qüvvələrə dəqiq və aydın mesaj göndərdi. Dövlət başçısı Azərbaycanda vəziyyətin sabit olduğunu bildirərək daxili vəziyyətimizin xarici amillərdən asılı olmadığını diqqətə çatdırdı. Daxili risklərə gəldikdə, elə bir ciddi risk və çağırışlarımız yoxdur. Ərazilərimizin və sərhədlərimizin düzgün müdafiə edilməsi üçün zəruri layihələr həyata keçiririk ki, hər hansı xarici risklərdən özümüzü sığortalayaq".

R.Mahmudov Prezident İlham Əliyevin beynəlxalq forumun iştirakçılarını sülh müqaviləsinin detalları barədə məlumatlandırdığını da xatırladıb. Sülh prosesinin təşəbbüskarının məhz Azərbaycan olduğunu diqqətə çatdıran dövlət başçısı gələcək sülh sazişinin ana prinsipləri barədə danışıb. "Prezident forumdakı çıxışında Ermənistan ilə gələcək münasibətlərimizə dair önəmli açıqlama verdi, İrəvandakı revanşist qüvvələrə açıq mesaj göndərdi - Ermənistan yaxşı qonşu olarsa, öz suverenliyini qoruyub saxlaya bilər. Dövlətimizin başçısı bir daha vurğuladı ki, Ermənistan xilası və inkişafı, digər böyük qardaşı kənarda axtarmamalıdır. İrəvan regional əməkdaşlığa imkan verən siyasət aparmaqla buna nail ola bilər. Prezident qətiyyətlə bəyan etdi ki, ölkəmizin haqq işinə kölgə salmaq istəyənlərin arzusu elə arzu olaraq qalacaq", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycan dövlət olaraq heç vaxt ədalətsizliklə barışmayacaq, bəzi dairələrin əbədiləşdirmək istədiyi Qarabağın işğalı ilə barışmadığı kimi. Amma həmin dairələr beynəlxalq hüququ tam təmin edərək bölgənin sülh və inkişaf təminatçısı olan Azərbaycanın yaratdığı reallıqları qəbul etməyə borcludurlar. Çünki ölkəmiz tarixi ədaləti bərpa edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# İlham Əliyevdən ədalət dərsi

## Prezident həqiqətləri açıqladı, reallıqları göstərdi və mövqeyinin dəyişməyəcəyini bəyan etdi

**Son 20 ildə tam müstəqil siyasət yürüdərək dünyanın geosiyasi arenasında etibarlı tərəfdaş, sözünə, vədinə sadiq lider kimi qəbul edilən İlham Əliyev dekabrın 6-da Cənubi Qafqazda yaranmış reallıqları, Azərbaycanın dəyişməz mövqeyini, qarşıdakı hədəflərini dünyaya bir daha bəyan edərək hər kəsin diqqətinə çatdırdı ki, regionla bağlı istənilən prosesin müzakirəsi Azərbaycansız mümkün deyil.**

ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən və 30 ölkənin məşhur beyin, tədqiqat mərkəzlərini təmsil edən 60-dan artıq xarici qonağın iştirak etdiyi "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda İlham Əliyev son aylarda Azərbaycana qarşı arzuolunmaz kampaniyalar aparan, ölkəmizi təhdid edən bəzi dairələrə bir daha ədalət dərsi keçdi.

Prezident hərzamankı kimi reallıqları göstərdi, həqiqəti danışdı və açıq-aşkar bəyan etdi ki, siyasi və iqtisadi müstəqilliyini təmin etmiş, müstəqil xarici siyasəti ilə düzə düz, əyriyə əyri deyən Azərbaycan hər zaman dostluğa, tərəfdaşlığa sadiq olub, təhdidə, şantaja, böhtana layiqli cavab verib. Məhz bu qətiyyət, bu prinsipiallıq Azərbaycanın nüfuzunun yüksəlməsini şərtləndirib.

İlham Əliyev forumda müxtəlif ölkələri təmsil edən beyin mərkəzlərinin nümayəndələrinin suallarını cavablandırarkən elə bir sahə qalmadı ki, ona toxunmasın. Prezident Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində aparılan danışıqlar prosesi, Qarabağın erməni əhalisinin durumu, Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu mövqe, beynəlxalq enerji layihələrində iştirakı, Avropanın enerji təchizatında reallaşan, icrası davam edən və nəzərdə tutulan layihələr, Avropa İttifaqı ilə münasibətlər, ABŞ-nin, Fransanın son zamanlar ölkəmizə qarşı apardığı çirkin kampaniya və digər məsələlərlə bağlı tutarlı arqumentlərlə əsaslandırılmış fikirlər səsləndirdi.

Azərbaycan Prezidenti İkinci Qarabağ müharibəsinin qalib komandanı kimi bir daha Ermənistana, məğlubun havadarlarına çatdırdı ki, onun sözü imzası qədər keçərlidir. Ermənistanı silahlandırmaqla regionda yeni münaqişə ocağı yaratmaq istəyənlər heç nəyə nail ola bilməyəcəklər: "Biz istəyirik ki, gələcəkdə Azərbaycana potensial risk yaranmasın. Buna görə biz Ermənistanın silahlanması məsələsini hər zaman qaldırırıq və hesab edirik ki, bu, əks nəticə verə bilər və təxribata sürükləyə bilər. Çünki Ermənistana silah təchiz edən Fransa və Hindistan kimi ölkələr hazırda odun üstünə yağ tökür və Ermənistanda reallıqdan uzaq xülyalar yaradır ki, guya onlar həmin silahlardan istifadə edərək Qarabağı geri ala bilərlər. Mən həmin silahların keyfiyyəti ilə bağlı təfərrüatlara varmaq istəmirəm, baxmayaraq ki, onların hansı növ silah olmasını bilirəm. Lakin hətta əgər çox müasir silahlar olsa belə onların şansı olmayacaq, çünki müharibə və onun nəticəsi silahla deyil, insanlar və onların əzmkarlığı ilə həll edilir".

İlham Əliyev həmin qüvvələrə mesaj göndərərək bəyan etdi ki, Azərbaycan son üç ildə daha da güclənib. İstənilən təxribata cavab vermək iqtidarındadır. Fransanın regionda təhlükə yaratmaqla bağlı istənilən cəhdinin qarşısı vaxtında alınacaq.

Prezident həmçinin Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli mövqeyindən söz açaraq vurğuladı ki, bu təşkilatda bir qrup məsuliyyətsiz insan var və onlar özlərini manyak kimi aparırlar. Onların anti-Azərbaycan hissləri və bəyanatları insanın normal psixoloji durumundan kənardır: "Onlar Azərbaycana qarşı olan 10-dan artıq qətnamə qəbul ediblər ki, onların da bizim üçün heç bir əhəmiyyəti yoxdur - biri az, biri çox - nə etməli? Biz bunu təəssüf hissi ilə qarşılayırıq. Anti-Azərbaycan orkestrinin təşkilatçıları digər insanların düşüncələrinə təsir göstərirlər, onların beyinlərini "yumağa" çalışırlar. Digər insanlar da Azərbaycanı onların təsvir etdiyi kimi qəbul edirlər. Anti-Azərbaycan fəallarından bəziləri xoşbəxtlikdən artıq yoxdur, anti-Azərbaycan cəbhəsinin fəalı olan xanım Eva Kayli kimi. Onun başına gələnləri bilirik. Bu, mediada geniş işıqlandırılmışdır. Düşünürəm ki, bu həm də onu göstərir ki, Avropa Parlamenti kimisə hər hansı yanlışlıqda ittiham etməzdən əvvəl korrupsiya ilə bağlı öz problemlərini həll etməlidir".

Prezident həmçinin Avropa İttifaqı ilə münasibətlərə və Azərbaycanın bu təşkilata üzv kimi qəbul olunması məsələsinə də aydınlıq gətirib. Bəllidir ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşı, Azərbaycan isə onun mühüm enerji təchizatçısıdır. Azərbaycan Aİ-nin bir hissəsi olmağa çalışır və ümid edir ki, dekabrda müsbət cavab olacaq. Azərbaycan Aİ üçün, sadəcə, tərəfdaş olaraq qalır. Prezidentin də söylədiyi kimi, Avropa Enerji Komissiyası Azərbaycanı artıq ümumavropa qaz tədarükçüsü adlandırıb. Artıq bir çox Avropa ölkəsi Azərbaycanın qazını alır və gələcəkdə digərləri də alacaq: "Düşünürəm ki, Azərbaycanın xarici siyasət konsepsiyasında çox praqmatik səbəblərə görə Aİ-yə üzv olmaq hədəfi yoxdur, çünki bizi heç vaxt qəbul etməyəcəklər. Səbəb də çox aydındır və biz bunu başa düşürük. Biz virtual deyil, real dünyada yaşayırıq. Əgər qəbul edilməyəcəksinizsə, niyə qapını döyməlisiniz? Əgər onlar sizi istəmirlərsə, siz yalnız ev sahibini qıcıqlandıracaqsınız və yalnız özünüzü alçaldacaqsınız. Biz münasibətləri necə qurmağın yolunu tapmışıq".

Sirr deyil ki, Azərbaycan suverenliyini tam bərpa etdikdən sonra bəzi dairələr ölkəmizə qarşı keçirdikləri qısqanclıq hisslərini getdikcə daha açıq şəkildə biruzə verirlər. İttihamlar, bəyanatlar, hədə-qorxu, təhdid dili ilə danışmaq istəyənlər də olur. Amma bütün bunların hamısına Azərbaycan layiqli cavab verir.

İlham Əliyev də bir daha həmin dairələrə səslənərək dedi ki, indi biz bir neçə beynəlxalq çağırışla üz-üzəyik: "Təəssüflər olsun ki, biz tərəfdaş hesab etdiyimiz bəzi ölkələr tərəfindən anlaşılmazlıq görürük və biz mövqeyimizi izah etməyə çalışırıq. Həm də izah edirik ki, beynəlxalq hüququn normaları hər kəs üçün mütləqdir və selektiv yanaşmaya yol vermək olmaz".

Prezident diqqətlərə çatdırdı ki, Azərbaycan etdiyini BMT Nizamnaməsinin özünümüdafiə ilə bağlı 51-ci maddəsinə uyğun olaraq edib. Bu, beynəlxalq hüquqa əsasən olunub və istənilən ölkə kimi Azərbaycanın da suveren hüququ var ki, ərazisinə tam nəzarət etsin.

Baş verən bütün proseslər, Azərbaycan Prezidentinin ortaya qoyduğu qətiyyətli mövqe onu deməyə əsas verir ki, İlham Əliyev antiazərbaycançı dairələrə bir daha ədalət dərsi keçdi və Ermənistan da, Fransa da, ABŞ də bundan nəticə çıxarmalıdırlar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ədalətli və dürüst

## "Prezident bir daha əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı"

**"Prezidentin "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" forumundakı çıxışına diqqətlə qulaq asdım. Hesab edirəm ki, dövlət başçısının tədbirdəki açıqlamalarının Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında müstəsna rolu var. 30 ölkədən 60 nəfərin iştirak etdiyi bu forum gələcəkdə Azərbaycan həqiqətlərinin həmin ölkələrdə beynəlxalq təşkilatlara yayılmasına yardımçı olacaq. Burada iştirak edən hər kəs cənab Prezidentin öz dilindən fikirlərini dinləmək və suallara cavab vermək imkanı əldə etdi".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Tahir Kərimli deyib. Deputat hesab edir ki, bu, çox mühüm tədbir idi, çünki beynəlxalq ictimaiyyəti də narahat edən, maraqlandıran məsələlər, xüsusilə Azərbaycan-Ermənistan münasibətləri, Qarabağda yaşayan ermənilərin taleyi ilə bağlı məsələlərə aydınlıq gətirildi.

Forumda Prezident həqiqətləri bir daha dünyaya çatdırdı. Ermənilər Qarabağda yaşamaq istəyirsə, onların iki yolu var: ya Azərbaycan vətəndaşlığını qəbul etməli, ya da yaşamaq üçün başqa ölkəni seçməlidirlər. Dövlət başçısı eyni zamanda Ermənistanın həmişə sülh danışıqlarından qaçdığını, Zəngəzur dəhlizində razılaşmaları pozduğunu da dilə gətirdi. Prezident bəzi dairələrin ikiüzlü siyasəti, Fransa və Hindistanın Azərbaycanda oynadığı mənfi rolu, Ermənistanı silahlandırmaqla revanş həvəsini artırmaq cəhdlərini pisləyərək bildirdi ki, onlar Qarabağı yenidən işğal edə biləcəklərini düşünürlər, amma bu, xam xəyaldır.

Azərbaycanın kifayət qədər gücü olduğunu vurğulayan T.Kərimli qeyd edib ki, Prezident İlham Əliyev həmin dairələri bu istəkdən çəkindirməyə çalışıb: "Ölkə rəhbəri balaca marionet ölkənin - Ermənistanın daim ağa axtarışında olduğunu bildirdi. Eyni zamanda qəti şəkildə dedi ki, Avropanın bir sıra qurumları Azərbaycana qarşı islamofob münasibətdən çıxış edirlər. Halbuki Azərbaycanın Avropa İttifaqının 9 ölkəsi ilə ikitərəfli strateji əməkdaşlıq münasibətləri var. Bu, Avropa İttifaqı üzvlərinin üçdəbirindən artıqdır. Əməkdaşlıq təkcə enerji sahəsini deyil, digər sahələri də əhatə edir".

Prezident İlham Əliyevin hər kəsi haqqın, ədalətin və beynəlxalq hüququn Azərbaycanın tərəfində olduğuna inandırdığını qeyd edən deputat bildirib ki, ölkəmiz ərazi bütövlüyünü, suverenliyini axıra kimi müdafiə edəcək. Bu, birmənalı şəkildə hamıya aydın olmalıdır: "Prezident bu forumda dünyaya bütün həqiqətləri çatdıraraq ABŞ, Rusiya, Avropa və digər qonşu dövlətlərlə olan münasibətlərə bir daha aydınlıq gətirdi. Əslində, bunlar bizə aydın idi, amma beynəlxalq ictimaiyyətin hamısı heç də bu barədə məlumatlı deyil".

T.Kərimli dövlət başçısının forumdakı çıxışını əhatəli və vacib hesab etdiyini vurğulayaraq qoyulan məsələlərə çox dürüst və doğru cavab verdiyini əlavə edib.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Oyun qaydalarında böyük dəyişiklik olacaq

**Azərbaycan beynəlxalq təşkilatların, dünyanın supergüclərinin 30 ildə həll edə bilmədiyi Qarabağ problemini heç bir kənar qüvvənin gücündən və vasitəçiliyindən istifadə etmədən qısa bir müddətdə - cəmi 44 gündə həll etdi. Baxmayaraq ki, Qarabağ probleminin mövcudluğu dövründə ölkəmiz dəfələrlə münaqişəni sülh yolu ilə həll etməyin tərafdarı olduğunu bildirərək bu istiqamətdə ciddi səy göstərmişdi…**

Amma Azərbaycanın hər dəfə sülh çağırışlarına işğalçı dövlət təkəbbürlə cavab vermişdi. Bu azmış kimi, tanklarını Bakıya sürəcəkləri ilə ölkəmizi təhdid etmiş, açıq şəkildə işğalçılıq niyyətlərini ortalığa qoymuşdular…

Problemin həllində vasitəçilik edən böyük dövlətlər, beynəlxalq təşkilatlar isə seyrçi mövqedə dayanaraq susmuşlar, hələ ölkəmizə qarşı ədalətsiz qətnamə qəbul etmişlər, işğalçıya maddi yardım göstərib silah-sursatla təmin etmişlər.

Artıq regionda vəziyyət dəyişib. Bu dəyişikliklərin təşəbbüskarı və müəllifi isə Azərbaycandır. Çünki beynəlxalq səviyyədə tanınmış ərazimizin üzərində suverenliyimizi tam bərpa etmişik, Qarabağdan silah səsi gəlmir, günahsız insanların qanı tökülmür.

Amma bir zamanlar "problemin həllində vasitəçilik" edən böyük dövlətlər, beynəlxalq təşkilatlar özünü buraxan separatçı bir qurumun taleyinə "acıyır", bir tərəfdən Ermənistana silah verir, bir tərəfdən də Azərbaycanı sülh sazişini imzalamamaqda ittiham edirlər. Nəinki ittiham edirlər, hətta ölkəmizə qarşı qarayaxma kampaniyası apararaq təzyiq etmək istəyirlər. Daha fikirləşmirlər ki, Azərbaycan haqlıdır, dürüstdür, ədalətlidir. Öz mövqeyində qəti və prinsipialdır. Kimlərinsə sifarişlərini yerinə yetirmir, marionet dövlət deyil. Hər hansı beynəlxalq təşkilat və ya özünü güc sahibi hesab edən dövlət Azərbaycana qarşı təzyiq dili ilə danışıb, nəyəsə nail ola biləcəyini düşünürsə, yanılır.

Bütün bunlar haqqında dekabrın 6-da Prezident İlham Əliyevin iştirakı ilə ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" adlı forumda açıq söhbət getmişdir. Prezident İlham Əliyev bildirmişdir ki, Ermənistan beynəlxalq hüquqa məhəl qoymadan 15 minə yaxın hərbi qulluqçusunu Qarabağda yerləşdirmişdi: "Biz üç il ərzində səbirli davrandıq, ümid edirdik ki, vəziyyətin həll yolu tapılacaq. Ermənistan isə birgə imzaladığımız üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməkdən nümayişkaranə surətdə imtina edirdi. Biz vəziyyətin anormal olduğunu dərk edir və İkinci Qarabağ müharibəsi bitəndən sonrakı dövrdə çox aydın şəkildə - Qarabağda yaşayan insanların iki seçimi olduğunu bildirirdik. Biri Azərbaycan vətəndaşları olmaqdır və biz bunun üçün hüquqi və təhlükəsizlik çərçivəsi yaradırıq. Yaxud yaşayış üçün başqa yer tapsınlar. Başqa seçim yoxdur…"

Azərbaycan hətta böyüklük göstərərək separatçıların liderlərinin təslim olacağı təqdirdə onların amnistiyaya düşmək fürsəti olacağını bildirsə də, onlar bizim xoş məramımızı qəbul etmədilər.

Biz Qarabağda antiterror əməliyyatı keçirməklə beynəlxalq hüquqla tanınan ərazilərimizdə suverenliyimizi tam bərpa etdik. Qarabağda yaşayan erməni icmasının nümayəndələri də Ermənistanın baş naziri Nikol Paşinyanın təklifi və Qarabağda qanunsuz fəaliyyət göstərən separatçı rejim rəhbərlərinin, onların yaratdıqları silahlı dəstələrin təklifi və təzyiqi ilə ərazilərimizi tərk etdilər.

Dövlətimizin başçısı Gürcüstanın Strateji və Beynəlxalq Araşdırmalar Fondunun prezidenti Ekaterine Metrevelinin Avropa İttifaqına (Aİ) yaxınlaşma barədə sualını cavablandırarkən olduqca vacib bir məqamı - bu quruma üzvlüklə bağlı ikili standartın olduğunu xüsusi vurğuladı. Prezident qeyd etdi ki, Türkiyə uzun illər Aİ üzvlüyünə namizəd olsa da, onu bu qurumdan uzaq tuturlar ki, bu da qətiyyən qəbuledilməz və ədalətsiz yanaşmadır. Eləcə də Balkan regionuna aid olan ölkələr hələ də "növbə" gözləyirlər. Prezident İlham Əliyev bu quruma üzv olmaq haqqında Azərbaycanın da mövqeyinə aydınlıq gətirərək dedi ki, Azərbaycanın xarici siyasət konsepsiyasında çox praqmatik səbəblərə görə Aİ-yə üzv olmaq hədəfi yoxdur, çünki bizi heç vaxt qəbul etməyəcəklər. Səbəb də çox aydındır və biz bunu başa düşürük.

Dövlətimizin başçısı Cozep Borelin son bəyanatının "tamamilə faydasız" olduğunu qeyd edərək bildirdi ki, onun Qarabağı tərk etmiş 150 min erməni ilə bağlı açıqlaması yalandır: "Təəssüf edirəm ki, belə bir təcrübəli avropalı diplomat yalan danışır. Hətta ermənilərin özləri Qarabağı tərk edənlərin 150 min yox, 100 min olduğunu deyirdilər. Əgər cənab Borel bir ay ərzində belə davam etsə, 200 min olacağını söyləyəcək. Bu, onun gördüyü yuxulardan asılı olacaq. Amma yenə də nəinki rəqəmlərlə olan bu manipulyasiya, heç bizim etmədiyimiz bir şeylə bağlı Azərbaycana qarşı ittihamlar da qətiyyən yolverilməzdir".

Dünyada sözünün bütövlüyü, açıq fikirliliyi və qətiyyəti ilə seçilən Prezident İlham Əliyev forumda çıxışı zamanı bildirdi: "Mən həmişə açıq danışmağa üstünlük verirəm, çünki onların yürütdüyü siyasətlə və Azərbaycana olan münasibəti ilə tamamilə razı deyiləm. Çünki bu, ədalətli deyil və bu, Avropa İttifaqının və Avropa institutlarının maraqlarına uyğun deyil. Ancaq ümumilikdə Avropa Komissiyası haqqında danışanda, bizim çox gözəl münasibətlərimiz var. Biz buna böyük əhəmiyyət veririk, onlar strateji əhəmiyyət daşıyır. Bu, təkcə enerji və neft-qaz sahəsini əhatə etmir. Tezliklə hidrogen sahəsində də əməkdaşlıq edəcəyik. Bilirsiniz ki, Gürcüstanı, Azərbaycanı, Rumıniyanı və Macarıstanı bağlayan bir layihə olacaq. Yəni oyun qaydalarında böyük dəyişiklik olacaq və bu, artıq icra prosesindədir".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Borelin açıqlaması sülhə qarşı yönəlib

**"Avropa İttifaqı Komissiyasının vitse-prezidenti Cozep Borel İnsan Hüquqları üzrə 25-ci Avropa İttifaqı-QHT Forumunda məntiqsiz və mənasız açıqlamalar verib. Bildirib ki, guya Qarabağda yaşayan 150 min erməni evlərini məcburi şəkildə tərk edib. Borel məlum həqiqətləri elə təkzib edib ki, sanki Avropa İttifaqının bu məsələlərlə bağlı doğrudan da heç bir bilgisi yoxdur. Əslində, Avropa İttifaqı çox gözəl bilir ki, Qarabağda yaşayan dinc əhalinin sayı bu rəqəmdən dəfələrlə azdır və onlar evlərini könüllü şəkildə tərk ediblər".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat bildirib ki, Qarabağı tərk edən ermənilərin hər biri Laçın dəhlizində qeydiyyatdan keçib. Ermənistan və havadarları 150 min yalanını Azərbaycana qarşı planlaşdırdıqları hansısa təzyiq mexanizminin bir hissəsi kimi uydurublar. Ermənilərin güc tətbiqi ilə çıxarılması fikri ağ yalandır. Hər kəsə məlumdur ki, ermənilərin Qarabağı tərk etməsinə hansısa təsir olmayıb. Ona görə də belə saxta və sifarişli açıqlamalar heç bir əhəmiyyət kəsb etmir.

Deputat deyib ki, Azərbaycanın suveren ərazisində yaşayan ermənilərin etnik təmizləməyə məruz qoyulması, əslində, bəzi qüvvələrin marağındadır: "Çünki bəzi xarici siyasi dairələr ölkəmizin əleyhinə çıxmaq üçün bəhanə axtarırlar. Lakin nə qədər gözləyirlər gözləsinlər, etnik təmizləmə olmayacaq. Biz dəfələrlə bəyan etmişik ki, Azərbaycan vətəndaşlığını qəbul edən ermənilərə Qarabağda təhlükəsiz yaşamaq hüququ veriləcək. Ümumiyyətlə, onlar heç bir məhdudiyyətlə üzləşmədən digər Azərbaycan vətəndaşları ilə eyni hüquqlara malik olacaqlar".

Fazil Mustafa qeyd edib ki, belə absurd açıqlamalar Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə mane olur. Həmçinin regionda sülhə əngəl törədir. Qərb heç də ermənilərin rahat və təhlükəsiz yaşaması üçün çalışmır. Onların əsas məqsədi regionda öz maraqlarını təmin etməkdir. Revanşizmi və erməni millətçiliyini qızışdıran bu davranışlara son qoyulmalıdır. Nəzərə almalıdırlar ki, bu, Azərbaycana yox, elə həmin dövlətlərin özlərinə ziyan verəcək. Ölkəmizi belə əsassız ittihamlarla üz-üzə qoymaq məntiqsizdir və bunun heç bir əsaslı izahı yoxdur.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Vaşinqton başa düşdü...

**"Son aylar özünün mürəkkəb dövrünü yaşayan ABŞ-Azərbaycan münasibətlərinin normallaşması hər iki tərəfin maraqlarına xidmət edir. Azərbaycan ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə, o cümlədən ABŞ ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi arzu edir. Bakı Vaşinqtonla münasibətlərinin beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurulmasının tərəfdarıdır. Lakin son aylar, xüsusən də antiterror tədbirlərinin ardınca ABŞ öz maraqlarını heç bir əsas olmadan Ermənistanın beynəlxalq hüquqazidd maraqları ilə uzlaşdıraraq beynəlxalq normaları ikinci plana keçirib və aqressiv ritorikaya üstünlük verib".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünü, sərhəd toxunulmazlığını və bütün ərazilərində konstitusiya quruluşunu bərpa etməsini süngü ilə qarşılayıb. Lakin Azərbaycan Prezidentinin yaratdığı yeni geosiyasi konfiqurasiya Vaşinqtondan hücumları neytrallaşdırmaqla yanaşı, həm də ABŞ-nin Cənubi Qafqazda yeni reallıqları qəbul etməsinə və əlaqələrimizin tədricən müsbət məcraya qayıtmasına səbəb oldu. Bu prosesdə dönüş nöqtəsi Prezident İlham Əliyevin Entoni Blinkenlə telefon danışığıdır. Dövlət başçısı həmin müzakirələrdə öz prinsipial mövqeyini ortaya qoydu və Vaşinqton artıq başa düşdü ki, Azərbaycanla münasibətləri bu tərzdə davam etdirmək mümkün deyil.

Bəhruz Məhərrəmovun sözlərinə görə, regionda real sülh və sabitlik mühiti Azərbaycanın suverenliyini bərpa etməsi ilə formalaşıb. Ona görə də ABŞ işğalçı və təcavüzkarın əsassız iddialarını yox, beynəlxalq hüquqa əsaslanan mövqeyi dəstəkləməlidir.

Deputat vurğulayıb ki, Ceyms O'Braynın Bakı səfəri bu xüsusda çox önəm daşıyır: "O'Brayn Dövlət Departamentinin rəhbər heyətində təmsil olunmasına və ABŞ-nin regionla bağlı siyasətinə rəhbərlik etməsinə baxmayaraq Senatda kifayət qədər radikal və ədalətsiz mövqe tutmuş azsaylı diplomatlardan idi. O, hətta Bakını münasibətlərin əvvəlki kimi olmayacağına dair bəyanatlarla təhdid edirdi. Lakin son nəticədə proseslərin gedişatı göstərdi ki, O'Brayn, əslində, Bakının yox, Vaşinqtonun özünün nəinki Azərbaycanda, bütövlükdə Cənubi Qafqaz və Mərkəzi Asiyadakı mövqelərini təhdid edib. Aydındır ki, bu gedişat heç bir tərəfə sərf etməzdi".

Bəhruz Məhərrəmov qeyd edib ki, ABŞ bu ritorika ilə situasiyadan uduzmuş şəkildə çıxacağını anladı: "Nəticə etibarilə Dövlət katibinin özünün cənab İlham Əliyevə zəng edərək prosesləri yoluna qoymağa çalışması, təhdidlərini geri götürməsi, Azərbaycan rəsmilərinin ABŞ-yə səfəri ilə bağlı gülünc "sanksiyaların" qüvvəyə minmədən aradan qaldırılması, "Azərbaycanla münasibətlərin əvvəlki kimi ola bilməyəcəyini" iddia edən O'Braynın Prezident İlham Əliyevin icazəsi ilə regiona gəlməsi və dövlət başçısı tərəfindən qəbul edilməsi münasibətlərin bərpası, əlaqələrin müsbət məcrada davam etdirilməsi üçün vacib gedişlər oldu. Biz Vaşinqtonun uyğunsuz mövqeyindən geri çəkilməsini alqışlayırıq".

Deputat həmçinin söyləyib ki, münasibətlərin siyasi və diplomatik səviyyədə normallaşmasını müşahidə etdiyimiz bir zamanda 50 konqresmen və 10 senatorun Nümayəndələr Palatasının spikeri və Senatdakı demokrat və respublikaçı çoxluq və azlıqların rəhbərlərinə müraciət ünvanlaması ABŞ-də lobbi maraqlarının bəzi hallarda dövlət maraqlarını üstələdiyini göstərir. Erməni milyarderlərin əsirinə çevrilmiş konqresmenlərin budəfəki tələbi Ermənistana ABŞ-nin yardımının zəruriliyi ilə bağlıdır. Məktubun müəllifləri heç bir ciddi mənbəyə istinad etmədən, Azərbaycanın guya Ermənistanın ərazisinə qarşı "təcavüzünü davam etdirəcəyi" ilə bağlı narahatlıqlarını ifadə edərək ABŞ və Ermənistan arasında təhlükəsizlik tərəfdaşlığının gücləndirilməsini tələb edirlər.

Müsahibimizin sözlərinə görə, qlobal mənada super güc olan bir subyektin qanunvericilik səviyyəsində bu cür cılız insanlarla təmsil olunması həqiqətən təəccüb doğurur. Bu konqresmenlərin bir çoxu, ümumiyyətlə, Cənubi Qafqazın xəritədəki yerini belə bilmir. Sadəcə ortada lobbi maraqları var və görünən odur ki, bu konqresmenləri yalnız öz mənfəətləri maraqlandırır.

Bəhruz Məhərrəmov deyib ki, məlum məktubda diqqət çəkən digər məqam Qərbi Azərbaycanla bağlı natamam iddialardır. Konqresmenlərin ittihamları ikrah doğursa da, görünür, İlham Əliyevin Qərbi Azərbaycan Konsepsiyası dünya erməniliyini lərzəyə salıb. "ABŞ-Azərbaycan münasibətlərinin yenidən rəvan məcraya qədəm qoymaqda olduğu bir dönəmdə bu kimi arzuolunmaz hallar proseslərin gedişatına mənfi təsir edir. Bu baxımdan hesab edirik ki, rəsmi Vaşinqton ABŞ-nin dövlət maraqları naminə Azərbaycan və Ermənistanın real mövqelərini satılmış konqresmenlərə çatdırmalıdır", - deyə deputat əlavə edib.

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

## Münasibətlərin normallaşması məhz ABŞ-yə lazımdır

### Ağ Ev Azərbaycanla əlaqələrində səmimi olmasa, bölgədə bütün siyasəti iflasa uğrayacaq

**Prezident İlham Əliyevin ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynı qəbul etməsi həm də son zamanlar ikitərəfli əlaqələrində gərginlik yaşanan Vaşinqton-Bakı münasibətlərinin yeni müstəviyə qədəm qoymasından xəbər verdi.**




Bu görüş həm də o baxımdan vacib əhəmiyyətə malik idi ki, qarşıdakı mərhələdə biz ABŞ-nin Azərbaycanla siyasi əlaqələrində nə dərəcədə səmimi olduğunu açıq şəkildə görmüş olacağıq.

Düzdür, dekabrın 6-da C.O'Brayn dövlət başçısı ilə görüşdə ABŞ ilə Azərbaycan arasında əlaqələrin dərin köklərə malik olduğunu və ölkələrimizin yaxşı tərəfdaşlar olduqlarını vurğuladı, Azərbaycanın enerji resurslarının dünya bazarlarına çıxarılmasında ABŞ-nin roluna toxundu, ölkəsinin regionda sülh gündəliyini, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşmasını, sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini dedi və bu xüsusda danışıqların Vaşinqtonda davam etdirilməsi üçün ölkəsinin hazır olduğunu diqqətə çatdırdı.

Lakin çox yox, elə son bir ayda ABŞ-nin Azərbaycanla bağlı siyasətində müxtəlif trayektoriyalar cızmasını, dildə bir söz deyib, əməldə başqa fəaliyyət göstərməsini göz önünə gətirərək, Ağ Ev rəsmisinin ikitərəfli əlaqələrimizlə bağlı söylədiklərinin nə dərəcədə özünü doğruldacağına şübhə ilə yanaşmamaq da mümkün deyil.

### Ağ Evə inanmaq olarmı!?

Cəmi 23 gün əvvəl - noyabrın 15-də Ceyms O'Brayn Xarici İşlər Komitəsində keçirilən dinləmədə Azərbaycana birbaşa yardımları qadağan edən 907-ci düzəlişdən imtinanın müddətinin uzadılmayacağını, həmçinin ABŞ-nin Azərbaycana münasibətdə yüksəksəviyyəli ikitərəfli görüş və təmasları təxirə saldığını bəyan etmişdi.

Həmin vaxt rəsmi Bakının təcavüzkar Ermənistana açıq dəstək verən ABŞ-nin bu haqsız qərarlarına qarşı ciddi etiraz etməsi, eyni zamanda siyasi prinsipiallıq nümayiş etdirərək adekvat addım atması, yəni ABŞ ilə yüksəksəviyyəli ikitərəfli görüş və təmasları təxirə salması Vaşinqtonun geri addım atması ilə nəticələndi.

Belə ki, noyabrın sonuna doğru Vaşinqton yüksəkvəzifəli rəsmisinin timsalında Azərbaycan Prezidentindən münasibətləri normallaşdırmağı xahiş etdi və bu ricasına müsbət cavab aldı.

Ancaq yenə də Ağ Evin Azərbaycana qarşı qarayaxma kampaniyası dayandırılmadı, tanınmış mətbu nəşrində ölkəmizlə bağlı yalan və böhtan xarakterli məqalə yayımlandı.

Səbəbsiz yerə ölkəmizə qarşı qərəzli davranış nümayiş etdirən ABŞ bu dəfə də Azərbaycan cəmiyyətinin, siyasi dairələrinin böyük qınağına, təpkisinə tuş gəldi.

Çünki Azərbaycan 2001-ci il 11 sentyabr hücumlarından sonra ABŞ-nin terrora qarşı mübarizə səylərini dəstəkləyib. Məhz ölkəmiz hava məkanı marşrutlarını və logistika imkanlarını, Şimal Paylayıcı Şəbəkəsini açmaqla ABŞ tərəfinə yardım əlini uzadıb. Əfqanıstanda terrorizmə qarşı ABŞ ilə çiyin-çiyinə mübarizə aparan ilk dövlətlərdən olan Azərbaycan eyni zamanda Əfqanıstanı tərk edən sonuncu tərəfdaş ölkə olub.

Sadaladığımız bütün bu faktlar da göstərir ki, Azərbaycanın ABŞ ilə ikitərəfli əməkdaşlığa böyük önəm verməsinin, qlobal məsələlərdə ona göstərdiyi dəstəyin fonunda zaman-zaman Ağ Evin ikili siyasəti ilə qarşı-qarşıya qalmışıq. Və təəssüf ki, bütün bunlar ABŞ-nin Azərbaycana dost münasibətdə olmadığını göstərən faktlardır.

### ABŞ-yə növbəti fürsət

BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini öz gücü ilə yerinə yetirərək torpaqlarını işğaldan qurtaran, suverenliyini bərpa edən və ərazisindəki separatizm yuvasını dağıdan Azərbaycana qarşı təcavüzkar Ermənistanın mövqeyindən çıxış etməsi, özünü buraxdığını elan edən qondarma "Dağlıq Qarabağ Respublikası"nı müdafiə etməsi ilə ABŞ Yaxın Şərq, Qafqaz siyasətinin yetərsiz olduğunu bir daha ortaya qoyur.

Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir və regionla bağlı yürüdülən istənilən siyasətin, gerçəkləşdirilən hər hansı iqtisadi layihənin ölkəmizin mövqeyi nəzərə alınmadan həyata keçirilməsi mümkünsüzdür.

Görünür, elə uzaq Amerika da yaxın Şərqdəki, Qafqazdakı siyasətini həyata keçirmək üçün Azərbaycanla münasibətlərini normallaşdırmaqdan başqa çıxış yolu olmadığını yaxşı anlayır.

O'Braynın noyabrın 15-nə nəzərən, dekabrın 6-da Prezident İlham Əliyevlə görüşdə ölkəsinin mövqeyi ilə bağlı 180 dərəcə dəyişmiş fikirlər səsləndirməsi, ABŞ-Azərbaycan münasibətlərində gələcəyə baxışın vacibliyini vurğulaması da məhz bu mətləblərdən xəbər verir.

Gerçəklik bundan ibarətdir ki, əgər Ağ Ev Azərbaycanla əlaqələrində səmimi olmasa, bölgədə bütün siyasəti iflasa uğrayacaq...

Bu baxımdan Azərbaycan ABŞ-yə fürsət verir. Bu fürsətdən yararlanıb, yararlanmamaq isə Ağ Evin öz seçimidir...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## "Washington Post"un 750 əməkdaşı son 48 ilin ən böyük tətilini keçirir

**Dünən "Washington Post" qəzetinin 750-dən çox əməkdaşı 24 saatlıq tətil elan edib. Nəşr yazır ki, bu, şirkətdə son 48 ildə ən böyük işçi etirazıdır.**

Həmkarlar ittifaqı üzvləri işçilərini 18 aydır müqaviləsiz qoyan bir media şirkəti ilə uğursuz alınan danışıqlara etiraz olaraq işi dayandırdıqlarını bildirib. Bundan əlavə, ittifaq rəhbərliyin bəzi əməkdaşlarına təzminat müqabilində "öz istəyi" ilə işdən çıxmaq təklifinə qarşı çıxıb. Məlumata əsasən, əməkdaşlar işdən çıxarılma təhlükəsi altında könüllü olaraq işdən getməyə məcbur edilir.

Qəzet yazır ki, tətil nəşrin həm daxili rəhbər dəyişiklikləri, həm də dünyada media sənayesini sarsıdan eyni iqtisadi problemlərlə üzləşdiyi bir vaxta təsadüf edir. Şirkət satış həcmini azaltmaq niyyətindədir, çünki nikbin maliyyə proqnozları özünü doğrultmayıb.

Şirkətin bu il 100 milyon dollar itirəcəyi gözlənilir və rəhbərlik pula qənaət etmək üçün "könüllü olaraq" 240 nəfəri işdən çıxarmaq niyyətindədir.

Qəzet yazır ki, bu, indiki heyətin təxminən 10 faizini təşkil edir. Üstəlik, bu ixtisarların təxminən yarısının redaksiya heyətində aparılacağı planlaşdırılır.

Bu arada media şirkətinin rəhbərliyi "pis niyyətlə" danışıqlar apardıqları barədə həmkarlar ittifaqının iddiası ilə razılaşmır və ayın sonuna qədər müqavilənin bağlanacağına ümid etdiyini bildirir.

Media şirkətinin nümayəndələrindən biri tətillə bağlı deyib: "Biz həmkarlarımızın bir günlük tətildə iştirak etmək hüquqlarına hörmət edirik. Biz çalışacağıq ki, oxucularımız və müştərilərimiz mümkün qədər əziyyət çəkməsinlər".

Şirkət rəhbərliyi həmçinin "web" saytını işlək və aktiv saxlamaqla hərzamankı kimi, cümə axşamı və cümə günləri qəzetləri çap edib oxuculara çatdıra biləcəyinə əmin olduğunu bildirib. Bu halda istehsal, gündəlik xəbər buraxılışı və məqalələrin yazılması ilə bağlı tapşırıqların icrası digər redaksiyalardan gətiriləcək redaktorlar və menecerlərin üzərinə düşəcək.




Nəşrin əməkdaşları dünən işə gəlməyiblər və Vaşinqtonun mərkəzində qəzetin ofisi yaxınlığında piket və mitinq planlaşdırıblar.

Bundan əlavə, etirazçılar oxuculara da müraciət ünvanlayaraq, "həmrəylik əlaməti olaraq gün ərzində qəzeti və saytı oxumaqdan çəkinməyi" xahiş ediblər.

Xatırladaq ki, 2022-ci ilin dekabrında Amerikanın başqa bir böyük nəşri olan "New York Times"ın əməkdaşları da birgünlük tətil keçirmişdilər. Bu, qəzetin işçilərinin 40 ildən artıq müddətdə ilk belə tətili olmuşdu.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Qədim və yeni tarix də sübut edir ki, Qərbdən ədalət gözləmək əbəsdir

**Dövlətlər də insanlar kimidir. Bəzən sözləri düz gəlmir, münasibətləri pozulur, aralarında soyuqluq yaranır. Bu soyuqluq da müəyyən müddət ərzində davam edir. Çox keçmir ki, korlanan münasibətlər düzəlir, işlər əvvəlki qaydasına düşür.**

Azərbaycanla ABŞ arasında olan münasibətləri pozmağa çalışan qüvvələr həmişə olub. İki ölkə arasında qarşılıqlı əlaqələrə zərbə vurmağa çalışanlar sırasında birinci yerdə ABŞ-dəki erməni lobbisi durur. Erməni lobbisi həqiqətdən çox-çox uzaq olan müxtəlif bəhanələri əsas gətirərək çalışır ki, ABŞ ilə Azərbaycanın arasını soyutsun, iki ölkənin qarşılıqlı əməkdaşlığına əngəl törətsin. ABŞ-nin də böyük səhvi odur ki, erməni lobbisinin dedikləri ilə oturub durur. Araşdırmalar göstərir ki, 1992-ci ildə Birləşmiş Ştatlar Konqresində "Azadlığa dəstək haqqında" akta əlavə edilən və Vaşinqtonun Bakıya birbaşa dövlət yardımını yasaqlayan 907-ci düzəliş məhz erməni lobbisinin uydurduğu yalanlar əsasında qəbul olunub.

Dünyanın supergücünün Senatında yenidən sözügedən sanksiyanın tətbiqinə dair qərar qəbul etməsi, habelə Azərbaycanın bir sıra dövlət rəsmilərinin ABŞ-yə səfərinə qadağalar qoyması və s. bu kimi addımların atılmasına səbəbkar yenə də erməni lobbisidir. Erməni lobbisi sanki ABŞ üçün sağalmayan qarayaradır. Amma deyəsən, Amerikanın da bu yaranı "müalicə etmək" fikri yoxdu. Əgər olsaydı, indiyə qədər bir çarə tapardı.

ABŞ-nin erməni lobbisinin mövqeyinə əsasən qərar qəbul etməsi, qərəz dolu açıqlamalar yayması Dövlət Departamenti və Konqresin dövlətçilik ənənəsinə xəyanəti kimi də qiymətləndirmək olar. Məlumdur ki, demokratiyanın başlıca prinsipi müzakirədir. Bu qurumların həmin prinsipi gözləməməsi iki ölkə arasındakı münasibətlərə ciddi zərbə vurur.

Azərbaycan Cənubi Qafqazda ABŞ başda olmaqla Qərbin etibarlı tərəfdaşı olub. Bunu tərəflər arasında müxtəlif istiqamətlərdə icra edilən layihələr də sübut edir. Amma təəssüflər olsun ki, ABŞ erməni lobbisinin "əsarəti"ndən çıxa bilmədiyinə görə bu həqiqətə göz yummağa məcbur qalır.

Göz yummaq demişkən, Vaşinqton uzun illər erməni terroruna göz yummaqla, Qarabağdakı separatçı rejimə maddi dəstək verməklə ədalət prinsipinə xəyanət edib. Heç bir əsaslı səbəb olmadan Azərbaycana qarşı qərəzli və birtərəfli mövqe nümayiş etdirməsi, torpaqlarımızın 30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu dövrdə susqun qalması və heç bir təsiredici addım atmaması, 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərdən sonra bizə qarşı qərəzli münasibət sərgiləməsi ABŞ-nin ədalətsiz mövqeyini ortalığa qoyur. Əgər əvvəlki illəri xatırlasaq, görərik ki, müstəqilliyini bərpa edəndən sonra da ABŞ-nin Azərbaycana münasibəti birmənalı olmayıb. Müstəqilliyinin ilk illərindən ərazi bütövlüyünü qorumaq istəyən, demokratik inkişaf yolunu seçən, Qərbə inteqrasiyaya üstünlük verən ölkəmizə qarşı heç bir əsas olmadan məlum sanksiyanı tətbiq edib.

ABŞ-nin Azərbaycana qarşı bu qərəzli mövqeyi dünyada beynəlxalq hüququn maraqlı güclərin və lobbilərin alətinə çevrilməsinin açıq-aydın göstəricisidir. ABŞ başqa dövlətlərin daxili işlərinə müdaxilə etməklə, əslində, təkcə sülh və təhlükəsizliyə deyil, həm də qanlı qarşıdurmalara şərait yaradır. İllər boyu dünya siyasi və hərb tarixində ABŞ-nin rəhbərliyi altında imperializmin müdaxiləsi nəticəsində ölkələrin üzləşdiyi fəlakətlər təsdiq edir ki, Qərbdən ədalət gözləmək əbəsdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



**QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR**
***dirçəliş yolundadır***



# Qarabağ Universitetindən gənclər nə gözləyirlər?

**Prezident İlham Əliyevin 28 noyabr 2023-cü il tarixli sərəncamı ilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxsin yaradılmasından irəli gələrək, Sosial Tədqiqatlar Mərkəzi gənclərin qərara münasibətini öyrənmək, bu barədə gözləntiləri və prioritetləri tədqiq etmək məqsədilə ictimai rəy sorğusu həyata keçirib.**

Sorğular 2023-cü ilin 30 noyabr - 2 dekabr tarixlərində, 18-29 yaş qrupuna mənsub 390 respondent arasında kompüter dəstəkli telefonla müsahibə üsulundan (CATI) istifadə olunmaqla keçirilib. Topludan nümunənin (seçmənin) müəyyən edilməsində ehtimallı seçmənin sistemli üsulundan istifadə olunub. Seçmə çərçivəsi ölkə üzrə əhalinin paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. Naxçıvan və Şərqi Zəngəzur iqtisadi rayonları istisna olmaqla, 12 iqtisadi rayon seçmə çərçivəsində əhatə olunub. Təsadüfiliyi təmin etmək məqsədilə sözügedən iqtisadi rayonlar üzrə inzibati rayon və şəhərlərdə yaşayan hədəf qruplara aid telefon nömrələri müvafiq məlumat bazasından xüsusi proqram vasitəsilə sistemli üsulla seçilərək zənglər olunub.

Sorğu anketi 12 əsas sual və 5 sosial-demoqrafik sualdan ibarət olmaqla hazırlanıb, intervüyerlər sahə işinə başlamamışdan əvvəl təlimatlandırılıb. Sorğularda anonimlik təmin olunub. Respondentlərə sorğunun könüllü iştirak əsasında aparıldığı və nəticələrin yalnız ümumiləşdirilmiş formada istifadə olunacağı barədə zəruri məlumatlar çatdırılıb. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 5% təşkil edir.

Respondentlərin 51.5%-i kişi, 48.5%-i qadın olub. Yaş qrupları üzrə bölgüyə görə, respondentlərin 21.8%-i 18-21 yaş qrupuna, 31.7%-i 22-25 yaş qrupuna, 46.5%-i 26-29 yaş qrupuna mənsub olub. Sorğuda iştirak edənlərin orta yaşı 24-ə bərabərdir.

Məzun olunan ən yüksək təhsil səviyyəsinə görə, respondentlərin 0.3%-i ibtidai təhsilə, 12.5%-i ümumi orta təhsilə, 39.7%-i tam orta təhsilə, 16.1%-i peşə-ixtisas təhsilinə, 31.4%-i ali təhsilə malik olduqlarını bildiriblər. Ailə vəziyyətinə görə, iştirakçıların 56.1%-i subay, 42.3%-i evli, 1%-i boşanmış və 0.6%-i dul olduğunu bildiriblər. Yaşayış məntəqəsinin növünə görə, respondentlərin 46.2%-i şəhərdə, 17.4%-i qəsəbədə, 36.4%-i kənddə yaşadığını qeyd edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı əsasında Qarabağ Universitetinin yaradılması ərazilərin bərpası və yenidən qurulması, milli köklərə və tarixi torpaqlara qayıdış, regionların inkişafı, idarəetmə sistemi, geosiyasət, mədəniyyət, nəqliyyat-logistika kimi müxtəlif istiqamətlərin birləşdiyi vahid quruculuq xəttində elm və təhsilin, onun ideoloji bazasının və texnoloji imkanlarının inkişafına istiqamətlənmiş tarixi qərardır.

Keçirilmiş rəy sorğusu ali təhsil müəssisəsi ilə birbaşa əlaqəli qrupların, gənclərin, o cümlədən təhsil alanların işğaldan azad olunmuş ərazilərdə yaradılan ilk universitet barədə məlumatlılıq səviyyəsini, onun strateji əhəmiyyətini və əsas gözləntiləri müəyyən etməyə imkan verib.

## Qarabağ Universitetinin yaradılması haqqında məlumatlılıq

"Prezidentin sərəncamı ilə Xankəndidə Qarabağ Universitetinin yaradılması barədə məlumatınız varmı?" sualına cavab olaraq, respondentlərin 54.5%-i bu barədə məlumatlı olduğunu, 45.5%-i məlumatlı olmadığını bildirib.

Respondentlər arasında kişilərin 53.3%-i, qadınların 56%-i Qarabağ Universitetinin yaradılması barədə məlumatlı olub.

18-21 yaş qrupu respondentlərin 60.7%-i, 22-25 yaş qrupu üzrə 54.9%-i və 26-29 yaş qrupu üzrə 51.4%-i bu barədə məlumatlı olduğunu qeyd edib.

Təhsil səviyyələrinə görə, məlumatlı olanlar orta təhsillilər üzrə 46.4%-ə, ali təhsillilər üzrə 69.4%-ə bərabər olub.

Məşğulluq vəziyyətinə görə, ən çox məlumatlı olanlar dövlət sektorunda işləyənlər (72.8%) və tələbələr (63.9%), ən az məlumatlı qrup isə işsizlər (43.5%) və evdar qadınlar (43.8%) olublar.

## Qarabağ Universitetinin yaradılmasının əhəmiyyəti

Sorğunun nəticələrinə əsasən, respondentlərin 82.6%-i Qarabağ Universitetinin yaradılmasını çox əhəmiyyətli hadisə kimi qiymətləndirib. Onların 16.4%-i universitetin yaradılmasının müəyyən qədər əhəmiyyətli olduğunu, cəmi 1.0%-i əhəmiyyətli olmadığını ifadə edib.

Nəticələrdən göründüyü kimi, Qarabağ Universitetinin yaradılması respondentlərin sosial-demoqrafik profillərindən asılı olmayaraq, onların əksəriyyəti tərəfindən əhəmiyyətli hadisə kimi qiymətləndirilib.

Tələbələrin 85.2%-i və ali təhsillilərin 85%-i Qarabağ Universitetinin yaradılmasını çox əhəmiyyətli hadisə kimi xarakterizə edib.

Qarabağ Universitetinin yaradılmasını əhəmiyyətli hadisə kimi qiymətləndirənlərdən bunun əhəmiyyətini necə xarakterizə etdikləri soruşulub və bir neçə cavab variantı qeyd etmək imkanı verilib. Ümumi nəticələrə görə, respondentlərin 47.2%-i sözügedən universitetin yaradılmasını Qarabağa qayıdış və qalıcı məskunlaşmanın təmin olunması, 39.1%-i Qarabağda tarixi təhsil ənənələrinin yaşadılması, 37.8%-i Qarabağın tarixi həqiqətlərinin və mədəniyyətinin öyrənilməsi və təbliği baxımından əhəmiyyətli hesab edib. Eyni zamanda sorğuda iştirak edənlərin 31.2%-i universitetin Qarabağda ixtisaslı kadr hazırlığını təmin edəcəyi, 29.9%-i bu çərçivədə Qarabağın elmi-tədqiqat məkanına çevriləcəyi, 26%-i "Qarabağ" adının təhsil sisteminə daşınacağı və təhsil brendinə çevriləcəyi, 12%-i elmi-tədqiqat mərkəzi kimi regionda inteqrasiya və təhlükəsizliyə təsir imkanları baxımından əhəmiyyətli hadisə kimi dəyərləndirib.

Nəticələri respondentlərin bu barədə ilk cavab variantları üzrə nəzərdən keçirdikdə, birinci sırada hər dörd nəfərdən birinin rəyində "Qarabağ" adının təhsil sisteminə daşınacağı və təhsil brendinə çevriləcəyi (26%), növbəti sıralarda Qarabağda tarixi təhsil ənənələrinin yaşadılması (20.2%) və Qarabağın elmi-tədqiqat mərkəzinə çevriləcəyi (19.7%) mövqeyi qərarlaşıb.



## Qarabağ Universiteti barədə gənclərin prioritetləri

Sorğu çərçivəsində gənclərin yeni yaradılan universitetdə təhsil almaq arzuları, təhsil almaq istədikləri proqramlar və universitetin ixtisaslaşma istiqamətləri barədə prioritetləri öyrənilib. "Əgər fürsət olarsa, Qarabağ Universitetində təhsil almaq istərdinizmi?" sualını gənclərin ümumilikdə 74.5%-i müsbət cavablandırıb. Belə ki, onların 35.3%-i "bəli, mütləq istərdim", 39.2%-i "bəli, yəqin ki, istərdim" cavabını verib. Sorğuda iştirak edənlərin 13%-i "xeyr, yəqin ki, istəməzdim" və 12.5%-i "xeyr, heç istəməzdim" mövqeyini ifadə edib.

Bu barədə müsbət mövqe müqayisə etibarilə ən çox tam orta təhsilə malik olanlar (77.8%) arasında, ən az ali təhsilə malik olanlar (68.6%) arasında müəyyən olunub. Tam orta təhsillilərin 39.2%-i, ali təhsillilərin 24.8%-i "bəli, mütləq istərdim" cavabını verib. Tələbələrin 75.4%-i belə bir təklifi müsbət qarşılayacağını bildirib.

Bu suala müsbət cavab verənlərə "Hansı ixtisas üzrə təhsil almaq istərdiniz?" açıq sualı ünvanlanıb. Cavabları ixtisas qruplarına görə nəzərdən keçirdikdə, onların 22.6%-i təhsil (pedaqoji) ixtisasları üzrə, 17.1%-i texniki və texnoloji ixtisaslar üzrə, 12.2%-i iqtisadiyyat və idarəetmə ixtisasları üzrə, 8%-i tibb üzrə, 7.6%-i humanitar və sosial elmlər ixtisasları üzrə, 24.8%-i digər ixtisaslar üzrə təhsil almaq istədiyini bildirib, 7.7%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib.

Sözügedən universitetdə təhsil almağın üstünlükləri ilə bağlı respondentlərə açıq sual ünvanlanıb. Əldə olunan nəticələrin təhlilinə əsasən, onların 19.5%-i əsas üstünlük kimi yeni yaradılan universitetin "Qarabağ" adına layiq keyfiyyətli təhsil verməsi və təhsil sistemində yeniliklər etməsi, 17.8%-i universitetin işğaldan azad olunmuş şəhərdə yaradılması və burada təhsilin prestijli olması, 15.7%-i Qarabağda yaşamaq, onun tarixini və mədəniyyətini öyrənmək baxımından, 8%-i Qarabağın yenidən qurulması, bərpası prosesi üçün ixtisaslı kadr hazırlığı və işlə təminat məsələləri baxımından, 6.6%-i universitetin dünyada tanınması və perspektiv imkanları ilə əlaqələndirib. Respondentlərin 9.4%-i digər cavabları səsləndirib, 23%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib.

Gənclərin 64.4%-i yeni yaradılan universiteti modern və innovativ, yəni "smart" universitet modelində, 34.5%-i ənənəvi universitet modelində görmək istədiyini bildirib. Onların 1.0%-i bu barədə rəy bildirməkdə çətinlik çəkib.

Yeni yaradılan universitetin ənənəvi, yoxsa müasir və innovativ modeldə qurulması ilə bağlı rəylərdə respondentlərin gender mənsubiyyəti və yaş qrupları üzrə əhəmiyyətli fərq qeydə alınmayıb.

Ali təhsillilərin 70.2%-i, tam orta təhsilə malik olanların 62.1%-i, ümumi orta təhsilə malik olanların 52.1%-i universiteti modern və innovativ (smart) modeldə qurulmasını üstün hesab edib. Həmçinin bu mövqe ən çox tələbələrin rəyində (73.8%) özünü göstərib.

Qarabağ Universitetinin gələcəkdə ixtisaslaşma istiqamətləri ilə bağlı gənclərin arzuları da öyrənilib və onlara bu barədə prioritet hesab etdikləri bir neçə istiqaməti səsləndirməsi təklif olunub. Ümumi nəticələrə əsasən, rəy sorğusunda iştirak edənlərin 37.9%-i yaradılan universitetin kənd təsərrüfatı, 37.1%-i mədəniyyət və incəsənət, 35.1%-i iqtisadiyyat və idarəetmə, 33.8%-i texnologiya və mühəndislik, 31.2%-i tibb, 23.4%-i pedaqoji, 16.6%-i sosial və humanitar elmlər sahəsində ixtisaslaşmasını üstün tutduğunu bildirib. İştirakçıların 3.6%-i digər cavab variantlarını səsləndirib.

Nəticələri respondentlərin bu suala verdikləri ilk cavab variantları üzrə nəzərdən keçirdikdə, birinci sırada texnologiya və mühəndislik (33.8%), növbəti sıralarda mədəniyyət və incəsənət (19.2%), tibb (17.7%), iqtisadiyyat və idarəetmə (10.1%), sosial və humanitar elmlər (8.3%), kənd təsərrüfatı (7.5%), pedaqoji (3.1%) və digər (0.3%) cavab variantları qərarlaşıb.

Tələbələrin əsas hissəsi, yəni 50.8%-i, ali təhsillilərin isə 43.8%-i yeni universitetin iqtisadiyyat və idarəetmə istiqaməti üzrə ixtisaslaşmasını üstün hesab etdiyini bildirib.

Qarabağ Universitetinin gənclər üçün cəlbediciliyinin artırılması məqsədilə onların universitet seçimində prioritet hesab etdikləri amillər öyrənilib. Bu barədə respondentlərin rəylərinin nəticəsinə əsasən, ilk yerdə 60.3% respondent tərəfindən karyera və iş imkanları mövqeyi qərarlaşıb. Növbəti cavabları nəzərdən keçirdikdə sorğuda iştirak edənlərin 34.5%-i müəllim heyətini, 32.5%-i müasir tədris proqramlarının mövcudluğunu, 27.0%-i beynəlxalq əlaqələrin olmasını zəruri amillər kimi qiymətləndirib. Eyni zamanda respondentlərin 22.9%-i təqaüd imkanlarının olmasını, 21.0%-i kampus və texniki imkanlarının mövcudluğunu, 17.9%-i təhsil xərcini, 17.9%-i yerləşdiyi məkan və sosial mühiti, 1.6%-i digər cavab variantlarını səsləndirib.

Respondentlərin bu barədə səsləndirdikləri ilk cavabları təhlil etdikdə, birinci sırada müəllim heyəti (34.5%), növbəti yerdə iş və karyera imkanları (22.9%), müasir tədris proqramları (18.7%), təqaüd imkanları (9.4%), beynəlxalq əlaqələr (7.8%), təhsil xərci (3.1%), yerləşdiyi məkan və sosial mühit (1.6%), kampus və texniki imkanlar (1.3%) və digər cavablar (0.8%) yer alıb.

Tələbələrin universitet seçimində ən vacib üç amil iş və karyera imkanları (62.3%), universitetin müəllim heyəti (42.6%), kampus və texniki imkanlarıdır (36.1%).

Ali təhsillilər isə ilk üç prioritet kimi iş və karyera imkanlarını (61.2%), müasir tədris proqramlarını (48.8%) və müəllim heyətini (46.3%) qeyd ediblər.

## Qarabağ Universitetindən gənclərin gözləntiləri

Qarabağ Universitetinin ölkənin təhsil məkanındakı gələcək statusu ilə bağlı gənclərin gözləntiləri öyrənilib. Onların 62.9%-i Qarabağ Universitetinin ölkənin aparıcı təhsil müəssisəsi olacağına tam inandığını, 33.8%-i əsasən inandığını bildirib. Respondentlərin cəmi 2.8%-i bu və ya digər dərəcədə inanmadığını ifadə edib. 0.5%-i fikir bildirməkdə çətinlik çəkib.

Kişilərin 65.7%-i, qadınların 59.4%-i yeni yaradılan universitetin ölkənin aparıcı təhsil müəssisəsi olacağına inamının tam olduğunu bildirib. Onların 30.0%-i və 38.3%-i buna əsasən inandığını qeyd edib.

18-21 yaş qrupu respondentlərin 50%-i, 22-25 yaş qrupu üzrə 67.2%-i, 26-29 yaş qrupu üzrə 65.9%-i Qarabağ Universitetinin ölkənin aparıcı təhsil müəssisəsi olacağına tam inandığını bildirib.

Respondentlərin təqribən yarısı, yəni 49.9%-i Qarabağ Universitetinin gələcəkdə beynəlxalq miqyaslı elmi-tədqiqat mərkəzinə çevriləcəyi gözləntisini bölüşüb. Onların 20.5%-i universitetin regional miqyaslı, yəni Cənubi Qafqaz miqyasında, 28.8%-i ölkə miqyaslı aparıcı elmi-tədqiqat mərkəzinə çevriləcəyini gözlədiyini bildirib. İştirakçıların 0.8%-i fikir bildirməkdə çətinlik çəkib.

Respondentlər arasında tələbələrin 49.2%-i və ali təhsillilərin 51.2%-i yeni yaradılan universitetin beynəlxalq miqyaslı elmi-tədqiqat mərkəzinə çevriləcəyi gözləntisini bölüşüb.

Bu mövqe 18-21 yaş qrupu respondentlərin rəyində 47.6%-ə, 22-25 yaş qrupu üzrə 54.1%-ə və 26-29 yaş qrupu üzrə 48.0%-ə bərabər olub.

## İşğaldan azad olunmuş digər ərazilər barədə gənclərin gözlənti və prioritetləri

"Qarabağda hansı sahələr üzrə ixtisaslaşmış ali məktəblərin qurulmasını zəruri hesab edirsiniz?" sualına cavab olaraq, respondentlərin bir neçə sahə, yaxud istiqaməti qeyd etməsinə imkan verilib. Nəticələrə əsasən, respondentlərin 42.6%-i hərbi sahədə, 40.5%-i tibb sahəsində, 39.5%-i kənd təsərrüfatı sahəsində, 39.0%-i mədəniyyət və incəsənət sahəsində ixtisaslaşmış ali məktəblərin yaradılmasını zəruri hesab edib. Respondentlərin rəylərində növbəti sıralarda texnologiya və mühəndislik (31.9%), iqtisadiyyat və idarəetmə (29.9%), pedaqoji (25.7%), sosial və humanitar elmlər (22.9%) istiqamətləri sıralanıb. İştirakçıların 1.0%-i digər cavab variantlarını səsləndirib.

Nəticələri respondentlərin səsləndirdikləri ilk cavabları üzrə nəzərdən keçirdikdə, birinci sırada texnologiya və mühəndislik (31.9%), tibb (21.3%), mədəniyyət və incəsənət (14%), sosial və humanitar elmlər (12.7%), iqtisadiyyat və idarəetmə (6.5%), kənd təsərrüfatı (6.2%), hərbi (4.2%), pedaqoji (2.9%) və digər (0.3%) istiqamətlər qərarlaşıb.

Ali təhsillilərin bu barədə rəylərində ilk sıralarda kənd təsərrüfatı (49.6%), tibb (41.3%), mədəniyyət və incəsənət (41.3%) cavabları yer alıb.

Tələbələrin bu sahədə prioritetləri mədəniyyət və incəsənət (42.6%), tibb (42.6%), iqtisadiyyat və idarəetmə (39.3%) istiqamətləridir.

Respondentlərə "Yeni universitetlərin, yaxud mövcud universitetlərin filiallarının işğaldan azad olunmuş hansı rayon və şəhərlərdə yaradılmasını istərdiniz?" açıq sualı ünvanlanıb və onlara bir neçə cavab səsləndirmək imkanı verilib. Nəticələrə əsasən, gənclərin 71.6%-i Şuşa şəhərində, 34.4%-i Ağdam şəhərində, 33%-i Laçın şəhərində, 30.0%-i Kəlbəcər şəhərində, 24.1%-i Füzuli şəhərində, 14.7%-i Zəngilan, 10.2%-i Cəbrayıl, 9.7%-i Xocalı, 8%-i Qubadlı, 6.7%-i Xocavənd şəhərində açılmasını arzu etdiyini bildirib.

Respondentlərin bu barədə səsləndirdikləri ilk cavabları təhlil etdikdə, ilk sıralarda Şuşa (49.3%), Füzuli (20.3%), Ağdam (18.6%), Zəngilan (7.5%), cavabları qeyd olunub.

Tələbələrin 70.5%-i yeni universitetlərin Şuşa, 29.5%-i Ağdam, 29.5%-i Füzuli şəhərlərində yaradılmasını arzu etdiyini bildirib. Analoji ardıcıllıq ali təhsillilərin mövqeyində də keçərlidir.

Respondentlərə "Azad edilmiş ərazilərin yenidən qurulması və qayıdış proqramı çərçivəsində təhsillə yanaşı, ölkə rəhbərliyinin digər hansı sahələrdə qərarlar verməsini istərdiniz?" açıq sualı ünvanlanıb və bir neçə cavab səsləndirmək imkanı verilib. Nəticələrə əsasən, respondentlərin 36.7%-i ilk növbədə işğaldan azad olunmuş ərazilərdə sosial rifahın yüksəldilməsi, məşğulluğun təmin olunması və yeni istehsalat müəssisələrinin yaradılması tədbirləri barədə qərarlar verilməsini arzuladığını bildirib. Respondentlərin 15.9%-i abadlıq, turizm və asudə vaxtın təşkili sahəsində, 11.4%-i təhsil sahəsində, 10.9%-i səhiyyə sahəsində infrastrukturun yaradılması gözləntilərini bölüşüb. Növbəti sıralarda kənd təsərrüfatı (7.5%), mədəniyyət və incəsənət obyektlərinin açılması (4.9%), idarəetmə strukturlarının yaradılması (2.3%) və digər (10.6%) cavablar yer alıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Daha 25 ailə Füzuli şəhərinə qayıtdı

**"Biz əlimizdən gələni edirik ki, keçmiş məcburi köçkünlər üçün ən yaxşı şərait yaradılsın. Onlar buna layiqdirlər, çünki onlar 30 il ərzində çətin şəraitdə yaşayıblar". Prezident İlham Əliyevin dekabrın 6-da keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirdiyi bu fikirlər hər ötən gün öz təsdiqini tapır.**

İşğaldan azad edilmiş ərazilərə demək olar ki, hər ay bir neçə dəfə köçlərin təşkil olunması sübut edir ki, keçmiş məcburi köçkünlərin doğma el-oba nisgilinə son qoymaq üçün dövlət tərəfindən bütün zəruri addımlar atılır.

Elə dünən Füzuli şəhərinə növbəti köç karvanının yola salınması da bu istiqamətdə atılan mühüm addımların davamıdır. Belə ki, dekabrın 7-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Bakı şəhərinin Qaradağ rayonundan yola salınan, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış bir qrup füzulilinin də Vətən həsrətinə son qoyulub. Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə - 80 nəfər köçürülüb. Bununla da indiyədək Füzuli şəhərində 333 ailənin (1186 nəfərin) daimi məskunlaşması təmin edilib.

Ötən üç il ərzində işğaldan azad edilmiş bütün ərazilər kimi, Füzuli şəhərində də genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilib. Dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkə üçün nümunə olan yeni mərhələyə qədəm qoyaraq rayonların sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edən layihələrin icrasına başlanılıb.



Qısa müddət ərzində yüksək beynəlxalq standartlara cavab verən Qarabağın ilk hava limanı müasir səviyyədə inşa olunaraq istismara verilib, Zəfər yolunun çəkilişi yekunlaşıb, Füzuli yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi tikilib. Baş plana əsasən, 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Bu şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri yaradılacaq.

Məşğulluğun və sosial xidmətlərin təmini üçün Füzuli şəhərində 9 ümumi və orta təhsil müəssisəsi, 13 məktəbəqədər təhsil müəssisəsi, peşə təhsili müəssisəsi, internat tipli musiqi məktəbi, xəstəxana, idman və sağlamlıq mərkəzi, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman kompleksinin inşası, Qələbə və Memorial parkının, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan ekoparkın salınması planlaşdırılıb.

Digər bir önəmli məqam isə yurdlarına qovuşan ailələrin işlə təminatıdır. Bunu diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev qeyd edir ki, əsas məsələ keçmiş məcburi köçkünlər üçün yaxşı şərait və iş yerləri yaratmaqdır: "Yeri gəlmişkən, onu da deyim ki, iş yerlərinin yaradılması da vacib sahələrdəndir və biz qayıdış prosesini planlaşdırarkən diqqətimizi buna yönəldirik. Beləliklə, geri qayıdan insanların əksəriyyəti artıq işlə təmin edilib və bu, bir daha onu nümayiş etdirir ki, bizim yanaşmamız hərtərəflidir".

Xatırladaq ki, indiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 363 ailə (1389 nəfər) Laçın şəhərinə, 333 ailə (1186 nəfər) Füzuli şəhərinə, 121 ailə (475 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Ümumilikdə 1012 ailə - 4012 nəfər keçmiş məcburi köçkün dədə-baba yurduna qovuşub.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***



# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 437

QƏRAR

Bakı şəhəri, 6 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 499 nömrəli Qərarı ilə təsdiq edilmiş “Reklam qurğularına Texniki Tələblər”də dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 499 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2218; 2018, № 7 (II kitab), maddə 1631; 2019, № 7, maddə 1322, № 12, maddə 2102; 2022, № 11, maddə 1347) ilə təsdiq edilmiş "Reklam qurğularına Texniki Tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.2-1-ci və 2.2-1-ci bəndlər əlavə edilsin:

"1.2-1. Bakı şəhərinin ərazisində olan binalarda yerləşdirilən reklam qurğularına dair xüsusi tələblər bu Texniki Tələblərin 3-1-ci hissəsi ilə müəyyən edilir.

2.2-1. Reklam qurğuları (reklam) tarix və mədəniyyət abidələrinin ərazilərində və mühafizə zonalarında, memarlıq abidələrinin (binalarının) fasadlarında (divarlarında, hasarlarında) və dam örtüklərində "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 26.3-cü maddəsinin, həmçinin "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin 7-ci hissəsinin tələbləri nəzərə alınmaqla yerləşdirilir.".

2. Aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

**"3-1. Bakı şəhərinin ərazisində olan binalarda yerləşdirilən reklam qurğularına dair xüsusi tələblər**

3-1.1. Bu Texniki Tələblərin 3-1-ci hissəsinin məqsədləri üçün binalar dedikdə birbaşa aid olduğu ticarət, ictimai iaşə, məişət və digər növ xidmətlərin göstərildiyi obyektlərin yerləşdiyi yaşayış və qeyri-yaşayış binaları, habelə onunla sıx bağlı və ya ona bitişik olan tikililər (çətirlər, tentlər, məhəccərlər və hasarlar) nəzərdə tutulur.

3-1.2. Bu Texniki Tələblərin 3.11-ci, 3.14-cü, 3.15-ci və 3.17-ci bəndləri ilə müəyyən edilmiş reklam qurğuları istisna olmaqla, Bakı şəhərinin ərazisində olan binalarda yalnız bu Texniki Tələblərin 3-1-ci hissəsində nəzərdə tutulmuş reklam qurğularının yerləşdirilməsinə yol verilir.

3-1.3. Reklam qurğularının yerləşmə yerlərində qaz, istilik, su (kanalizasiya) və elektrik təchizatı sistemlərinin elementlərinin olduğu halda qurğuların yerləşdirilməsi həmin sistemlərin təhlükəsizliyinin təmin edilməsi şərtilə həyata keçirilir.

3-1.4. Reklam qurğularının yerləşdirilməsi zamanı aşağıdakılara yol verilmir:

3-1.4.1. reklam qurğularının bu Texniki Tələblərin 3-1-ci hissəsi ilə müəyyən edilmiş parametrlərinin (ölçülərinin), eləcə də yerləşdirilmə yerləri ilə bağlı müəyyən edilmiş tələblərin pozulmasına;

3-1.4.2. bu Texniki Tələblərin 3-1.5.1-ci, 3-1.5.6-cı, 3-1.7.1-ci və 3-1.9.1-ci yarımbəndlərində nəzərdə tutulan hallarda reklam qurğularının şaquli yerləşdirilməsinə;

3-1.4.3. bu Texniki Tələblərin 3-1.5.7-ci yarımbəndi ilə müəyyən edilmiş hal istisna olmaqla, reklam qurğularının binaların günlüklərində yerləşdirilməsinə;

3-1.4.4. reklam qurğusunun binanın fasadının tinlərində yerləşdirilməsinə;

3-1.4.5. reklam qurğusunun binanın fasadının memarlıq detallarında (o cümlədən sütunlarda, ornamentlərdə, bəzəklərdə və s.) yerləşdirilməsinə;

3-1.4.6. reklam qurğusunun memorial lövhələrə, həmçinin memarlıq abidələrinin (binalarının) məlumat lövhələrinə 1 metrdən yaxın məsafədə yerləşdirilməsinə;

3-1.4.7. ünvan məlumatlarının yerləşdiyi lövhələrin üzərinin örtülməsinə;

3-1.4.8. fasaddakı bir reklam qurğusunun digərinin üzərində yerləşdirilməsinə;

3-1.4.9. bir kronşteyn panel qurğusunun digərinin üzərində yerləşdirilməsinə;

3-1.4.10. reklamın binanın fasadında dekorativ-bədii və (və ya) mətn təsvirinin bilavasitə çəkilməsi yolu ilə (boyama, yapışdırma və digər metodlarla) yerləşdirilməsinə;

3-1.4.11. reklam məqsədilə pəncərə və divar oyuqlarının, həmçinin onların çərçivələrinin (impostlarının) bağlanmasına, boyanmasına və dekorativ plyonkalarla örtülməsinə;

3-1.4.12. elektron daşıyıcının vitrin şüşəsinin bütün hündürlüyü və (və ya) uzunluğu boyunca quraşdırılmasına;

3-1.4.13. reklam qurğusunun lociya, balkon və eyvanlarda yerləşdirilməsinə;

3-1.4.14. reklam qurğusunun məhəccərlər və hasarlar istisna olmaqla, digər çəpərləyici qurğularda (şlaqbaumlar, çəpərlər və s.) yerləşdirilməsinə;

3-1.4.15. memarlıq abidələrində (binalarında) eyni obyektə aid 1-dən çox fasad reklamının yerləşdirilməsinə;

3-1.4.16. memarlıq abidələrində (binalarında) yerləşdirilən fasad reklamlarında daxili işıqlandırmadan istifadə olunmasına;

3-1.4.17. memarlıq abidələrinin (binalarının) üzərində kronşteyn panel qurğusunun yerləşdirilməsinə.

3-1.5. Fasad reklamları bu Texniki Tələblərin 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə uyğun yerləşdirilir. Fasad reklamları yerləşdirilərkən aşağıdakılara riayət olunmalıdır:

3-1.5.1. fasad reklamları hərflər, rəqəmlər, bədii-dekorativ elementlər (loqotiplər, nişanlar, simvollar və s.) şəklində olmaqla ticarət, ictimai iaşə, məişət və digər növ xidmət obyektlərinin birinci və ikinci mərtəbələrinin pəncərələri arasındakı mərkəzi sahədən aşağıda, giriş hissələrinin və ya pəncərələrinin (vitrinlərinin) yuxarısında, həmçinin obyektlərin pəncərələri arasındakı aralıq divarlarda yerləşdirilir. Binanın üzərində eyni zamanda bir neçə fasad reklamı yerləşdirildikdə, qeyd edilən reklam qurğuları vahid üfüqi xətt boyunca (eyni səviyyədə) bir hündürlük səviyyəsində olmalıdır (əlavə 1, şəkil 1);

3-1.5.2. fasad reklamları binanın çöl tərəfinin ölçülərinə uyğun olan sahəsi çərçivəsində fasadın memarlıq elementlərindən azad hamar hissələrində yerləşdirilir. Fasad reklamları bərkidici və (və ya) altlıq elementlərindən istifadə edilməklə yerləşdirilə bilər. Fasad reklamları, habelə onun bərkidici və altlıq elementləri ərazinin və binanın bədii-memarlıq üslubuna uyğun olmalıdır. Fasad reklamları tək qurğudan (vahid qurğu) və ya qarşılıqlı əlaqəli elementlərin əks olunduğu qurğulardan ibarətdir;

3-1.5.3. fasad reklamları binaların zirzəmi və ya kürsülük mərtəbəsinin giriş hissələrinin və ya pəncərələrinin yuxarısında yerləşdirilə bilər. Bu zaman reklam qurğusu bərkidildiyi yerdən 0,10 metrdən çox çıxıntı əmələ gətirməməlidir (əlavə 1, şəkil 2);

3-1.5.4. fasad reklamlarının ölçüləri (əlavə 1, şəkil 3):

1. hündürlüyünə görə - qurğunun frizdə yerləşdirilməsi istisna olmaqla 0,50 metrdən;

2. uzunluğuna görə - tək qurğu üçün 10 metrdən, lakin obyektin uzunluğunun 70 faizindən;

3. fasad reklamları qarşılıqlı əlaqəli elementlərdən istifadə edilməklə hazırlandıqda onun maksimal ölçüsü uzunluğuna görə 15 metrdən, lakin obyektin uzunluğunun 70 faizindən çox olmamalıdır;

3-1.5.5. bu Texniki Tələblərin 3-1.5.3-cü yarımbəndi istisna olmaqla, fasad reklamları bərkidildiyi yerdən 0,20 metrdən (memarlıq abidələrinə (binalarına) münasibətdə isə 0,10 metrdən) artıq çıxıntı əmələ gətirməməlidir (əlavə 1, şəkil 4);

3-1.5.6. frizdə yerləşdirilən fasad reklamında altlıqdan istifadə edildiyi halda, həmin altlıq frizin ölçülərinə uyğun yerləşdirilir. Reklam qurğusunun frizdə yerləşdirilməsi üçün istifadə edilən altlığın hündürlüyü frizin hündürlüyünə bərabər olmalıdır. Frizdəki fasad reklamları vahid üfüqi ox üzrə yerləşdirilməlidir. Bir frizdə bir neçə fasad reklamı yerləşdirildikdə onlar üçün vahid altlıq təşkil edilməlidir (əlavə 1, şəkil 5);

3-1.5.7. binanın günlüyündə frizin olduğu halda fasad reklamı frizin qabaritləri daxilində yerləşdirilə bilər (əlavə 1, şəkil 6);

3-1.5.8. fasad reklamları memarlıq abidələrinin (binalarının) üzərində həmin abidələrin (binaların) fasadlarının səthinə uyğun bərkidici elementlərdən istifadə edilməklə yerləşdirilməlidir;

3-1.5.9. fasad reklamları memarlıq abidələrinin (binalarının) kompozisiyasına, üslubuna, ornament və ya naxışlarına, o cümlədən fasadlarının dekorasiyasına xələl gətirmədən, rənglərin və rəng birləşmələrinin məhdud istifadəsi, fasadın rəngi ilə harmoniyası nəzərə alınmaqla yerləşdirilməlidir;

3-1.5.10. yerləşdirilmiş fasad reklamlarına əlavə olaraq binanın girişində (sağda və ya solda olmaqla), qapı oyuğundan yüksəkdə olmamaq şərtilə fasadın memarlıq elementlərindən azad hamar hissələrində bir ədəd reklam qurğusu yerləşdirilə bilər. Bu zaman reklam qurğusu hündürlüyünə görə 0,80 metrdən, uzunluğuna görə isə 0,60 metrdən çox olmamalıdır (əlavə 1, şəkil 7).

3-1.6. Vitrin üzərində reklam qurğuları bu Texniki Tələblərin 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə uyğun yerləşdirilir. Vitrin üzərində reklam qurğuları yerləşdirilərkən aşağıdakılara riayət olunmalıdır:

3-1.6.1. vitrin üzərində reklam qurğusu vitrin şüşəsinin xarici və (və ya) daxili tərəfində yerləşdirilir;

3-1.6.2. vitrin üzərində reklam qurğusu hərflər, rəqəmlər, bədii-dekorativ elementlər (loqotiplər, nişanlar, simvollar və s.), təsvirlər şəklində və ya elektron daşıyıcılar vasitəsilə yerləşdirilir;

3-1.6.3. vitrin şüşəsində reklam səthinin sahəsi vitrinin ümumi sahəsinin 50 faizindən çox olmamalıdır. Vitrin üzərində reklam qurğusu bərkidici və (və ya) altlıq elementlərindən istifadə etməklə yerləşdirilə bilər (əlavə 2, şəkil 1);

3-1.6.4. vitrin şüşəsində yerləşdirilən reklam qurğusu çərçivələrin, impostlar olduqda onların sərhədləri daxilində yerləşməlidir. Vitrin şüşəsinin xarici tərəfinə yerləşdirilən reklam qurğusu binanın fasadının müstəvisindən kənara çıxmamalı, reklam qurğusunun uzunluğu vitrin şüşəsinin uzunluğundan çox olmamalıdır. Vitrin çoxtərəfli formaya malik olduğu halda reklam qurğusu onun hər üzünə paralel şəkildə, konstruktiv elementlərinə (impostlarına) bərkidilmə mümkünlüyü təmin edilməklə yerləşdirilə bilər (əlavə 2, şəkil 2);

3-1.6.5. reklam qurğularının binaların pəncərələrində (pəncərə altlıqlarında) və qapılarının şüşələrində yerləşdirilməsi onların vitrinlərdə yerləşdirilməsi ilə bağlı müəyyən edilmiş tələblərə müvafiq olaraq həyata keçirilir.

3-1.7. Kronşteyn panel qurğuları bu Texniki Tələblərin 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə uyğun yerləşdirilir. Kronşteyn panel qurğuları yerləşdirilərkən aşağıdakılara riayət olunmalıdır:

3-1.7.1. kronşteyn panel qurğusu birinci və ikinci mərtəbələrin pəncərələri arasındakı mərkəzi sahədən aşağıda yerləşdirilməli, eləcə də yer səviyyəsindən kronşteyn panel qurğusunun aşağı kənarınadək məsafə ən azı 2,20 metr olmalıdır. Kronşteyn panel qurğuları arasındakı məsafə 3 metrdən az ola bilməz. Binada eyni obyektə aid yalnız 1 kronşteyn panel qurğusu yerləşdirilə bilər. Binanın üzərində eyni zamanda bir neçə kronşteyn panel qurğusu quraşdırıldıqda, qeyd edilən reklam qurğuları vahid üfüqi xətt boyunca bir hündürlük səviyyəsində (reklam qurğusunun aşağı kənarlarına münasibətdə) olmalıdır (əlavə 3, şəkil 1);

3-1.7.2. kronşteyn panel qurğusunun bərkidici elementləri binanın fasadının müstəvisindən 0,20 metrdən çox məsafədə, onun üz tərəfinin kənar nöqtəsi isə fasadın müstəvisindən 1 metrdən çox məsafədə yerləşməməlidir. Kronşteyn panel qurğusunun hündürlüyü 1 metrdən, eni isə 0,20 metrdən çox olmamalıdır (əlavə 3, şəkil 2);

3-1.7.3. tarix və mədəniyyət abidələrinin mühafizə zonalarındakı binalarda yerləşdirilən kronşteyn panel qurğusu hündürlüyünə və uzunluğuna görə 0,50 metrdən çox olmamalıdır (əlavə 3, şəkil 3);

3-1.7.4. kronşteyn panel qurğusu tarix və mədəniyyət abidələrinin mühafizə zonalarındakı binalarda binanın bədii memarlıq üslubuna uyğun dizayn edildikdə yerləşdirilə bilər.

3-1.8. Asma panel qurğuları bu Texniki Tələblərin 4 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə uyğun yerləşdirilir. Asma panel qurğuları yerləşdirilərkən aşağıdakılara riayət olunmalıdır:

3-1.8.1. asma panel reklam qurğusu piyadaların qalereya məkanında, yerləşdirmə yerinin estetik görkəminə və ölçülərinə uyğun olaraq yerləşdirilir;

3-1.8.2. yer səviyyəsindən asma panel qurğusunun aşağı kənarınadək məsafə 2,5 metrdən az olmamalıdır;

3-1.8.3. asma panel reklam qurğusunun hündürlüyü 0,75 metrdən çox olmamalıdır.

3-1.9. Binalarda digər reklam qurğuları bu Texniki Tələblərin 5 nömrəli əlavəsi ilə müəyyən edilmiş tələblərə uyğun yerləşdirilir. Binalarda digər reklam qurğuları yerləşdirilərkən aşağıdakılara riayət olunmalıdır:

3-1.9.1. binaların vitrinlərinin, qapı və pəncərələrinin üzərinə quraşdırılan tentlərə, o cümlədən stasionar ticarət, ictimai iaşə, məişət və digər növ xidmət obyektlərinə bitişik sahələrdə istifadə edilən çətirlərə reklamların yerləşdirilməsinə yol verilir. Bu zaman reklamın hündürlüyü 0,30 metrdən çox olmamalıdır. Tent və çətirlərdə reklamlar vahid üfüqi ox üzərində yerləşməlidir (əlavə 5, şəkil 1);

3-1.9.2. zirzəmi mərtəbəsinin giriş hissələrinin və ya pəncərələrinin yuxarısında reklam yerləşdirmək mümkün olmadıqda və ya yerləşdirilmiş reklamlar qarşıdan baxılarkən görünmədikdə məhəccərdə reklam yerləşdirmək mümkündür. Məhəccər metal konstruksiya şəklində və ya memarlıq elementlərindən ibarət olduqda onun tutacaq hissəsi istisna olmaqla, səthində reklam qurğusunun yerləşdirilməsinə yol verilmir. Məhəccərin tutacaq hissəsində quraşdırılan reklam qurğusunun reklam yerləşdirilən səthi 0,50 x 0,50 metrədək, yer səviyyəsindən yuxarı kənarınadək məsafə maksimum 1,50 metrədək təşkil edir, digər hallarda isə reklam məhəccərin ümumi ölçüsünün 50 faizindən çox olmayaraq tam mərkəzdə yerləşdirilir (əlavə 5, şəkil 2).

3-1.10. Bakı şəhərinin ərazisində olan binalarda elektron ekranın, divar panosunun (brandmauer), binaların damında hərflər və loqotiplər şəklində yerləşdirilən, habelə fərdi layihələr əsasında hazırlanmış reklam qurğularının yerləşdirilməsi xüsusiyyətləri bu Texniki Tələblərin müvafiq olaraq 3.11-ci, 3.14-cü, 3.15-ci və 3.17-ci bəndləri ilə tənzimlənir.".

3. "Reklam qurğularına Texniki Tələblər"in 3-1-ci hissəsinin müddəaları bu Qərar qüvvəyə mindiyi tarixdə müddəti bitməmiş açıq məkanda reklam yerləşdirilməsinə verilən icazə əsasında Bakı şəhərinin ərazisində olan binalarda yerləşdirilən reklam qurğularına şamil olunmur.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 dekabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmişdir. 1 nömrəli əlavə

**Şəkil 1**



**Şəkil 2**



**Şəkil 3**




**Şəkil 4**




**Şəkil 5**



**Şəkil 6**



**Şəkil 7**



### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 dekabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmişdir. 2 nömrəli əlavə

**Şəkil 1**




**Şəkil 2**



### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 dekabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmişdir. 3 nömrəli əlavə

**Şəkil 1**



**Şəkil 2**



**Şəkil 3**



### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 dekabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmişdir. 4 nömrəli əlavə




### Azərbaycan Respublikası NazirlərKabinetinin 2023-cü il 6 dekabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmişdir. 5 nömrəli əlavə

**Şəkil 1**



**Şəkil 2**



**Şəkil 3**



# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan bundan sonra da qlobal enerji layihələrini gerçəkləşdirəcək




**"Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunun mövzusu, məqsəd və məramı adından da aydın görünürdü. Bir neçə saat davam edən tədbirdə söhbət əsasən Qarabağa və Şərqi Zəngəzura "Böyük qayıdış"dan getsə də, həmçinin Azərbaycanın iqtisadiyyatına, dünyanın bir çox ölkəsi ilə əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinə aid məsələlər özünə geniş yer aldı. Məşhur beyin və tədqiqat mərkəzlərini təmsil edən 60-dan artıq xarici qonağın iştirak etdiyi belə bir forumda bu, əlbəttə ki, təbii idi.**

Tədbirdə Prezident İlham Əliyevə ünvanlanan çoxsaylı suallarda məhz enerji məsələlərinə, ölkəmizin regionun və Avropanın enerji təhlükəsizliyinin təminatında oynadığı mühüm rola da toxunuldu. Məlumdur ki, bu sahədə ən yaxın tərəfdaşımız qonşu və dost Gürcüstandır. Azərbaycan neftinin və qazının dünyaya yolu bu ölkənin ərazisindən keçir. Məşhur "Şahdəniz"imizdən çıxarılan qaz da ilk dəfə, yəni 2006-cı ilin sonunda Cənubi Qafqaz Boru Kəməri ilə buraya nəql edilib. Bəs Gürcüstanın Avropa İttifaqına doğru daha çox yaxınlaşması Azərbaycanla münasibətlərinə necə təsir edəcək? İki mehriban qonşu və etibarlı tərəfdaş arasında münasibətlər hər sahədə, o cümlədən enerji əməkdaşlığında olduğu kimi də qalacaq! Prezidentimiz məhz belə bəyan etdi:"Gürcüstan və Azərbaycan yaxın tərəfdaşlardır. Əlbəttə ki, bizim tərəfdaşlığımız enerji sahəsində əməkdaşlıqdan daha da genişdir. Baxmayaraq ki, bu əməkdaşlıq bizə özümüzü Avropada strateji əhəmiyyət kəsb edən güclü komanda kimi təqdim etməyə imkan verdi...Çünki siz bilirsiniz ki, Avropa bizim enerji ehtiyatlarımızın əsas istiqamətidir, istər neft, istərsə də qaz olsun. Avropa Enerji Komissiyası Azərbaycanı artıq ümumavropa qaz tədarükçüsü adlandırıb, bu doğrudur. Deməli, artıq bir çox ölkələr bizim qazımızı alır. Onların əksəriyyəti Avropa ölkələridir və digərləri da alacaq. Çünki biz indi nəinki danışıqlar prosesindəyik, həm də Avropa ölkələri arasında fiziki əlaqələr qurur və bəziləri ilə danışıqlar aparırıq, ona görə də heç nə dəyişməyəcək".

Artıq "yaşıl enerji" sahəsində də uğurlu əməkdaşlığa başlanıb. Məlumdur ki, keçən il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Ruminiya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Prezidentimizin sözləri ilə desək, bu, Gürcüstanı, Azərbaycanı, Ruminiyanı və Macarıstanı daha sıx bağlayan bir layihə olacaq.

Yeri gəlmişkən, qeyd edək ki, cari ilin fevral ayında Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində 9-cu toplantı ilə yanaşı, "Yaşıl Enerji" Məşvərət Şurasının 1-ci iclası da keçirilib. ADA-da bu günlərdə keçirilən forumda dövlətimizin başçısı enerji ilə bağlı sualları cavablandırarkən bu məsələyə də toxundu: "Avropa Komissiyası ilə biz müxtəlif sahələrdə işləyirik. Biri genişlənmə komissiyasıdır, burada çox fəal əməkdaşlığımız var, digəri isə enerji komissiyasıdır. Avropa Enerji Komissiyasının və Azərbaycanın energetika nazirinin sədrliyi ilə "Cənub qaz dəhlizi" üzrə mütəmadi olaraq Məşvərət Şurasının iclasları təşkil edilir. Növbəti görüş 2-3 aydan sonra yenidən Bakıda olacaq. Enerji qıtlığını nəzərə alaraq Avropa Komissiyasından Avropaya qaz tədarükünün artırılması ilə bağlı bizə xahiş daxil oldu. Biz mövcud qaz yataqlarının hasilatını artırmaq üçün böyük məbləğdə - demək olar ki, yüz milyonlarla, hətta milyardlarla avro vəsait ayırdıq".

Avropaya daha çox qaz tədarük etməyə kömək göstərəcək amillərdən biri də enerji səmərəliliyi və bərpaolunan mənbələrdir. Bərpaolunan enerji mənbələrinin çox olması isə o deməkdir ki, elektrik enerjisi istehsalı üçün istifadə edilən qaza bir o qədər qənaət mümkündür. Tezliklə Serbiya və Bolqarıstan arasında yeni mühüm bir qaz interkonnektoru olacaq, o, artıq hazırdır. Beləliklə, Serbiya da Azərbaycan qazını qəbul edə biləcək, Macarıstan və Ruminiya artıq Azərbaycan qazını qəbul edir. Azərbaycan tərəfindən Albaniyada maliyyələşdirilən qazlaşdırma layihəsi başa çatdıqda, bu ölkə də bizdən qaz alacaq. Avropa İttifaqının üzvü olan ölkələrdən İtaliya, Bolqarıstan, Yunanıstana isə Azərbaycan qazı artıq üç ildir ixrac edilir.

Ölkəmiz 2,6 trilyon kubmetr həcmində təbii qaz ehtiyatları, mövcud boru kəmərləri şəbəkəsi və neft yataqları sayəsində enerji təhlükəsizliyini tam təmin etdiyinə baxmayaraq, bərpaolunan enerji mənbələrinə sərmayə qoymağı da qərara alıb. Bu, böyük praktiki təsirə malik olacaq. Çünki Prezidentimizin dediyi kimi, əgər biz elektrik enerjisi istehsalı üçün təbii qaz istehlakını yalnız bərpaolunan enerji resursları hesabına 50 faiz azaltsaq, daha 2,5-3 milyard kubmetr qazı bu saat ehtiyacı olan Avropaya göndərə bilərik. Bu da hər iki tərəf üçün faydalı bir vəziyyətdir. Bunların hamısı çox müsbət amillərdir.

Qaldı ki, Avropa Parlamentinin sədri xanım Metsolanın bizim lokal xarakterli antiterror tədbirlərindən sonra səsləndirdiyi "Azərbaycanla qaz sahəsində olan münasibətlərə və qaz müqavilələrinə xitam verilməlidir" sözlərinə, Azərbaycan Prezidenti ADA-da bununla bağlı fikrini qısa və konkret izah etdi: "Yəqin o, bu işlərin necə idarə olunduğunu bilmir. Çünki tərəflərdən biri müqaviləni ləğv edərsə, o, cərimə ödəməlidir. Birincisi, o, Avropa İttifaqının enerji siyasətinə cavabdeh olanlardan soruşmalıdır ki, Rusiyadan tədarükün kəsilməsinə görə keçən il Avropa İttifaqı Azərbaycandan Avropa üçün daha çox qazla kömək göstərməsini necə xahiş edib və biz buna necə cavab verdik? Təəssüf ki, belə insanlar var. Deyərdim ki, Avropada liderlər arasında cənab Borrel, xanım Metsola kimi populist insanlar var. Mən həmişə açıq danışmağa üstünlük verirəm, çünki onların yürütdüyü siyasətlə və Azərbaycana olan münasibəti ilə tamamilə razı deyiləm. Çünki bu, ədalətli deyil və bu, Avropa İttifaqının və Avropa institutlarının maraqlarına uyğun deyil. Ancaq ümumilikdə Avropa Komissiyası haqqında danışanda bizim çox gözəl münasibətlərimiz var. Biz buna böyük əhəmiyyət veririk, onlar strateji əhəmiyyət daşıyır. Bu, təkcə enerji və neft-qaz sahəsini əhatə etmir".

Hazırda Azərbaycan Mərkəzi Asiya ölkələrinə, ilk növbədə, Qazaxıstana və Türkmənistana tranzit xidməti göstərir. Xəzərin şərq hissəsindən gələn tranzit yüklərin böyük hissəsi bu iki ölkədən, həmçinin Mərkəzi Asiyanın digər ölkələrindən, qismən də Çindən gəlir. Uzun illərdir Türkmənistan nefti Azərbaycana məxsus tankerlərlə nəql edilərək Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinə qoşulur. Bu ildən Qazaxıstan neftinin də nəqlinə başlanıb. Az həcmdə olsa da, yəni 1,5 milyon ton neftin daşınması üzrə müqavilə imzalanıb. Bu da Azərbaycana gətirilərək BTC kəmərinə vurulur. Dövlətimizin başçısı bunun çox yaxşı bir layihə olduğunu qeyd etdi: "Həm də ona görə ki, BTC-nin əvvəlkindən daha böyük həcmdə doldurulmasına imkan verir. Xəzəryanı tərəfdaşlarımız üçün bu, həmçinin tədarük marşrutlarını şaxələndirmək imkanı yaradır ki, bu da tamamilə anlaşılandır".

"Neft və qaz layihələri tamamlananda, indi artıq nəhəng "yaşıl hidrogen" və "yaşıl enerji" layihələrinə start verildikdə, Avropaya nəqletmə və ixrac imkanları, həmçinin Mərkəzi Asiya ilə potensial bağlantı imkanı nəzərə alınmalıdır. Çünki Mərkəzi Asiya ölkələrində "yaşıl enerji"ni istehsal etmək üçün çoxsaylı investisiya layihələri mövcuddur. Biz hətta Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilişi haqqında düşünürük", - deyə Prezidentimiz sözügedən tədbirdə belə bir layihə haqqında da məlumat verdi: "Bununla yanaşı, Xəzər dənizinin dibi ilə Avropaya gedəcək fiber-optik xətt də çəkiləcək. Azərbaycanın coğrafiyası böyük bir imkandır. Lakin bu coğrafiyada infrastruktur olmayanda bu, sadəcə, xəritə üzərində bir yerdir. Beləliklə, biz onu doldurmalıyıq və biz ixtiraçılar tərəfindən yaradılan prosesləri qabaqlamalıyıq. İndi ola bilsin Azərbaycanı çox müasir texnoloji innovasiyaları yaradan ölkə kimi təsəvvür etmək real görünmür. Lakin zaman gələcək və biz bunu edəcəyik".

İlham Əliyev belə deyibsə, heç şübhəsiz ki , biz bu layihəni də gerçəyə çevirəcəyik! Həyat belə göstərir, zaman belə göstərir, Prezidentinin, xalqının iradə və təcrübəsi ilə Azərbaycanın indiyədək gördüyü misilsiz işlər bundan xəbər verir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Pirallahı Sənaye Parkında yeni zavodun təməli qoyulub

**Pirallahı Sənaye Parkında "Gen Pharma Caucasus Manufacturing Operations" MMC-nin dərman vasitələrinin istehsalı müəssisəsinin təməlqoyma mərasimi keçirilib.**

Tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı, "Gen Pharma Caucasus Manufacturing Operations" şirkətinin rəhbəri Abidin Gülmüş, eləcə də rəsmi şəxslər iştirak ediblər.

Təməlqoyma mərasimində diqqətə çatdırılıb ki, ölkəmizdə müasir, yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli məhsullar istehsal edən sənaye zonaları fəaliyyət göstərir ki, bu da aparılan sənayeləşmə siyasətinə uyğun olaraq qeyri-neft iqtisadiyyatının inkişafına xidmət edir. Bildirilib ki, 2023-cü il iyulun 31-də Azərbaycan İnvestisiya Şirkəti, Türkiyənin "GEN İlaç ve Sağlık Ürünleri Sanayi ve Ticaret A.Ş" şirkəti və "SİA Pharmaceutical" MMC arasında Pirallahı Sənaye Parkında əczaçılıq zavodunun yaradılması üzrə Tərəfdaşlıq və Birgə İştirak Müqaviləsi imzalanıb. Sənədə əsasən, görülən işlər nəticəsində bu gün "Gen Pharma Caucasus Manufacturing Operations" MMC tərəfindən Pirallahı Sənaye Parkının 7,8 hektar ərazisində dərman istehsalı zavodunun təməli qoyulub.

Müəssisədə Türkiyənin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksəkkeyfiyyətli 42 adda müxtəlif doza və qablaşdırmada dərman məhsulları istehsal olunacaq. İnşa ediləcək zavodun investisiya dəyəri 59,3 milyon manatdır. Müəssisədə 165 nəfər daimi işlə təmin ediləcək. Zavodun fəaliyyətə başlamasından sonra ölkədə bir sıra əczaçılıq məhsullarına tələbat yerli istehsal hesabına ödəniləcək, idxaldan asılılıq azaldılacaq.

İllik istehsal gücü 50 milyon qutu nəzərdə tutulan zavodda istehsal edilən məhsulların daxili bazara satılması ilə yanaşı, "Made in Azerbaijan" brendi ilə region ölkələrinə də ixracı planlaşdırılır.

Qeyd edək ki, dövlət başçısının müvafiq sərəncamı ilə 2016-cı ildə yaradılmış Pirallahı Sənaye Parkının fəaliyyəti əczaçılıq sənayesinin inkişafına, əhalinin dərman vasitələrinə olan tələbatının ödənilməsinə, istehsalın lokallaşdırılmasına və məşğulluğun təşviqinə töhfə verir. Parkda ümumi investisiyalarının həcmi təqribən 115 milyon manatdan çox 6 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 37 milyon manata yaxın investisiya yatırılıb, 120-dən çox daimi iş yeri yaradılıb. Artıq qeydiyyata alınmış 6 rezidentdən 2-si fəaliyyət göstərir.

# Azərbaycan "yaşıl keçid" platformasının fəal üzvüdür

## 2027-ciilədək 2 QVt həcmində "yaşıl güc"lər enerji sistemimizə inteqrasiya olunacaq və bununla 2030-cu il üçün 30 faizlik hədəfə çatacağıq

**Dubayda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası (COP 28) işini davam etdirir. Azərbaycan COP 28-də böyük nümayəndə heyəti ilə təmsil olunur ki, bu da ölkəmizə ekoloji cəhətdən təmiz və enerjiyə qənaət edən "yaşıl texnologiya"lardan istifadə perspektivlərini müzakirə etmək imkanı yaradır.**

Azərbaycan ilk dəfə belə sərgidə ayrıca pavilyonla təmsil olunur. 254 kvadratmetr sahədə quraşdırılan pavilyonda müxtəlif yerli, regional və beynəlxalq təşkilatlarla birgə tədbirlər və seminarlar keçirilir. Eyni zamanda burada ölkəmizin iqlim dəyişikliyi ilə mübarizə və onun təsirinin azaldılması istiqamətində gördüyü işləri əks etdirən virtual eksponatlar nümayiş olunur. Yeri gəlmişkən, qeyd edək ki, Prezident İlham Əliyevin COP 28-də iştirakı tədbirin ölkəmiz üçün mühüm əhəmiyyətindən xəbər verir.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının tərəflər konfransı 1995-ci ildən etibarən hər il keçirilir. Konfransın əsas məqsədi dünya ölkələrinin iqlim dəyişikliyi ilə mübarizə sahəsində həyata keçirdikləri tədbirləri qiymətləndirməkdir. 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına qoşulan Azərbaycan qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulub. 2015-ci ildə qəbul edilən və iqlim dəyişikliyi ilə mübarizədə ən mühüm beynəlxalq sənəd hesab olunan Paris sazişini 2016-cı ildə ratifikasiya edən ölkəmiz "yaşıl keçid" platformasının fəal üzvüdür.

Bu mühüm beynəlxalq platformada ötən bir həftə ərzində çoxlu sayda məsələ müzakirə olunub, tədbirlər keçirilib. Azərbaycan nümayəndə heyətinin keçirdiyi tədbirlərdə müzakirə olunan məsələlər "yaşıl enerji" istehsal etmək üçün ölkəmizdə hərtərəfli imkanların mövcudluğundan bəhs edib. Energetika naziri Pərviz Şahbazovun BƏƏ-nin "Masdar" şirkətinin icraçı direktoru Məhəmməd Cəmil Əl Rəmahi ilə görüşündə Azərbaycanın "yaşıl enerji"nin inkişafı və karbon emissiyalarının azaldılması hədəflərinə çatmaq üçün adıçəkilən şirkətlə 10 QVt-lıq bərpaolunan enerji layihələri üzrə əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Söhbət zamanı şirkətlə ilkin mərhələdə quruda və dənizdə 4 QVt "yaşıl enerji" layihələrinin icrası, bu çərçivədə ümumi gücü 1 QVt olan günəş və külək-elektrik stansiyaları üzrə oktyabrda imzalanmış investisiya müqavilələrindən irəli gələn məsələlər ətrafında fikir mübadiləsi də aparılıb. Bildirilib ki, hazırda quruda və dənizdə bərpaolunan enerji mənbələrinin sahələrinin müəyyən edilməsi və müvafiq qurumlarla razılaşdırılması prosesi həyata keçirilir. "Yaşıl hidrogen" və "yaşıl ammonyak"la bağlı bazar araşdırmaları isə davam edir.

Nazir Pakistanın keçid hökumətinin energetika və neft naziri Məhəmməd Əli, Ruminiya Parlamentinin ətraf mühit və ekoloji tarazlıq komissiyasının prezidenti Virgil-Daniel Popesku, Danimarkanın "Vestas" şirkətinin vitse-prezidenti Morten Dyrholmla keçirdiyi görüşlərdə isə enerji tərəfdaşlığı çərçivəsində Azərbaycanın "yaşıl enerji" kursu və külək turbinlərinin istehsalı üzrə əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

COP 28 platformasında "Azərbaycanda bərpa olunan enerji investisiyaları üçün imkanlar" mövzusunda keçirilən digər bir tədbirdə çıxış edən P.Şahbazov dayanıqlı, təhlükəsiz enerji güclərinin yaradılmasında, "yaşıl gələcəy"in qurulmasına milli səviyyələrdə mühüm töhfələrin verilməsində beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığın müstəsna rol oynadığını və Azərbaycanın artıq 7 beynəlxalq şirkətlə "yaşıl enerji" tərəfdaşlığına başladığını qeyd edib. Bildirib ki, Prezident İlham Əliyevin bərpaolunan enerjinin xarici investisiya hesabına inkişafını, azad edilmiş ərazilərin "boz zona"dan "yaşıl enerji" zonasına,




Xəzərin "yaşıl enerji"nin istehsal və ixracının mərkəzinə çevrilməsini prioritet sayan siyasəti "yaşıl sərmayə" axınına yol açır: "Oktyabrda ilk xarici sərmayə əsaslı və MDB, Xəzər regionunun ən böyük günəş-elektrik stansiyasını "Masdar" şirkəti ilə istifadəyə verdik. 2027-ci ilədək 230 MVt-lıq bu stansiyadan əlavə "Masdar", "ACWA Power", bp, "China Gezhouba", "Nobel Energy" və "Baltech" tərəfindən 1,6 QVt-dan çox gücdə 8 günəş və külək-elektrik stansiyası inşa olunacaq. 2030-cu ilədək daxili istehlak, iqtisadiyyatın dekarbonizasiyası və ixrac məqsədilə quruda və dənizdə 8 QVt-dan çox "yaşıl enerji" layihələri məhz xarici investisiya hesabına reallaşdırılacaq. Həmçinin 2031-2037-ci illərdə "yaşıl enerji", hidrogen, "yaşıl ammonyak"ın istehsalı və ixracı məqsədilə təxminən 19 QVt həcmində güclərin də yaradılmasını beynəlxalq enerji şirkətləri ilə planlaşdırırıq".

Tədbirdə ilkin mərhələdə "yaşıl enerji"nin 4 QVt-nın "Xəzər-Qara dəniz-Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi" və 1 QVt-dan çoxunun isə Azərbaycan-Türkiyə-Avropa marşrutu ilə ixracı üzrə intensiv işlərin aparılmasından da danışılıb. Şirkətlər üçün külək turbinləri, günəş panellərinin yerli istehsalının qurulması, enerji saxlama sistemlərinin yaradılması, həmçinin enerjinin səmərəli paylanması üçün qabaqcıl şəbəkə texnologiyalarından istifadə etməklə şəbəkənin gücləndirilməsi, "yaşıl hidrogen"in istehsalı, saxlanması və nəqli, eləcə də karbon emissiyalarının tutulması və saxlanması, elektrik doldurma infrastrukturu sahələrində əməkdaşlıq imkanları diqqətə çatdırılıb. Qeyd edək ki, Azərbaycan pavilyonunda baş tutan tədbirdə 17 enerji şirkəti və təşkilat təmsil olunub.

Energetika Nazirliyindən verilən xəbərdə deyilir ki, P.Şahbazov COP 28-ə sədrlik edən Birləşmiş Ərəb Əmirliklərinin və Avropa İttifaqının təşkilatçılığı ilə keçirilən "Bərpa olunan enerji və Enerji səmərəliliyi Nazirləri"nin "dəyirmi masa"sında iştirak edib. 35 ölkə, 13 şirkət və təşkilatın təmsil olunduğu bu tədbirdə P.Şahbazov vurğulayıb ki, Azərbaycan Xəzər dənizinin 157 QVt-lıq külək enerjisi potensialı və növbəti 10 ildə reallaşdıracağı 10 QVt "yaşıl enerji" layihələri, "yaşıl enerji dəhlizi", həmçinin Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanı "yaşıl enerji" zonalarına çevirməsi, enerji səmərəliliyi sahəsində islahat tədbirləri ilə bu qlobal təşəbbüsə əhəmiyyətli töhfələr verəcək. "2027-ci ilədək 2 QVt həcmində "yaşıl güc"lərin enerji sistemimizə inteqrasiyası bərpaolunan enerjinin payını 33 faizə yüksəldəcək. Nəticədə 2030-cu ilə 30 faizlik hədəfimizi daha erkən və artıqlaması ilə yerinə yetirə biləcəyik. Azərbaycanın bərpaolunan enerjisi həm də avropalı tərəfdaşların enerji təchizatını şaxələndirəcək. Hesab edirəm ki, Xəzər regionu Avropanın enerji keçidinin əsas mərkəzlərindən birinə çevrilir", - deyə nazir bildirib.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Qarabağ Azərbaycandır!

## Qarabağ Universitetinin yaradılması "Heydər Əliyev İli"nə ən yaxşı töhfədir




**Bu gün Qarabağda və Şərqi Zəngəzurda böyük quruculuq və bərpa işləri aparılır. Dövlət başçısı bu işlərin daha da sürətləndirilməsi, yeni struktur və müəssisələrin yaradılması ilə bağlı müvafiq sərəncamlar imzalayır, göstərişlər verir.**


Səriyyə Müslümqızı

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev bu il noyabrın 28-də Qarabağ Universitetinin yaradılması haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, əvvəlki illər Xankəndi şəhərində fəaliyyət göstərmiş ali təhsil müəssisəsinin əsasında Qarabağ Universiteti yaradılır. Xatırladaq ki, Qarabağda ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulub. Filial 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərib.

Qarabağ Universitetinin yaradılmasını ölkə vətəndaşları çox böyük sevgi ilə qarşıladı. Həmsöhbət olduğumuz Xocalı şəhər sakini Səriyyə Müslümqızı deyir ki, o, 1978-1982-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xankəndi şəhərindəki filialında təhsil alıb.

- 1978-ci ildə orta təhsilimi başa vurandan sonra Xankəndidə yerləşən Pedaqoji İnstituta üz tutdum. Ali təhsil ocağının Fizika-riyaziyyat fakültəsinə qəbul oldum. Hələ sovet hökuməti dövrundə biz azərbaycanlı tələbələr hər addımda ermənilərin nifrətini öz üzərimizdə hiss edirdik. Düzdür, qorxularından bu nifrəti açıq-aydın biruzə vermirdilər. Bütün işlərini gizlincə, pərdə arxasında görürdülər. İnstitutun böyük foyesində hamının baxması üçün televizor qoyulmuşdu. Həmin günlər televiziyalarda yalnız Moskvanın və Azərbaycanın verilişləri yayımlanırdı. Ermənilər bizə Azərbaycan televiziyasının poqramlarına baxmağa imkan vermirdilər. Biz kanalı Azərbaycan televiziyasının üstünə kökləyəndə, erməni tələbələr onu Moskva televiziyasına çevirirdilər. Biz bu münasibəti təkcə tələbələrdə deyil, erməni müəllimlərində də görürdük. 1982-ci ildə ali təhsilimi başa vurub riyaziyyat müəllimi kimi Xocalıya - bir vaxtlar oxuduğum orta məktəbə qayıtdım. 10 ildən sonra - 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni işğalçıları faciəli surətdə bizi dogma ocaqlarımızdan qovdular. Möcüzə nəticəsində sağ qaldım. 31 il Xocalının həsrətini çəkə-çəkə yaşadıq. Çox şükürlər olsun ki, Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı erməni işğalçılarından azad etdi. Xocalının azad olunmasını eşidəndə elə bil dünyanı mənə verdilər. Aman Allah, deməli, qismətimizdə Xocalıya dönüşümüzün xoşbəxtliyini yaşamaq da var imiş. O qədər həyəcanlıyam ki, sevincimi sözlərlə ifadə etməyə çətinlik çəkirəm. Yaşadığım bu sevinc və xoşbəxtlik dolu anlara görə Ali Baş Komandana və Azərbaycan əsgərinə minnətdaram. Ordumuzun 8 noyabr 2023-cü ildə Xankəndidə keçirdiyi hərbi paradı böyük sevinclə izlədim. Nə yaxşı ki, çoxdan arzusunda olduğumuz günləri gördük. Azərbaycan Ordusu arzularımızı gerçəkləşdirdi. Sözün həqiqi mənasında zabit və əsgərlərimiz fəxr edilən tarix yazdılar. Prezident İlham Əliyevin sərəncamı ilə Qarabağ Universitetinin yaradılması xəbərini də böyük sevinc hissi ilə qarşıladıq. Deməli, yaxın zamanlarda bir vaxtlar mənim də oxuduğum təhsil ocağına yeni həyat, yeni nəfəs gələcək. İnanırıq ki, Xankəndidə müstəqil ali təhsil müəssisəsinin yaradılması Qarabağın gələcək inkişafına böyük təkan verəcək.


Emeliya Əliyeva

Digər müsahibim əvvəl Xankədidəki Pedaqoji İnstitutun məzunu olmuş, hazırda Şuşa rayonu Xankəndi şəhər Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbdə ibtidai sinif müəllimi işləyən Emeliya Əliyeva söhbətimizə qoşuldu.

- Ağdam rayonunun Əfətli kəndində dünyaya göz açmışam. 1976-1980-ci illərdə Xankəndi Pedaqoji İnstitutunda təhsil almışam. Sonra da Xankəndidə yaşamışam. Tələbəlik illəri ömrümüzün xatirələrlə dolu olan ən unudulmaz çağlarıdır. Ömrümün dörd ili bu ali təhsil ocağında keçib. Yaxşı xatırlayıram ki, hələ o vaxtlar ermənilər bizimlə yola getmirdilər. Hər addımda azərbaycanlı tələbələri sıxışdırmağa çalışırdılar. Üzdə edə bilmədiklərini şərait yarananda gizlində edirdilər. Təkcə tələbələr deyil, erməni müəllimlər də azərbaycanlıları sevmirdilər. Onlar bizə nifrətlə baxırdılar. Amma biz onların gizlin əməllərini ara-sıra ifşa edir, bacardığımız qədər müqavimət göstərirdik. Məlum hadisələrlə bağlı olaraq Pedaqoji İnstitut 1988-ci ildə fəaliyyətini dayandırdı. Bir müddət Gəncədə, Şuşada və Ağcabədidə fəaliyyət göstərməyə başladı. Təkcə insanlar deyil, təhsil aldığım Xankəndi Pedaqoji İnstitutu da 35 ildir ki, Ağcabədidə qaçqınlıq həyatı yaşayır. Hər bir Xankəndi sakininin arzusu dogma ocağına qayıtmaq idi. İllərdən bəri həsrətlə, intizarla o xoşbəxt günü gözləyirdik. Çox şükürlər olsun ki, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Qarabağı, həmçinin başqa şəhər və rayonlarımızı erməni işğalçılarından azad etdi. Azərbaycan müasir tarixinin ən möhtəşəm günlərini yaşayır. 8 noyabr 2023-cü ildə uzun illərdən bəri həsrətini çəkdiyimiz Xankəndi şəhərində hərbi parad keçirildi. Zəfərimizin 3 illiyinə həsr olunmuş hərbi paradı sevinc dolu göz yaşları ilə izlədik. Ali Baş Komandanın çıxışını böyük məmnunluqla dinlədik. Prezident İlham Əliyevin sərəncamı ilə Qarabağ Universitetinin yaradılmasını isə hamımız sevinclə qarşıladıq. Bu münasibətlə mən bütün Azərbaycan xalqını, Xankəndi sakinlərini, Pedaqoji İnstitutun məzunlarını təbrik edirəm. İnanırıq ki, Qarabağ Universiteti təhsilimizin inkişafında mühüm rol oynayacaq. Qarabağ Universitetinin yaradılmasına, ümumiyyətlə, Azərbaycan təhsilinə göstərdiyi diqqət və qayğıya görə bütün həmkarlarım adından Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Xankəndidə Qarabağ Universitetinin yaradılması "Heydər Əliyev İli"nə çox mühüm bir töhfədir. Əminlik hissi ilə deyə bilərik ki, yeni tədris ilindən məzunlarını qəbul edəcək Qarabağ Universiteti ölkəmiz üçün ixtisaslı, peşəkar kadrlar hazırlayacaq, türk dünyasının ən qabaqcıl təhsil ocaqlarından biri olacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Klassik dünyamız

## O, bir həyat şairi idi



**Mirzə Şəfi Vazeh XIX əsrin ortalarında ədəbi əlaqələrin o qədər də inkişaf etmədiyi çağlarda sözü ilə Azərbaycanın hüdudlarından çox-çox kənarda tanınan az sayda şəxsiyyətlərimizdəndir. Lirik-fəlsəfi şeirləri Qərbi Avropada, Rusiyada çox böyük şöhrət qazanmışdı. Xəyyamanə üslubunda yazdığı şeirlər vətəndən uzaqlarda rəğbətlə qarşılanır, Mirzə Şəfini ondan neçə əsr əvvəl yaşayıb-yaratmış Şərq klassikləri ilə eyni səviyyəyə yüksəldirdi.**

Mirzə Şəfi Vazeh 1794-cü ildə Gəncədə dünyaya gəlmişdi. Atası Kərbəlayi Sadıq bənna idi. Gələcəyin böyük şairi atasını çox erkən itirmişdi. Həmin vaxt Gəncədə yaşayan Hacı Abdulla adlı imkanlı bir şəxs Mirzə Şəfini himayəsinə götürür. Bu xeyirxahlığın onun şəxsiyyət kimi formalaşmasında da çox böyük rolu olur. Şəfinin düşüncələrindəki kəskin dəyişikliklər özünü açıq şəkildə biruzə verməkdə idi. Bunu duyan və yetərincə sərt qarşılayan Gəncə ruhaniləri artıq ona dərs verməkdən imtina edirlər. Gənc Şəfi mədrəsəni tərk etməli olur. Amma o, mədrəsədə fars dilini mükəmməl, ərəb dilini isə müəyyən səviyyədə öyrənmişdi, şəriət biliklərinə yiyələnmişdi.

### Müəllim, xəttat, şair

XIX əsrin 30-cu illərində Mirzə Şəfi Vazeh Gəncədə müəllim, xəttat və şair kimi tanınmağa başlayır. 1840-cı ildə isə Gəncəni tərk edərək Tiflisdə məskunlaşır. Onda Mirzə Fətəli Axundzadə artıq xeyli müddət idi ki, bu şəhərdə yaşayıb çalışırdı. Onun köməyi ilə Vazeh Tiflis qəza məktəbində Azərbaycan və fars dilləri müəllimi vəzifəsinə düzəlir. 1846-cı ilə qədər bu şəhərdə yaşayır.

Tiflisin ozamankı qaynar mühiti Mirzə Şəfi Vazehin yaradıcılığında çox mühüm rol oynayır. Burada yaşadığı 6 il ərzində o, dövrünün qabaqcıl ziyalıları ilə tanış olur. A.A.Bakıxanov, M.F.Axundzadə və başqa tanınmış maarifçilərlə tez-tez görüşüb ünsiyyət qurur, ədəbi-ictimai müzakirələrdə iştirak edir. 1844-cü ildə o, Tiflisdə hətta "Divani-hikmət" ("Müdriklik dərnəyi") adlı ədəbi məclis də təşkil etmişdi. Bu, əslində, ədəbi-fəlsəfi məclis idi. Mirzə Şəfinin Tiflisdəki şagirdləri arasında Azərbaycan və fars dillərinə, Şərq dünyasına maraq göstərən əcnəbilər də vardı və onlar "Divani-hikmət" məclislərində həvəslə iştirak edərdilər. Onlardan biri alman şairi Fridrix Bodenştedt idi.

1850-ci ilin yanvarında onun həyatında yenidən Tiflis dövrü başlanır. Vazeh Tiflisdəki zadəganlar gimnaziyasına Azərbaycan dili müəllimi vəzifəsinə təyin olunur və ömrünün sonuna qədər bu vəzifədə çalışır. Həmin dövr Azərbaycan dili dərsliyinə çox böyük ehtiyac vardı. Mirzə Şəfi bunu nəzərə alaraq ölümündən bir az əvvəl Tiflis gimnaziyasının fars dili müəllimi İ.Qriqoryevlə birlikdə müntəxəbat tərtib etmək qərarına gəlir. Onlar 1852-ci ilin aprelində "Kitabi-türki" adlı belə bir dərsliyin tərtibini tamamlayırlar. Müntəxəbatda Azərbaycan, ərəb və fars ədəbiyyatından hikmətli sözlər, lətifə və məzhəkələr, tərbiyəvi təmsillər, hekayələr, eləcə də Füzulidən seçmə lirik şeirlər, qəzəl və qəsidələr, "Leyli və Məcnun" poemasından müəyyən parçalar toplanır. Burada Şərq tarixi, "Qarabağnamə" və "Dərbəndnamə"dən parçalar da verilir. Dərsliyin əlyazmasını Mirzə Şəfi özü nəsx, nəstəliq, şikəstə-nəstəliq və şikəstə xətti ilə yazmışdı.

Mirzə Şəfi Vazeh 1852-ci il noyabrın 28-də Tiflisdə vəfat edir, şəhərdəki müsəlman qəbiristanlığında dəfn olunur.

### Dünyanı dolaşan şərqilər

Mirzə Şəfi Vazehin Azərbaycan və fars dillərində yazdığı şeirlərin əlyazmalarını F.Bodenştedt ondan alaraq Almaniyaya apardığından bu şeirlərin orijinalları əlimizdə yoxdur. O, Tiflisdə olarkən Mirzə Şəfinin şeirlərini toplayır və 1846-cı ildə onları Almaniyaya aparır. Burada həmin şeirləri alman dilinə çevirərək dərc etdirir.

Mirzə Şəfinin şeirləri 1851-ci ildə Berlində kiçik bir kitabça şəklində buraxılır. Alman dilində çapdan çıxan kitabça "Mirzə Şəfinin şərqiləri" adı ilə təqdim olunur və qısa müddətdə çox sürətlə yayılıb müəllifinə böyük şöhrət qazandırır. Az sonra Vazehin əsərləri başqa ölkələrin də sərhədlərini adlayır. Ümumən Qərbi Avropada geniş yayılıb rəğbətlə qarşılanır. Alman dilindən başqa, ingilis, fransız, italyan, İsveç, holland, Norveç, Danimarka, polyak, çex, hətta qədim yəhudi dilinə də tərcümə olunub nəşr edilir.

F.Bodenştedt Mirzə Şəfi Vazehin dünyada tanınmasında böyük rol oynasa da, əfsuslar olsun ki, sonrakı davranışları ilə öz nəcib işinə kölgə salır. Belə ki, o "Şərqilər"in Qərbi Avropa və Rusiyadakı gözlənilməz şöhrətinə şahid olandan sonra 1873-cü ildən özünü həmin şeirlərin müəllifi kimi qələmə verməyə başlayır. Buna baxmayaraq, bir neçə vaxtdan sonra tədqiqatlarda "Şərqilər"in əsl müəllifinin Mirzə Şəfi Vazeh olduğu öz təsdiqini tapır.

### Sevgi və reallıq şairi

Vazeh şeirinin əsas məzmunu saf, təmiz məhəbbətin tərənnümündən ibarətdir. Şair eşqi və gözəli hər şeydən uca tutur. İnsanlara eşqdən başqa yolla getməməyi təlqin edir. Bu baxımdan Mirzə Şəfinin "Süsəni" rədifli müxəmməsi, eləcə də farsca nəzm və nəsrlə yazılmış aşiqanə məktubu çox maraqlıdır. Bu əsərləri ilə Vazeh müəyyən qədər də sələfi Vaqifi xatırladır. Farsca qəzəllərindən bəzilərində onun mücərrədliyə qapılıb vəhdəti-vücud şairlərinə bənzədiyini də görürük. Amma Vazehdə bu hal keçicidir. Mirzə Şəfi bu şairlərdən fərqli olaraq şərabı və gözəli ilahi məhəbbətin rəmzi kimi deyil, həqiqi mənada görür, onları dünya nemətləri kimi qəbul edir. O, klassik şeirin ən yaxşı ənənələrini davam etdirərək mücərrəd, platonik məhəbbəti deyil, həyatla bağlı olan həqiqi sevgini tərənnüm edir.

Şeirlərində Mirzə Şəfi tam bir həyat şairidir. Qəlbi sevgi və sevinc hissi ilə doludur. Özü ilə bərabər, bütün təbiəti, kainatı şad-xürrəm, sevgiyə aludə görür. "Təbiətdəki bütün gözəlliklər, xoş nəsim, rayihəli çiçəklər, ulduzlar, ağacların pıçıltısı sanki bizim sevgimizi şirinləşdirmək üçün yaranmışdır". Bu duyğular həyat dolu şairin ruh halını büsbütün təsvir edir.

Onun dünyəvi nemətləri tərənnüm edən bütün şeirlərində nikbin ruh hakimdir. Bu şeirlərində Mirzə Şəfi oxucularını həyatı toz basmış kitablardan deyil, təbiətdən, saf dağ bulaqlarından, meşələrdən, qızılgülün ətrindən, bülbülün xoş avazından öyrənməyə səsləyir.

Dini ehkam, mövhumatçı ruhanilər, mütləqiyyət əleyhinə yazdığı satiralar da Mirzə Şəfinin yaradıcılığında xüsusi yer tutur. Satiralarında o, şeytan, cənnət, cəhənnəm kimi məfhumları rədd edir, bir maarifçi kimi dini xurafata və cəhalətə qarşı çıxır. Vazehin satiralarında həyata aydın, ayıq, realist münasibət var. Böyük mütəfəkkir ictimai eyiblərə fəal tənqidi münasibət bəsləyir, məhəbbəti aşırı dini ehkamlara qarşı qoyaraq mövhumatın mənəvi əsarətinə etiraz edir. Hələ erkən yaşlarından azadlığın dəyərini anlayan, özünü bütün ehkamlardan xali görmək istəyən, buna can atan şair azadlığı sərv ağacına bənzədir. Onun budaqları yerə əyilmir, göyə qalxır, onun nəzərləri də yüksəklərə dirənmişdir. Mirzə Şəfinin "Sədi və Şah", "Teymur", "Dərviş", "Şah Abbas" və s. bu kimi süjetli şeirləri, mənzum hekayələri demokratik məzmunu ilə fərqlənir, bu əsərlərdə xəlqilik ruhu aşkar nəzərə çarpır.

Özünü Hafizin şagirdi adlandıran Mirzə Şəfi klassik şeirdəki mənzum hekayəçiliyi də davam etdirir, bu mənada onun yaradıcılığı müasirlərindən A.A.Bakıxanovla ahəng yaradır.

Sovet dövründə aparılan tədqiqatlar nəticəsində Mirzə Şəfi Vazehin azərbaycanca və farsca şeirlərindən bir neçəsi tapılıb üzə çıxarılmışdır. Böyük şairin yaradıcılıq irsinin çox məhdud bir hissəsini ilk dəfə görkəmli ədəbiyyatşünas Salman Mümtaz üzə çıxarmış və 1926-cı ildə "Mirzə Şəfi Vazeh" adı altında nəşr etdirmişdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Ovqat

## Hərbi marşların tarixdən gələn səsi

**Musiqinin insana güc verməsi, damarlarında axan qanı coşdurub düşmən üzərinə aparması, qələbəyə ruhlandırması yaxın keçmişimizin söhbəti deyil. Tarixin saralmış səhifələrini vərəqlədikcə görürük ki, ötən əsrlərdə döyüş sirlərinə az-çox vaqif olan sərkərdələr də əsgərlərini düşmən üzərinə vətənpərvərlik mahnılarının sədaları altında göndərirmişlər.**



Əgər bu hərbi marş və mahnılar daim döyüşçülərin qanlarını coşdurub qəlblərini riqqətə gətirməsəydi, babalarımız onları yaratmazdılar, qanlı savaşlardan əvvəl insana güc verən marşları səsləndirməzdilər. Deməli, müharibənin hər üzünü görmüş təcrübəli sərkərdələr hərbi marşlara əsgərlərinə cəsarət və igidlik aşılayan, qələbəni təmin edən vacib mənəvi amillərdən biri kimi baxmışlar. Buna görə də döyüş ərəfəsində yeri-göyü yerindən oynadan marş və mahnıları səsləndirərək, əsgərlərini qələbəyə ruhlandırmışdılar.

Böyük maraqla tamaşa etdiyimiz tarixi filmlərdə biz belə səhnələri çox seyr etmişik: döyüş zamanı musiqi ilə silah qoşa qanad kimi birləşəndə düşmən daha asan məhv edilir, uğur tez qazanılır. Qəlbləri riqqətə gətirən marş sədaları yağı üzərinə gedən əsgərləri uğurlara səsləyir, zəfərlərə qovuşdurur. Musiqi sədalarından güc alan döyüşçülər doğma yurdu azad edərək xalqına qələbə sevinci yaşadırlar.

Tez-tez dinlədiyimiz marş və mahnılar qəlbimizə açılan sirli-sehirli qapıya bənzəyir. Tarixin pozulmayan, daim parlaq qalan aynası göstərir ki, ərənlərimiz hərbi marş və mahnıların gücünü, onun əsgərə ruh verib qələbəyə kökləyən ritmini çox gözəl duyublar, onun məğlubedilməzliyini dərindən hiss ediblər. Musiqi ritmlərində gizlənən gücün incəliklərini aşkarlayıb, onun sirlərlə dolu möcüzəli qapısına elə möcüzəli də açar tapıblar. Buna görə də qələbəni itkisiz və asan qazanıblar.

Böyük Nizami Gəncəvi "İsgəndərnamə" poemasında döyüşlərdən əvvəl əsgərləri vəcdə gətirən mahnı və marşların ifa edilməsini böyük məharətlə təsvir edir. Dahi ustadın əsərlərində də mahnı və marşların əsgərlərə necə güclü təsir göstərdiyini aydın görürük. Şeypurlardan çıxan səsləri aslan nərəsinə bənzədən böyük Nizami yazır:

***Şeypurlar qoparır aslan nərəsi,***
***Dimağı doyurur neyin nəfəsi.***
***Türk nayı qopardı elə bir şivən,***
***İgidlər coşaraq qopdu yerindən.***

Əsərin yazıldığı zamandan səkkiz əsrdən çox vaxt keçməsinə baxmayaraq, təkcə hərbi marş və mahnılar deyil, elə bu misralar da oxucu qəlbini riqqətə gətirir. Çünki musiqi ilə bərabər, elə bu misralar da vətənin müdafiəsində dayanan əsgərləri qalibiyyətə səsləyir. Ta qədimlərdən həmişə belə olub: dahiyanə şəkildə yazılmış sözlər, bəstələnmiş musiqilər təravətini, məna çalarlarını, hikmət yükünü heç vaxt itirməyib.

Zamanlara qalib gələn dəyərli fikirlər, musiqilər yenə də dünəndən-bugünümüzə boylanmaqdadır.

Ölməz şairin yazdığı bu misraları oxuduqca gözlərimiz önündə qanlı döyüşlər, geniş çöllərdə üz-üzə dayanmış qoşunlar və bu gün muzeylərdə gördüyümüz oxla, qılıncla, əmudla, nizə ilə silahlanmış əsgərlər canlanır. Səkkiz əsr əvvəl yazılmış böyük əsərdən nümunə gətirdiyimiz kiçik parçalar bu gün yenə də bizə güc-qüvvət verib düşmən üzərində zəfərə ruhlandırır. Döyüşdən əvvəl musiqi dinləyən əsgər yalnız qələbə barədə düşünür, nəyin bahasına olursa-olsun yağıları məhv edib uğur qazanmağa çalışır.

Dəfələrlə şahidi olmuşuq ki, mahnı və marşları dinləyən əsgərlərin baxışından cəsarət yağır, qəhrəmanlıq süzülür. Bu anlarda onlar özlərini həm fiziki, həm də mənəvi cəhətdən güclü və yenilməz hiss edirlər. Bax, budur hərbi marş və mahnıların yenilməz gücü, insan qəlbindəki qüdrət və təntənəsi! Musiqi döyüşçülərə güc verərək onları uğurlara səsləyir, düşmən üzərinə daha da cəsarətlə şığımağa həvəsləndirir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinin davam etdiyi günlərdə, Qarabağın azadlığı uğrunda döyüşlərin səngimədiyi çağlarda da sözlə musiqi birləşərək əsgərlərimizə mənəvi güc verirdi, qələbəmizi, zəfərimizi yaxınlaşdırırdı. İkinci Qarabağ müharibəsində ön xətdə olarkən Xalq artisti Nurəddin Mehdixanlının hərbi marş və mahnıların müşayiəti, qəlbləri riqqətə gətirən səsi ilə oxuduğu şeirlər zabit və əsgərlərimizin döyüş ovqatını artırırdı. Həm hərbi marş və mahnılardan, həm də ürəklərində cövlan edən vətənpərvərlik hisslərindən güc alan döyüşçülərimiz Vətən müharibəsində erməni qəsbkarları üzərində zəfər çalaraq 30 ilə yaxın davam edən işğala son qoydular.

*Vahid MƏMMƏDQULUOĞLU,*
*"Azərbaycan"*

● Xəbər

## Azərbaycanın ilk qadın pianoçusu Xədicə Qayıbovanın 130 illiyinə həsr olunmuş tədbir keçirilib

**Musiqi Mədəniyyəti Dövlət Muzeyində Azərbaycanın ilk qadın pianoçusu Xədicə Qayıbovanın 130 illiyinə həsr olunmuş tədbir təşkil olunub.**

Tədbir Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının birgə təşkilatçılığı ilə keçirilib.

Muzeyin elmi kütləvi işlər şöbəsinin müdiri Xanımbacı Abdinova Azərbaycanın ilk qadın pianoçularından olan Xədicə Qayıbovanın həyat və yaradıcılıq yolu, onun musiqi mədəniyyətimizin inkişafında fəal iştirakı, maarifpərvər, pedaqoji fəaliyyəti haqqında çıxış edib.

... Xədicə Qayıbova Tiflisdə ünlü ruhanilərdən Osman bəy Müftizadənin ailəsində dünyaya gəlib. Şəhərdəki "Müqəddəs Nina" qızlar məktəbində oxuyub, burada mükəmməl musiqi dərsləri də alıb. O həm Şərq, həm də Avropa musiqisinin gözəl bilicisi kimi Azərbaycanın mədəni həyatında fəal iştirak edib. Onun təşəbbüsü ilə "Qısamüddətli Şərq musiqi kursları" təşkil edilib, uşaq xoru yaradılıb. Dövrünün görkəmli sənətkarları ilə çalışaraq Azərbaycan folklorunun toplanması istiqamətində də səylərini əsirgəməyən Xədicə Qayıbova repressiya qurbanı olub.

Tədbirdə "Ömür sonatası" sənədli filmi nümayiş olunub. Azərbaycan Televiziyasının "Sabah" studiyası tərəfindən Xədicə Qayıbovanın 130 illik yubileyi münasibətilə çəkilmiş "Ömür sonatası" sənədli filmi bu il geniş tamaşaçı auditoriyasına təqdim olunub. Filmin rejissorları Namiq Ağayev, Anaxanım Abdullayeva, ideya müəllifi və prodüseri Xalq artisti Ramiz Həsənoğludur.



Filmin nümayişindən əvvəl Xədicə Qayıbovanın rolunu ifa etmiş pianoçu, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nərgiz Salmanlı, filmin məsləhətçisi, Bakı Musiqi Akademiyasının prorektoru, professor, Xalq artisti Yeganə Axundova yaradıcılıq prosesi haqqında təəssüratlarını bölüşdülər.

# Oxucu məktubları




● ANIM

## Lənkəranın mərd oğlu

**Müqəddəs Qarabağın erməni quldurlarından təmizlənməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızdan biri də 1983-cü ildə Lənkəran rayonu Veravul kəndində dünyaya göz açan gizir Yusif Məmmədrza oğlu Xəlilovdur.**




Doğma Azərbaycana, xalqına böyük sevgisi olan Yusif Xəlilov 18 il orduda xidmət edib. Vətənini göz bəbəyi kimi qoruyub, məqamı gələndə onun yolunda canından keçməyi özünə şərəf bilib. 2016-cı ilin Aprel döyüşlərində iştirak edib, ağır yaralanıb. Sağaldıqdan sonra tank komandiri kimi Vətəninin keşiyində durub. Lokal antiterror tədbirlərnə qoşulan igid döyüşçü son damla qanına qədər vuruşaraq əbədiyyətə qovuşub. Doğulub boya-başa çatdığı Veravul kəndində torpağa tapşırılıb.

Şərəfli ölümü ilə ölümsüzlüyə qovuşan Yusif Xəlilovun oxuduğu Veravul kənd məktəbində xatirə lövhəsi vurulub. Məktəbdə Yusif Xəlilov adına sinif otağı da fəaliyyət göstərir.

Bəli, doğma Azərbaycanın müqəddəsliyinə tapınaraq ömrünü ona sərf edən Yusif kimi mərd oğlanlar heç zaman unudulmur.

*Z.ƏLİYEV*

● MƏMNUNLUQ

## Qədim məktəbin yeni binası

**Şorsulu Salyan rayonunun ən böyük kəndlərindən biridir. Kənddə hələ sovetlərdən əvvəl də məktəb fəaliyyət göstərmişdir. Sovet hökuməti isə onu yeni tədris ocağı ilə əvəz etmişdir.**



Bir müddət dərslər kənddəki evlərdən birində aparılmışdır. 1926-cı ildə kəndlilərin öz iştirakı ilə "ayıbalası" adlanan çiy kərpiclər kəsilərək o vaxt üçün böyük hesab olunan 6-7 otaq və dəhlizdən ibarət məktəb binası tikilmişdir. Rayonun kəndləri arasında Salyan şəhəri istisna olmaqla kəndlərin heç birində tam orta məktəb olmayanda Şorsulu məktəbi region üzrə tək təhsil ocağı idi.

Sonralar kontingent böyüdüyündən məktəb uyğunlaşdırılmış digər binaya köçürülmüşdür. Əsrin əvvəllərində inşa olunan bina yenə əvvəl ibtidai, sonra ümumi orta məktəb kimi fəaliyyətini davam etdirmişdir. Yeri gəlmişkən, onu da deyək ki, keçən əsrin 60-cı illərinin sonlarına qədər tam orta təhsil almaq üçün Qızılağacdan başlamış Qarabucağa qədər bütün kəndlərdən olan gənclərin üz tutduğu yeganə məktəb Şorsulu kəndində idi. Burada uzaqdan gələn uşaqlar üçün yataqxana da fəaliyyət göstərirdi.

İllər ötdükcə kənd böyümüş, ətraf kəndlərin də əhalisi artmışdır. Nəticədə Şorsulunun özündə iki, kəndin Bala Kürün o tayındakı hissəsində də bir məktəb açılmışdır. Qədim məktəbin keçmiş binası isə müasir tələblərə cavab vermirdi. Divarlarda yaranan çatlar, tavanın çökmə təhlükəsi, döşəmələrin əldən düşməsi binanı təhlükəli etmişdi. Vəziyyət kənd ictimaiyyətini və məktəb kollektivini narahat edirdi. Heydər Əliyev Fondu bu problemi köklü şəkildə həll etdi. Bir il içərisində məktəb üçün iki mərtəbəli, 3 korpusdan ibarət yeni, müasir, yaraşıqlı bina tikilib istifadəyə verildi.

Şəhid Namiq İbrahimovun adını daşıyan 300 şagirdlik məktəbdə 13 sinif otağı, kimya, fizika, biologiya laboratoriyaları, informatika və hərbi təlim kabinetləri, qızlar və oğlanlar üçün ayrıca əmək təlimi emalatxanaları, akt və idman zalları, kitabxana, yeməkxana, həyətdə açıq idman meydançası vardır. Məktəb hər cür avadanlıq və təlim vasitələri ilə təchiz edilmişdir. İndi Salyanın müasir kəndi, şəhərə oxşayan yaşayış məntəqəsi, ziyalıları ilə qədimdən məşhur olan Şorsulu bu hadisənin sevincini yaşayır. Uğurların bol olsun, doğma kəndim, əziz məktəbim!

***Gülzar HÜSEYNOVA,***
***Salyan şəhər sakini,***
***təqaüdçü müəllim***

## AZƏRBAYCAN-a cavab verirlər

### "Müvafiq ünvanlara məktub göndərilmişdir"

**"Azərbaycan" qəzetinin 29 sentyabr 2023-cü il tarixli sayında dərc edilmiş "Parklanmadakı özbaşınalıq ərazini keçilməz edib" sərlövhəli oxucu məktubunda qaldırılmış problemin həlli barədə rayon icra hakimiyyətinə ünvanlanmış məktuba tərəfimizdən baxılmışdır.**

Məlumat üçün bildiririk ki, müraciətlə bağlı müvafiq tədbirlər görülməsi üçün rayon icra hakimiyyəti tərəfindən aidiyyəti üzrə Quba Rayon Polis Şöbəsinə və Yerüstü Nəqliyyat Agentliyinin Quba Regional İdarəsinə məktublar ünvanlanmışdır.

***İlqar MAHMUDOV,***
***Quba Rayon İcra Hakimiyyətinin başçısı***

● MİNNƏTDARLIQ

## Ailəmiz üçün yeni ev tikildi

**Müstəqil Azərbaycanın hərb tarixində şanlı səhifə açan 44 günlük Vətən müharibəsindən 3 il keçsə də, o qanlı-qadalı günlər bu gün də xatırlanır.**

Mən də həmin qürurlu günlərin birbaşa iştirakçısıyam. Döyüşlərin birində ağır yaralandım. "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", eləcə də "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olundum.

Hörmətli redaksiya! Fəxr edirəm ki, qazanılan qələbədə mənim də payım var. Rayon rəhbərliyi tez-tez məni yada salır və qayğılarımla maraqlanır. Bu yaxınlarda yaşayış şəraitimizi yaxşılaşdırmaq üçün bizə ev də inşa edildi. İndi geniş və hər bir şəraiti olan evdə yaşayırıq. Bu işdə əməyi olan hər kəsə minnətdarlığımızı bildiririk.

***Fəqan RƏHİMOV,***
***Qazax rayonu Qazaxbəyli kənd sakini, 3-cü dərəcəli Vətən müharibəsi əlili***

## Fotofakt









*Abşeron rayon Hökməli qəsəbəsinin "beton yol" adlandırılan ərazisindən keçərkən bir sıra neqativ hallarla qarşılaşdıq. Bunlardan biri qəsəbənin bir neçə yerində qalaqlanmış zibilliklərdir. Həmin yerlərdə konteynerlər olmadığından zibillər yerə tökülür və vaxtında daşınmadığına görə sakinlər tərəfindən yandırılır. Yandırılmış zibillərdən yaranan qoxu, çürümüş zibillərdən ətrafa yayılan üfunət real infeksiya mənbəyidir. Divardakı his qalıqlarından, qurumuş heyvan sümüklərindən aydın olur ki, konteynerlərin olmaması bir yana, zibillərin daşınmasında da problem var və bu problem uzun müddətdir davam edir.*

*Azyaşlı uşaqların o ərazidə oynamaları, qəsəbə sakinlərinə məxsus mal-qaranın zibilliklərdə qidalanması da gözümüzdən yayınmadı. Yaranmış antisanitar vəziyyət əlaqədar qurumların diqqətindən bəs niyə yayınır? Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq orqanlarının yaxın zamanda iman və vicdanlarının ürəklərinə hökm edib Hökməli sakinlərinin problemləri ilə maraqlanacaqlarına ümid edirik.*

***Fotolar İlham BABAYEVİNDİR***

● RAZILIQ

## Səyyar görüşdə qaldırdığımız problem həllini tapdı

**Son vaxtlar rayon rəhbərliyinin keçirdiyi səyyar görüşlər mövcud problemlərin həll edilməsində mühüm rol oynayır. Belə görüşlərdən biri bu yaxınlarda yaşadığım Göygöl rayonunun Pənahlılar kəndində keçirildi.**



Rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev kənd sakinlərini dinləyərək onların problemləri ilə maraqlandı. Biz kəndin ərazisindən keçən Çaylı-Pənahlılar avtomobil yolunun sel suları nəticəsində dağıldığını və bununla bağlı kənd əhalisinin əziyyət çəkdiyini bildirdik. Rayon rəhbəri elə yerindəcə aidiyyəti təşkilatların rəhbərlərinə tapşırıq verdi. Bir neçə gündən sonra problem öz həllini tapdı. Daxili imkanlar hesabına Pənahlılar kəndi ərazisindən keçən Çaylı-Pənahlılar avtomobil yolunda sel sularının törətdiyi fəsadlar aradan qaldırıldı.

Hörmətli redaksiya! İndi kənd sakinləri heç bir əziyyət çəkmədən həmin yoldan rahatlıqla istifadə edirlər. Bu işdə əməyi keçən hər kəsə kənd sakinləri adından minnətdarlığımızı bildiririk.

***Tofiq ABBASOV,***
***Göygöl rayonu Pənahlılar kənd sakini***

● GÜZƏRAN

## Məhəllənin səliqə-sahmanı sakinlərdən də asılıdır

**Sumqayıt son illər səliqəli küçələri, abad parkları və təmiz məhəllələri ilə diqqəti cəlb edir. Yaşadığımız 2-ci mikrorayon belə yaşayış sahələrindəndir.**



Şəhərin ilk nümunəvi ərazilərindən olan məhəlləmizdə hər il abadlıq işləri görülür. Hazırda yaşayış binalarının ətrafında qışa hazırlıqla bağlı təmir işləri sona çatmaq üzrədir. Həmin işlər çərçivəsində həyətdəki park yerləri ağardılaraq normal hala gətirilib. Bu işdə kommunalçılara mikrorayon sakinləri də yaxından kömək edirlər. Hamı yaxşı bilir ki, məhəllənin abad və təmizliyi öncə sakinləri məmnun edir.

***Xanbala MƏHMƏDOV,***
***Sumqayıt şəhəri 2-ci mikrorayon sakini***

● NARAZILIQ

## Qəsəbəmizin subartezianı fasilələrlə işləyir

**Qızılhacılı qəsəbəsi rayon mərkəzindən o qədər də uzaq deyil. Qəsəbə magistral yolun kənarında yerləşir. Qəsəbədə bütün infrastruktur yaradılıb.**



Lakin qəsəbədəki subartezian quyusu fasilələrlə işləyir ki, bu da su qıtlığı yaradır. Xüsusilə yay aylarında susuzluqdan əziyyət çəkən sakinlər nəinki məişət üçün, eləcə də bağ-bağçanı suvarmaq üçün su tapmırlar. Məcbur olub, maşınlarla su gətirtməli olurlar ki, bu da ailə büdcəsinə ziyan vurur. Soruşanda deyirlər ki, nasos sıradan çıxıb.

***Qənifə MƏMMƏDOVA,***
***Goranboy rayonu Qızılhacılı qəsəbə sakini***

● PROBLEM

## Binəqədiyə işləyən ictimai nəqliyyata nəzarət edən yoxdur

**Binəqədi qəsəbəsində yaşayıram. İş yerim şəhərdə olduğundan ictimai nəqliyyatdan istifadə edirəm.**




Amma hamı kimi məni də paytaxtın ictimai nəqliyyatının fəaliyyəti, yumşaq desəm, qane etmir. Götürək Binəqədiyə işləyən 133, 165, 108B nömrəli marşrutları. Evə dönərkən həmin marşrutlarda işləyən avtobusları uzun müddət gözləməli oluram. Avtobusların bu intervalla işləməsi təbii ki, basabasa səbəb olur. Birtəhər mənzil başına çatanda isə görürük ki, sadaladığım marşrutlarda işləyən avtobuslar son dayanacaqda bir-birinin ardınca düzülüblər. Dolmamış yerlərindən tərpənməyən bu avtobusların qrafikinə nə baxan var, nə də nəzarət edən. Problemimizi kimə deyək, bilmirik.

***B.MİRZƏYEV,***
***Binəqədi qəsəbə sakini***

● NÖQSAN

## Küçə ticarəti bizi narahat edir

**Yasamal rayonu A.Şərifzadə küçəsi sanki bazarı xatırladır. Bu, bir tərəfdən yaxşıdır. İstədiyimiz vaxt istənilən məhsulu bazara getmədən yaşadığımız evin yaxınlığından rahat ala bilirik. Çeşid çoxdur, qiymətlər münasib.**





Amma bu, küçə ticarətinin görünən tərəfidir. Görünməyən tərəfi isə odur ki, evimizə bu şəraitdə satılan məhsulları alıb aparmağımız vəziyyətimizi yüngülləşdirməkdən çox ağırlaşdırır. Səkilərin küçə alverçiləri tərəfindən zəbt olunaraq gigiyenik qaydalara əməl etmədən ərzaq məhsulları satmaları bizi ciddi narahat edir. A.Şərifzadə küçəsi gediş-gəlişin sıx olduğu yerdir. Hər gün buradan keçən saysız-hesabsız insanın ayaqaltından qalxan toz-torpaq, yaxınlıqdan keçən maşınlardan çıxan zəhərli qazlar küçədə satılan ərzaqların üstünə hopur. Hələ küçə ticarətinin hərəkətə mane olması, antisanitar vəziyyət yaratmasını demirik. Dəfələrlə əraziyə nəzarət edən polislərlə satıcılar arasında mübahisələrin də şahidi olmuşuq. Müəyyən vaxta piştaxtalar götürülsə də, bir müddət sonra yenidən işlərinə davam edirlər. Küçə ticarətinin qarşısının alınması sanki qarşısıalınmaz problemə çevrilib. Xahiş edirik, bu məsələnin həllini tapmasında bizə komək edəsiniz.

***Xaliq FEYZİYEV,***
***Bakı şəhər sakini***

● GİLEY

## Yeni uşaq bağçasına ehtiyacımız var

**Tovuz rayonunun ən böyük kəndlərindən biri də Aşağı Öysüzlüdür. Son illər kənddə aparılan abadlıq və yenidənqurma işləri kəndin simasını tamamilə dəyişmişdir, illərlə yığılıb qalmış problemlər demək olar ki, aradan qaldırılmışdır.**




Bununla belə kənddə uşaq bağçası problemi hələ də qalmaqdadır. Kənddəki 1 saylı uşaq bağçasının yerləşdiyi bina tamamilə qəzalı vəziyyətə düşmüşdür. Uzun müddət təmir işləri aparılmadığından pəncərələr, qapılar, döşəmə, dam örtüyü demək olar ki, yararsız vəziyyətdədir. Qışda binanın isidilməsində odundan istifadə edilir. Bu isə birbaşa yanğın təhlükəsidir. Onu da deyək ki, uşaq bağçasının yarım əsrdən çox yaşı var. Bir az da belə getsə, uşaqlarımızı bağçaya verməkdən imtina edəcəyik.

Hörmətli redaksiya! Xahiş edirik, səsimizi kənddə yeni uşaq bağçasının tikilməsinə qərar verən qurumlara çatdırasınız.

***Ceyran VƏLİYEVA,***
***Tovuz rayonu***
***Aşağı Öysüzlü kənd sakini***

# Bakıda Qərbi Azərbaycan əsilli rəssamların əsərlərindən ibarət sərgi açılıb





**Dekabrın 7-də Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına Sərgi Salonunda Qərbi Azərbaycan əsilli rəssamların əsərlərindən ibarət sərgi açılıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Rəssamlar İttifaqının və Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə keçirilən sərgidə Xalq rəssamları Hüseyn Əliyevin, Kamil Əliyevin, Arif Qazıyevin, İsmət Axundovun, Əməkdar rəssamlar Rza Avşarovun, İsa Məmmədovun, Nağdəli Xəlilovun, Sabir Hüseynovun, Saleh Məmmədovun, Akif Quliyevin, Xuday İbrahimovun, Pərvin Quliyevanın, Sevil Əhmədovanın, Əli İsmayılın, ümumilikdə 25 müəllifin 40-dək rəngkarlıq və rəsm əsəri nümayiş olunur.

Qonaqları salamlayan Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov sərginin keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

Çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, Qərbi Azərbaycandan son 200 ildə deportasiya edilmiş, etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarına qayıtmaq hüququnun beynəlxalq səviyyədə tanıdılması böyük önəm daşıyır.

"Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi ilə məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıdışı özlüyündə tarixi və siyasi hadisədir. Eyni zamanda yaradıcı insanlar və rəssamlar üçün də bir ilham qaynağı, yaradıcılıq mövzusudur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva zəngin irsimizin qorunmasına, inkişafına, təbliğinə böyük diqqət və qayğı göstərirlər. Qərbi Azərbaycan əsilli incəsənət xadimlərinin, eləcə də rəssamların müxtəlif dövlət təltiflərinə layiq görülmələri bu qayğının bariz nümunəsidir", - deyə icmanın sədri bildirib.

O diqqətə çatdırıb ki, Qərbi Azərbaycan incəsənətinin ən maraqlı nümunələri divar rəngkarlığı sahəsində öz əksini tapıb. Qərbi Azərbaycan əsilli rəssamların yaradıcılığında Vətənə məhəbbət əsas mövzulardan biridir. Sərgidə nümayiş olunan əsərlər mövzu etibarilə Vətənin gözəlliyini, tarixi abidələrini, insanların mənəvi saflığını özündə əks etdirir.

Qərbi Azərbaycan əsilli rəssamların əsərlərindən ibarət sərginin açılışında dövlət və hökumət nümayəndələri, Qərbi Azərbaycandan olan ziyalılar, elm və incəsənət xadimləri iştirak ediblər.

# Ölkəmizdə güclü zəlzələ gözlənilmir

**Azərbaycan seysmoloji baxımdan Ərəbistan və Avrasiya tektonik plitələrinin kəsişməsində yerləşdiyi üçün zəlzələ bölgəsi hesab edilir. Əslində ölkəmizdə mütəmadi olaraq zəlzələlər baş versə də, onlardan çoxu kiçik təkanlar olduğu üçün hiss edilmir. Azərbaycanda qeydə alınan zəlzələlər, əsasən, tektonik plitə və blokların hərəkəti nəticəsində ortaya çıxır.**

Bu təbii fəlakət insan həyatı üçün təhdid olsa da, ona qarşı insan hələ də gücsüzdür. Texnologiyanın inkişafına baxmayaraq, bu prosesə tam nəzarət etmək, zəlzələnin yeri və gücü barədə öncədən məlumat almaq mümkün deyil. Zəlzələ adətən dağıdıcı gücə malik olur. Lakin güc nisbətinə görə bir çoxu insan həyatı üçün təhlükə törətmir.

Qeyd etmək lazımdır ki, ötən il ərzində ölkədə 12 min 762 yeraltı təkan qeydə alınıb ki, onlardan yalnız 17-si hiss olunub. Baş verən yeraltı təkanlardan 2949-u yerli, 4645-i regional, 3776-sı isə uzaq zəlzələlərdir.

## Zəlzələnin maqnitudası 5,6 olub

Dünən saat 08:16-da Xəzər dənizində zəlzələ qeydə alınıb. Respublika Seysmoloji Xidmət Mərkəzindən bildirilib ki, zəlzələnin maqnitudası 5,6, dərinliyi isə 70 km olub. Yeraltı təkanlar Altıağac, Siyəzən, Quba, Qusar, Xaçmaz, Şabran, Qobustan, Abşeron yarımadasında 5-3 bala qədər hiss olunub. Mərkəzin baş direktoru Qurban Yetirmişli bildirib ki, iyulun 4-də baş vermiş zəlzələdən sonra tam enerji boşalması olmadığı üçün bu, gözlənilən zəlzələ idi: "Bugünkü zəlzələ 51 saniyə davam edib. Zəlzələnin hiss olunması isə 47 saniyəyə qədər olub. Zəlzələdən sonra 6 afterşok qeydə alınıb".

RSXM direktoru deyib ki, zəlzələdən sonra 3 bala kimi afterşoklar olsa da, güclü zəlzələ gözlənilmir. O, əhalinin narahatlığı üçün heç bir səbəb olmadığını qeyd edib.

Müvafiq qurumlar məlumat verib ki, zəlzədən sonra dağıntı, binalara xəsarət dəyməsi barədə fakt aşkarlanmayıb. Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə heç bir müraciət daxil olmayıb. Gün ərzində yoxlamalar davam edib, bütün körpü və yolötürücülərinə, dəmiryol xətlərinə, yeraltı və yerüstü keçidlərə, tunellərə nəzarət gücləndirilib.

DİN-in Mətbuat xidmətindən bildirilib ki, zəlzələ ilə əlaqədar xüsusi tapşırıqlar verilib, polis gücləndirilmiş iş rejiminə keçib, əlavə qüvvə cəlb edilməklə, fasiləsiz xidmət təşkil edilib.

Zəlzələnin dərs vaxtı baş verməsi valideynlərin narahatlığına səbəb olub. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi uşaqlara, şagird və valideynlərə həyəcanlanmamağı və narahat olmamağı tövsiyə edib. Təhsil müəssisələrində tədris davam etdirilib.

## Zəlzələ zamanı nə etməliyik?

Zəlzələnin baş verəcəyi vaxtı müəyyənləşdirmək mümkün olmasa da, onun dağıdıcı təsirini azaltmaq imkanları mövcuddur. Təcrübədən məlumdur ki, əsas təhlükə zəlzələnin özü yox, onun fəsadlarıdır: torpaq süxurlarının ani dəyişikliyi, bina və tikililərin dağılması, mebel və digər ev avadanlıqlarının aşması, şüşə qırıntıları, sel və qaz sızıntısı və s.

Mütəxəssislər təbii fəlakət zamanı mümkün olduğu qədər sakit davranmağı və düşünərək hərəkət etməyi tövsiyə edirlər. Bu zaman mühüm məqamlardan biri insanın özünü itirməməsi, nə edəcəyini bilməsi, düzgün qərarlar qəbul etməsidir.

Zəlzələ zamanı mümkün olduğu təqdirdə binalardan çıxmaq, bu zaman liftdən yox, pilləkənlərdən istifadə etmək lazımdır. Çölə çıxan kimi boş ərazilərə gedilməli, tikili və naqillərdən uzaq dayanılmalıdır.

Yaşayış yerini tərk edə bilməyənlər daxili divarın yanında, otaq künclərində durmalı, stol və ya yataqaltı kimi təhlükəsiz yerlərdə yumaq formasında uzanaraq əlləri ilə başlarını örtməlidirlər. Mənzildə qaz sızıntısı ehtimalını nəzərə alaraq kibrit yandırılmamalıdır. Təhlükəli miqdarda toz udmamaq üçün yalnız əlacsız qaldıqda qışqırmalı, ağız nahiyəsi əl dəsmalı və ya geyimlə bağlanılmalıdır. Xilasedicilərin zərərçəkənlərin olduğu yeri müəyyən etmələri üçün boru və ya divara vurmaqla işarə verilməlidir.

Zəlzələ zamanı nəqliyyatda olan təqdirdə təkanlar qurtarmayınca onu tərk etmək məsləhət görülmür. Nəqliyyat vasitələri binaların, ağacların, estakadaların və elektrik naqillərinin yanında saxlanılmamalı, zədəli olan yollardan, körpülərdən və maili enişlərdən istifadə edilməməlidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Erməni diversant 18 il müddətinə azadlıqdan məhrum edilib

**Kəlbəcər istiqamətində tutulmuş erməni diversant Voskanyan Qaqik Aşotinin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**



AZƏRTAC xəbər verir ki, Sabunçu Rayon Məhkəməsinin inzibati binasında Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Abdulla Məmmədovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, təqsirləndirilən şəxs 18 il müddətinə azadlıqdan məhrum edilib.

O, cəzasının ilk 5 ilini qapalı, qalanını isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməlidir.

Prokuror təqsirləndirilən Qaqik Voskonyanın 18 il müddətinə azadlıqdan məhrum edilməsini istəmişdi.

Qeyd edək ki, bu il avqustun 16-da Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu tərəfindən terror-təxribat əməliyyatları həyata keçirmək məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədinin pozulması faktı ilə bağlı Baş Prokurorluq tərəfindən cinayət işi başlanaraq ibtidai istintaq aparılıb.

Qeyd olunan qanunsuz əməllərin qarşısı alınan zaman saxlanılmış Ermənistan silahlı birləşmələrinin üzvü Voskanyan Qaqik Aşotinin Cinayət Məcəlləsinin 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silah və döyüş sursatının qaçaqmalçılığı), 214.2.1, 214.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silahdan istifadə etməklə terrorçuluq), 228.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah əldə etmə, daşıma, saxlama), 283.2.1 (zor tətbiq etməklə milli düşmənçiliyin salınmasına aşkar surətdə yönələn hərəkətlər etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən zor tətbiq etməklə Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Sirrini verməyir kimsəyə dünya...

**Artıq neçə vaxtdır yenə də planetimizin aqibəti haqqında bir-birindən bədbin proqnozlar verilir. Alimlər, ekoloqlar dünyanın sonu haqqında danışır, qlobal fəlakətlərin ardıcıllığını sadalayaraq qiyamət gününün az qala tarixini dəqiqləşdirir və hətta bunları filmlər və videoroliklər şəklində təqdim edirlər.**

Nə qədər heyrətamiz və vahiməli olsa da, yeni buz dövrünün gələcəyi və Niaqara şəlaləsinin belə, itəcəyi proqnozlaşdırılır. Bəziləri yazırlar ki, Yer bir kilometr ölçüsündə meteoritlə toqquşacaq. Bəziləri də ağlabatmayan supervulkanın püskürəcəyindən xəbər verirlər. O da bildirilir ki, bu tipli fəlakətlərlə digər planetlər də üzləşəcək. Məsələn, elə qamma partlayış baş verə bilər ki, planetimizin azon təbəqəsi məhv olsun. "Günəşin parlaqlığı artacaq, okeanlar yox olacaq" kimi bəd gözləntilər də unudulmur. Amma bu hadisələr tezliklə baş verməyəcək. Toxtaqlıq gətirən, ürəyə təsəlli verən nə isə varsa, o da bu hadisələrin bu gün, sabah yox, gələcəkdə baş verəcəyinin söylənməsidir.

Alimlər və ekoloqlar iqlim dəyişikliklərinin nəticələrini də proqnozlaşdırmağa çalışırlar. Onlara inansaq, bizi yaxın illərdə ən güclü istilər, daha doğrusu, illik orta temperatur göstəricisinin 1,5 dərəcə artması gözləyir. Bütün bunlardan sonra gəl rahat ol, görüm necə olursan...

Sadalanan təhlükələrin sırasında diqqətçəkən Apofis asteroidi ilə bağlıdır. 46 milyon tonluq bu "çağırılmayan qonaq" 2029-cu ildə peyda ola bilər. Onun diametri 0,5 kilometrdir. Əgər bu "cırtdan" təhlükə Yer ilə toqquşsa, o, Günəş sistemində baş verən bütün fəlakətləri kölgədə qoyacaq. Bu yalan-doğru fəlakətlərin bədbin tərəfi odur ki, insan onların qarşısını almaqda acizdir. Hikbinlik doğuran isə odur ki, alimlərimiz, qeyd etdiyimiz kimi, belə fəlakətlərin yaxın yox, uzaq gələcəkdə baş verəcəyini düşünürlər. Düşünürlər ki, uzaq gələcəkdə Yer kürəsi Günəşin atdığı qamma şüaların nəhəng axını ilə toqquşacaq və nəticədə böyük ozon dəlikləri yaranacaq, ozon qatının tən yarısı yox olacaq. Bunun fəsadları isə qorxulu yuxudur - planetimiz səhralaşacaq və bütün canlılar məhv olacaq. Alimlərin başqa bir qanqaraldan proqnozu da ondan ibarətdir ki, 1 milyard ildən sonra Yer Günəşin növbəti zərbəsindən Venera kimi yanmış planetə çevriləcək və onun hərarəti toksik metalların ərimə temperaturuna çatacaq.

Lakin bu proqnozlara Quran ayəsi kimi yanaşmaq da düz deyil. Ona görə gəlin, bu yüzlilliyin əvvəli üçün verilən proqnozların hansılarının reallaşdığına fikir verək. Məsələn, Bibliya XX əsrin son ilini bəşəriyyətin son ili kimi qiymətləndirmişdi. XX əsrin son gününə atom müharibəsinin proqnozunu da verənlər olmuşdu. Astroloqlar, münəccimlər isə bütün dünyada 2000-ci ildə kompüterlərin sıradan çıxacağını, bəşəriyyətin fəlakətlərə düçar olacağını demişdilər. Ümumiyyətlə, 2000-ci ilin sonuna dünyanın məhvi barədə 3 min proqnoz verilmişdi. Bu azmış kimi, 2006-cı il iyunun 6-da dünyanın sonu barədə proqnozlar söyləndi. Əgər yadınızdadırsa, həmin il Yer kürəsi İkarla toqquşmalı idi. Təbii ki, digərləri kimi, bu da baş vermədi. Amma nə olsun, gələcəyi "görənlər" yenə sakitləşmədilər və Yer kürəsinin növbəti sonu 2015-ci il sentyabrın 28-nə proqnozlaşdırıldı. Gördüyümüz kimi, bu da olmadı.

Bütün bunlara baxmayaraq, münəccimlər, astroloqlar və alimlər yenə də dünyanın sonu ilə bağlı proqnozlarını davam etdirirlər. İndi də 2029-cu ildə planetimizin asteroidlə toqquşacağı, 2030-ci ildə buzlaqların əriməsi ilə dünyanın sonunun gələcəyi barədə "fal açırlar". 2036-ci ildə isə sağ qalanları asteroidin yox edəcəyini deyirlər.

Yeri gəlmişkən qeyd edək ki, dünyanın gələcəyi ilə bədbin proqnoz vermək mərəzi təzə deyil. Məsələn, Nyutona inansaq, dünyanın sonu 2060-cı, Monax Avelə görə 2892-ci, Nostradamusun fikrincə isə, 3797-ci ildə olacaq. Amma bütün bunlar əsaslandırılmamış və bu səbəbdən tarixboyu özünü doğrultmamış və ayıq adamlar üçün heç bir maraq doğurmayan "proqnoz"lardır. Çünki böyük Səməd Vurğun demişkən: "Sirrini verməyir kimsəyə dünya". Deməli, qiyamət üçün qiyamət qoparmağa dəyməz.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


**ELAN**

"Mazarina" Məhdud Məsuliyyətli Cəmiyyətinin 05 dekabr 2023-cü il tarixli qərarı ilə Orxan Əhməd oğlu Poluyev cəmiyyətin yeni təsisçisi elan edilib.

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 1997-ci il 6 fevral tarixli D-1783 nömrə ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Milli Elmlər Akademiyasının Təmir-tikinti və quraşdırma idarəsinin möhürü itdiyi üçün etibarsız sayılır.**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 1995-ci il 28 noyabr tarixli D-855 nömrə ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Milli Elmlər Akademiyasının təsərrüfat hesablı Avtobazasının möhürü itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Əli, Mobil, Mehman və Rafiq Hüseynovlar, Bəkir Əhmədov, Rza İsmayılov və İlham İbrahimov Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Aparatının əməkdaşı polkovnik Ağamirzə Dünyamalıyevə əzizi

**İLHAM MEHDİ OĞLU MEHDİYEVİN**

Rusiya Federasiyasının Perm vilayətində vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Xarici dillər kafedrasının professoru Ramazan Məmmədova həyat yoldaşı

**ELMİRA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5270**
**Sifariş 3207**

**Qiyməti 40 qəpik**